RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 35 (9490) 16 FEVRAL 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan İlham Əliyevi təbrik edib



Fevralın 15-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib, Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Azərbaycan Prezidenti və Prezident Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ölkələrimiz arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bir daha vurğulayıb və yüksək səviyyədə həyata keçirilən təmasların əlaqələrimizin möhkəmlənməsi işinə töhfə verdiyini bildirərək Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin bu ilin yanvarında ölkəmizə rəsmi səfərinin əhəmiyyətini qeyd ediblər.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini COP28-in uğurla keçirilməsi münasibətilə təbrik edib və eyni zamanda COP29-un Azərbaycanda keçirilməsi üçün göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə edib.

Telefon söhbəti zamanı əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olunub, əməkdaşlığın perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## Qarabağ Universitetinin fəaliyyətinin təşkili üçün maliyyə vəsaiti ayrılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qarabağ Universitetinin fəaliyyətinin təşkilinə maliyyə dəstəyi göstərilməsi üçün Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə 10,0 (on) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2024-cü il*



## YOLUMUZ AYDIN, HƏDƏFLƏRİMİZ BƏLLİDİR

Azərbaycan Ermənistanla münaqişəni bitmiş sayır.

Onunla sülh müqaviləsi imzalamaq və gələcəkdə əməkdaşlıq etmək istəyini də ortaya qoyub.

Ermənistan isə xam xəyallarla yaşayır, silah tədarükü görür, danışıqları, sərhədlərin delimitasiyasını və demarkasiyasını uzadır.

Özü bilər!

**"Dəmir yumruq" yerindədir və əvvəlkindən də güclüdür.**

*Onun havadarları isə müzakirələrə qatılmaq, danışıqlara münsiflik etmək, müxtəlif üsullarla Ermənistanın mövqeyini gücləndirmək istəyirlər.*

*Boş və mənasız xəyallardır!*

Ermənistan sülh istəmirsə, özü bilər və yenidən hərbə əl atsa, nəticəsi də hamıya və hər kəsə bəllidir.

Cənab İlham Əliyev Ermənistanın müdafiəçilərinə, danışıqlar prosesinə burun soxaraq erməni maraqlarını qorumaq fikrində olanlara da sözünü dedi: *"Biz öz məsələmizi həll etmişik".*

*"Gedin öz işinizlə məşğul olun".*

❖ ❖ ❖

**Azərbaycan düz yol ilə gedir!**

**Bu yol Heydər Əliyev siyasi kursu adlanır, dövlətimizi və xalqımızı daim qələbədən qələbəyə aparır.**

* Bu yol Azərbaycanı fəlakətlərdən, dövlət çevrilişi cəhdlərindən qurtardı, bir dövlət kimi məhvolmadan xilas etdi.

* Bu yol ilə gedən xalq İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli Azərbaycanını yaratdı.

* Bu yol ilə irəliləyərək dünya birliyinin nüfuzlu, sözükeçər dövlətlərindən birinə çevrildik.

* Bu yol ilə gedərək torpaqlarımızı işğaldan azad etdik, ərazi bütövlüyünə, suverenliyə nail olduq, milli qürurumuzu geri qaytardıq.

**İlham Əliyevin rəhbərliyi və sərkərdəliyi ilə qət etdiyimiz bu yol bizi qalib dövlətə, qalib xalqa çevirdi.**

**Heç kəs, heç zaman bizi bu yoldan döndərə, təhdid, təsir və təzyiqlərə boyun əydirə bilməz!**

**Yolumuz aydın, hədəflərimiz bəllidir!**

→ 4

## Azərbaycanın enerji siyasəti də yeni mərhələyə qədəm qoyur

Dövlətimizin başçısı fevralın 14-də keçirilən andiçmə mərasimində bildirdi ki, ənənəvi yanacaq növləri - neft-qaz sahəsində işlər davam etdiriləcək: "Neft hasilatının sabitləşməsi istiqamətində işlər gedir, hesab edirəm ki, yaxın gələcəkdə nəticələr olacaq. Bizə sabit neft hasilatı lazımdır və biz investorlar qarşısında bu vəzifəni qoymuşuq. Müəyyən narahatedici məqamlar olub və işgüzar qaydada təmaslar əsnasında bu məsələlərin həlli gözlənilir". Prezident İlham Əliyev qaz hasilatı və ixracı məsələlərinə də toxunmuşdur. Belə ki, biz artıq səkkiz ölkəyə mavi yanacaq ixrac edirik.

→ 7

## Akademik Arif Paşayevə

Hörmətli Arif müəllim!

Sizi 90 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Görkəmli nəslin nümayəndəsi və ailə dəyərlərini uca tutan şəxsiyyət kimi Sizin alicənablıq, sadəlik və xeyirxahlıqla səciyyələnən şərəfli həyat yolunuz əsl ziyalılığın parlaq nümunəsidir.

Siz Azərbaycan elminin inkişafında mühüm xidmətləri ilə tanınan dəyərli alimlərimizdənsiniz. Uzun illər ərzində apardığınız sanballı araşdırmalar, müəllifi olduğunuz ixtiralar və rəhbərliyiniz altında görülən xüsusi əhəmiyyətə malik işlər elmi ictimaiyyət tərəfindən daim maraqla qarşılanmış, ölkəmizdə və onun hüdudlarından kənarda Sizə şöhrət qazandırmışdır.

Nüfuzlu təhsil təşkilatçısı kimi göstərdiyiniz təqdirəlayiq fəaliyyət zəngin və səmərəli elmi yaradıcılığınızı üzvi surətdə tamamlayır. Azərbaycan Milli Aviasiya Akademiyasının rektoru olaraq mülki aviasiyamız üçün yüksəkixtisaslı kadrların hazırlanmasında, habelə akademiyanın regionun mötəbər ali təhsil müəssisələrindən birinə çevrilməsində böyük əməyiniz vardır.

Çoxsaylı elmi nailiyyətləriniz və təhsilin inkişafındakı əvəzsiz xidmətləriniz həmişə yüksək qiymətləndirilmişdir. Uğurlarına ürəkdən sevindiyiniz, qayğılarına hər zaman şərik olduğunuz həmkarlarınızın və yetirmələrinizin, dostlarınızın və yaxınlarınızın Sizə sevgisi isə qazandığınız ən dəyərli sərvətdir.

Əziz Arif müəllim!

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və işlərinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

Dərin ehtiramla,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2024-cü il*



## Birinci vitse-prezident Mehriban Əliyeva akademik Arif Paşayevin yubileyi ilə əlaqədar paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycan elmi elitasının sayılıb-seçilən nümayəndələrindən biri olan akademik Arif Paşayevin doğum günü ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir.

"Gözəl ata, qayğıkeş baba, nurlu, mehriban İnsan! 90 illik yubileyin mübarək! Sənə möhkəm cansağlığı və gözəl əhvali-ruhiyyə arzulayıram! Uca Tanrı səni bütün qada-balalardan hifz etsin! Səni çox sevirik! Ömrün uzun olsun! Allah bütün valideynləri qorusun!"



## Ekoloji terror

### Ermənistan Cənubi Qafqazı ekoloji fəlakət bölgəsinə çevirir

→ 15

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırıram.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri Konfransına 2024-cü ildə evsahibliyi edən ölkə kimi Azərbaycan iqlim böhranı ilə bağlı beynəlxalq təşəbbüslərə rəhbərlik etməkdə xüsusi rol oynayacaq.

Mən Sizin rəhbərliyinizlə Birləşmiş Millətlər Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsini, o cümlədən regionda uzunmüddətli sülhün və təhlükəsizliyin bərqərar olunmasını səbirsizliklə gözləyirəm.

Birləşmiş Millətlər Təşkilatı Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaqda və çoxtərəfliliyin gücləndirilməsində Azərbaycan hökumətinə və xalqına Bakıdakı nümayəndəliyi vasitəsilə dəstək verməyə hazırdır.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Antonio QUTERREŞ,***
***Birləşmiş Millətlər Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli Prezident Əliyev.

Yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsində səlahiyyətlərinizin icrasına başlamağınız münasibətilə Sizə ən xoş arzularımı çatdırıram.

Ötən 30 ildən artıq müddətdə ölkələrimiz arasındakı münasibətlər daha da güclənib. Təkcə son 12 ay ərzində biz Ukraynaya dəstək vermək üçün birgə işləmişik, Londonda strateji dialoqumuzu aparmışıq, minalardan təmizlənmə üzrə təcrübəmizi bölüşmüşük və ticarət əlaqələrimizi qurmağa davam etmişik.

2024-cü il Azərbaycan üçün daha çox əhəmiyyət kəsb edir, çünki siz noyabrda COP29-a evsahibliyi etməyə hazırlaşırsınız. Enerji keçidlərini irəliyə aparmaq və qlobal emissiyaları azaltmaq baxımından bu, həyati əhəmiyyətli bir məqamdır. Məmnuniyyətlə bildirmək istəyirəm ki, biz artıq COP26-nın ev sahibi kimi öz dəstəyimizi və təcrübəmizi təklif edirik. COP29-un uğurla keçirilməsi üçün sizə dəstək verəcəyimizə əmin ola bilərsiniz.

Mən həmçinin Ermənistanla sülh əldə etmək istiqamətində göstərilən səylər barədə də məlumatlıyam. Bu, münaqişəyə son qoymaq üçün tarixi bir şansdır. Mən davamlı müqavilənin hər iki ölkənin və ümumilikdə bütün regionun rifahı və sabitliyi üçün gətirəcəyi böyük faydaları yüksək qiymətləndirirəm. Davamlı sülhə nail olunmasında hər iki ölkəyə Böyük Britaniyanın davamlı dəstəyini bir daha vurğulayıram.

Yeni səlahiyyət müddətinizdə Sizə uğurlar arzulayır və tərəfdaşlığımızı daha da möhkəmləndirmək üçün Sizinlə işləməyi səbirsizliklə gözləyirəm.

*Hörmətlə,*

***Rişi SUNAK,***
***Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri***

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının dövlət başçısı seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Almaniya bundan sonra da Azərbaycana modernləşmə kursunda və hüquqi dövlətçilik strukturlarının möhkəmləndirilməsi yolunda dəstək verməyə hazırdır.

Sizinlə Münxen Təhlükəsizlik Konfransında görüşəcəyimizə şadam.

Ali dövləti fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Olaf ŞOLTS,***
***Almaniya Federativ Respublikasının Kansleri***

❖ ❖ ❖

Hörmətli Prezident İlham Əliyev.

Sizi ölkənizdə keçirilmiş prezident seçkilərində qazandığınız qələbə münasibətilə Bosniya və Herseqovinanın vətəndaşları, Rəyasət Heyəti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Qarşıdakı dövrdə tərəfdaşlıq və dostluq münasibətlərinə söykənən əməkdaşlığımızın davam etməsini və Sizin Bosniya və Herseqovinaya səfəriniz zamanı imzaladığımız iki ölkə arasında strateji tərəfdaşlıq haqqında bəyannamənin həyata keçirilməsini səbirsizliklə gözləyirəm.

Möhtərəm Prezident, Sizi seçkilərdəki inamlı qələbəniz münasibətilə bir daha təbrik edir, Sizə, ailənizə və Azərbaycan Respublikasının vətəndaşlarına xüsusi ehtiramımı bildirir, möhkəm cansağlığı və yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Jelko KOMŞİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

❖ ❖ ❖

Zati-aliləri.

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə təbriklərimi çatdırım.

1995-ci ildə diplomatik əlaqələr qurulandan bəri Malta Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlər yüksək səviyyədə inkişaf etmişdir. Ölkələrimiz qarşılıqlı hörməti və mehriban dostluğu daha da gücləndirməklə yanaşı, sıx əməkdaşlığı və dərin anlaşmanı inkişaf etdirmişlər. Əminəm ki, ölkələrimizin xalqlarının ümumi mənafeyi naminə Malta ilə Azərbaycan arasında mövcud olan çoxillik əlaqələr ikitərəfli əməkdaşlığın daha da gücləndirilməsi üçün nəzərdə tutulan yeni sahələrin araşdırılması yolu ilə möhkəmləndirilə bilər.

Mən həmçinin ölkələrimizin çoxtərəfli səviyyədə, xüsusən də Birləşmiş Millətlər Təşkilatında ümumi üzvlüyümüz vasitəsilə əlaqələrinin səmərəli inkişafını yüksək qiymətləndirirəm. Bundan əlavə, Malta Respublikası Şərq Tərəfdaşlığı (ŞT) kimi regional dialoq çərçivəsində Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında sıx və strateji tərəfdaşlığın davamlı tərəfdarı olaraq qalır.

Zati-aliləri, fürsətdən istifadə edərək Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayır və ən yüksək ehtiramımı çatdırıram.

*Dərin hörmətlə,*

***Corc VELLA,***
***Malta Respublikasının Prezidenti***

Zati-aliləri, əziz Qardaşım.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, ölkənizi daha da inkişafa və firavanlığa doğru aparan fəaliyyətinizdə davamlı uğurlar arzulamaqdan böyük məmnunluq duyuram.

Mən ölkələrimiz arasında dostluğa söykənən və davamlı inkişaf edən əlaqələrdən çox məmnunam. Odur ki, iki qardaş ölkəmizin xalqlarının qarşılıqlı rifahı naminə müxtəlif sahələrdə səmərəli əməkdaşlığımızı möhkəmləndirmək üçün birgə fəaliyyətimizi davam etdirməyi səbirsizliklə gözləyirəm.

*Hörmətlə,*

***VI MƏHƏMMƏD,***
***Mərakeşin Kralı***

❖ ❖ ❖

Cənab Prezident.

Seçkilərdə inamlı qələbəniz, yenidən Prezident seçilməyiniz münasibətilə Konqo xalqı və dövləti adından, şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırmaqdan xüsusi məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm.

Bu baxımdan, ölkələrimiz üçün faydalı maraqlara uyğun olaraq münasibətlərimizin möhkəmləndirilməsi istiqamətində Zati-alinizlə birgə işləməyə hazır olduğumu bir daha bildirirəm.

Sizə uzun ömür, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzu edirəm.

Cənab Prezident, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin.

***Deni SASSU-NQESSO,***
***Konqo Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati aliləri.

Bosniya və Herseqovinanın vətəndaşları adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində qələbəniz münasibətilə təbrik edirəm.

Uzun illərdir ki, ölkələrimiz arasında səmimiyyət və dostluq üzərində qurulmuş münasibətlər yaxşı əməkdaşlıqla səciyyələnir. İkitərəfli münasibətlərin ümumi maraq doğuran bütün sahələrdə bundan sonra da dostluq ruhunda inkişaf edəcəyinə inandığımı, ölkələrimizin və xalqlarımızın rifahı naminə tərəfdaşlığın qorunub saxlanmasına və genişləndirilməsinə sadiq qaldığımı bildirirəm. Bu xüsusda mən Sizinlə yeni görüşlərimizi və əməkdaşlığımızın davamını səbirsizliklə gözləyirəm.

Zati-aliləri, Sizə və Azərbaycan Respublikasının vətəndaşlarına ən xoş arzularımı və ehtiramımı bildirirəm.

*Dərin hörmətlə,*

***Denis BEÇİROVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, Sizin liderliyinizlə Azərbaycan inkişafa doğru daha sürətlə irəliləyəcək, ölkədə sosial və iqtisadi sabitlik dərinləşəcək, xalqınızın rifahı naminə yeni nailiyyətlər əldə ediləcək.

Əminəm ki, ölkələrimiz arasındakı ənənəvi dostluq münasibətləri dərinləşəcək və ikitərəfli əməkdaşlığın yeni sahələri üzrə daha da inkişaf edəcək. Mən bu münasibətlərin hərtərəfli yüksəlməsində, o cümlədən iqtisadi-ticari sahədə daha yaxşı nəticələr əldə olunmasında maraqlıyam. Buna görə də bu fürsətdən istifadə edərək yaxın gələcəkdə Sizinlə şəxsən görüşmək və ölkənizə rəsmi səfər etmək istədiyimi bildirirəm.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı və məsul vəzifənizin icrasında uğurlar arzulayır və görüşümüzü səbirsizliklə gözləyirəm.

*Hörmətlə,*

***Robert FİTSO,***
***Slovakiya Respublikasının Baş naziri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Azərbaycanda keçirilən prezident seçkilərində qələbə qazanaraq yenidən dövlət başçısı seçilməyiniz münasibətilə Sizə təbriklərimi çatdırır, fəaliyyətinizdə uğurlar arzulayıram.

Azərbaycanın inkişafı və xalqın rifahının yüksəlməsi, eləcə də ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi istiqamətində səylərinizi xüsusi olaraq qeyd edirəm.

Sizi, dost və qardaş Azərbaycan xalqını bir daha təbrik edir, xoş arzularımı bildirirəm.

*Hörmətlə,*

***İbrahim KÖŞDƏRƏ,***
***Türkiyə Böyük Millət Məclisinin Ədalət və İnkişaf Partiyasından olan deputatı***

❖ ❖ ❖

Zati-aliləri, möhtərəm cənab Prezident.

Azərbaycan Respublikasında keçirilən növbədənkənar prezident seçkilərində qələbəniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaq mənim üçün şərəfdir.

Belə mürəkkəb bir zamanda Sizin yenidən ölkə Prezidenti vəzifəsinə seçilməyiniz Azərbaycan xalqının öz liderinə dəstəyini və inamını sübut edir. Çünki Siz ölkənizi və xalqınızı tərəqqiyə aparan lidersiniz.

Latviya və Azərbaycan arasında dostluq münasibətləri otuz ildən artıqdır ki, uğurla inkişaf edir. Əminəm ki, prezidentliyinizin yeni dönəmində ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi və dərinləşdirilməsi istiqamətində qarşılıqlı fəaliyyət daha geniş vüsət alacaqdır.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Oleqs BUROVS,***
***Latviya parlamentinin üzvü, Seymin Azərbaycan parlamenti ilə əməkdaşlığın təşviqi qrupunun sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Allahın salamı, mərhəməti və bərəkəti üzərinizdə olsun!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Seçkilərdəki qələbəniz Azərbaycan vətəndaşlarının Zati-alinizə olan etimadını və onların əldə edilmiş nailiyyətləri qorumaq, inkişaf etdirmək istəklərini nümayiş etdirir.

Sizə uğurlar arzulayır, ölkələrimizin maraqlarını qorumaq və qardaş xalqlarımız üçün hərtərəfli inkişaf imkanlarını artırmaq naminə ikitərəfli əməkdaşlıq əlaqələrini möhkəmləndirmək əzmimizi ifadə edirik.

Ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Ammar Əl-HAKİM,***
***İraqın Milli Dövlət Qüvvələri Alyansının prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimizi çatdırır və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayırıq.

2004-cü ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun (İƏTGF) təsis edilməsi ilə bağlı Baş Assambleyanın keçirilməsinə mühüm dəstəyiniz İƏT ölkələri gənclərinin inkişafı və birliyinin gücləndirilməsində Zati-alinizin qəti mövqeyinin göstəricisidir. 2010-cu ildə Azərbaycan hökuməti tərəfindən İslam Əməkdaşlıq Təşkilatına bağlı beynəlxalq qurum kimi İƏTGF-nin Avrasiya Regional Mərkəzinə Bakıda evsahibliyinin edilməsi və dəstəklənməsi regionumuzun liderləri üçün gözəl nümunədir. Zati-alinizin İƏTGF-nin beynəlxalq təşkilat kimi yaradılması və institusionallaşması üçün verdiyi dəstəkdən qürur duyur, bunu Azərbaycan Respublikasının İƏT-ə mühüm töhfəsi hesab edirik. Biz İƏTGF Avrasiya Regional Mərkəzinin İdarə Heyəti olaraq Zati-alinizin etimadı, dəstəyi və qardaş Azərbaycana rəhbərliyi ilə fəxr edir və davamlı olaraq bu etimadı doğrultmaq üçün çalışırıq.

Sizin Azərbaycanda 2017-ci ili "İslam həmrəyliyi ili" elan etməyiniz və həmin il Bakıda İslam Həmrəyliyi Oyunlarının keçirilməsi islam coğrafiyası üçün mühüm hadisələrdən biri idi.

Sizin müdrik siyasətiniz sayəsində Azərbaycanın bütün əraziləri üzərində tam suverenliyini və hüquqi nəzarətini bərpa etməsi təkcə Azərbaycan tarixində deyil, islam ölkələri tarixində də son iki yüz ildə əldə edilmiş ilk və böyük uğurdur.

Şuşa şəhərinin bu il islam dünyasının mədəniyyət paytaxtı və İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı seçilməsi Sizin müsəlman dünyasında nüfuzunuzun bariz göstəricisidir. İnanırıq ki, bu il Azərbaycan, xüsusilə Şuşa şəhəri müsəlman gənclərinin həmrəylik mərkəzinə çevriləcəkdir.

Möhtərəm Prezident, İƏT ölkələrinin həmrəyliyinə dəstək verən və qardaş Azərbaycanı inkişaf etdirən fəaliyyətinizə görə Sizə təşəkkür edir, ən xoş arzularımızı bildirmək şərəfinə nail oluruq.

Zati-alinizi bir daha təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, uğurlar diləyirik. Ən yüksək ehtiramımızı və xoş arzularımızı qəbul etməyinizi xahiş edirik.

*Hörmətlə,*

İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Avrasiya Regional Mərkəzinin İdarə Heyəti:

**Elçin ƏSGƏROV - İdarə Heyətinin sədri**

İdarə Heyətinin üzvləri:

**Abdulaziz MUMİNOV (Özbəkistan)**
**Askar ŞAİKİDİNOV (Qırğızıstan)**
**Vajiha HARİS (Rumıniya)**
**Janat ÇUKEYEV (Qazaxıstan)**
**Akerke İSKANDEROVA (Qazaxıstan)**
**Fsahat Ul-HASSAN (Pakistan)**
**Aygül QABDRAHMANOVA (Tatarıstan)**
**Rafiq İSMAYILOV - baş direktor**
**Vüsal QURBANOV - baş direktor**

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Yenidən dost və qardaş Azərbaycanın Prezidenti seçilməyiniz münasibətilə Sizi Türkiyə Vəkillər Kollegiyasının İdarə Heyəti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik etməkdən və fəaliyyətinizdə uğurlar arzulamaqdan məmnunluğumu bildirirəm.

İnanıram ki, ölkələrimizin daha parlaq, firavan gələcəyi naminə dostluq və qardaşlıq münasibətlərimizi daha da möhkəmləndirmək üçün yeni fəaliyyətiniz dövründə də səylərinizi davam etdirəcəksiniz. Həmçinin ölkələrimizdə vəkillik fəaliyyətinin inkişafı, qanunun aliliyinin və insan haqlarının qorunması istiqamətində görülən işlərin bundan sonra da davam etdiriləcəyinə əminəm.

Azərbaycan və Türkiyə xalqları arasındakı münasibətlərin tarixi uzaq keçmişə gedib çıxır. Qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımız ortaq mədəni mirasa sahibdir.

Cənab Prezident, seçkilərdə qələbəniz münasibətilə Sizi bir daha təbrik edir, qardaş Azərbaycana uğurlar arzulayıram.

*Hörmətlə,*

***Erinç SAĞKAN,***
***Türkiyə Vəkillər Kollegiyasının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Azərbaycanda keçirilən seçkilərdə qalib gələrək yenidən Prezident seçilməyiniz münasibətilə Zati-alinizi Hak İşçi Sindikatları Konfederasiyası adından təbrik edir, seçkilərin nəticələrinin dost və qardaş Azərbaycan xalqı və bölgəmiz üçün xeyirli olmasını diləyirəm.

Konfederasiyamız "Bir millət, iki dövlət" şüarı ilə Türkiyə və Azərbaycanın həmkarlar ittifaqları arasında əməkdaşlığın inkişafını ölkələrimizin ictimai əlaqələrinin və tərəqqinin bir vasitəsi hesab edir. Bu əməkdaşlığın həm ölkələr arasındakı dostluğu daha da möhkəmləndirəcəyinə, həm də davamlı inkişaf hədəfinə töhfə verəcəyinə inanırıq.

Cənab Prezident, Sizin uğurlu fəaliyyətinizin Azərbaycan xalqına tərəqqi, rifah və əmin-amanlıq gətirməkdə davam edəcəyinə inanırıq.

*Hörmətlə,*

***Mahmud ARSLAN,***
***Türkiyənin Hak İşçi Sindikatları Konfederasiyasının baş direktoru***

❖ ❖ ❖

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və vəzifənizi icra etməyə başlamağınız münasibətilə BMT-nin Azərbaycandakı nümayəndəliyi adından səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bu fürsətdən istifadə edərək BMT-nin Azərbaycandakı nümayəndəliyinin 2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinə uyğun olaraq Azərbaycanın dayanıqlı inkişafla bağlı milli prioritetlərini dəstəkləməyə davamlı sadiqliyini bildirirəm. Biz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etməsində Azərbaycana dəstəyimizi təklif edirik.

Azərbaycan Respublikası hökuməti və BMT-nin Azərbaycandakı nümayəndəliyi arasında tərəfdaşlıq və əməkdaşlığın bundan sonra da davam edəcəyinə inanıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Səmimiyyətlə,*

***Vladanka ANDREYEVA,***
***BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi***

❖ ❖ ❖

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) Azərbaycan nümayəndəliyindəki həmkarlarım adından və şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimizi və arzularımızı çatdırmaqdan məmnunluq duyuram. Bu qələbə ölkənin inkişafına və Azərbaycan xalqının rifahına xidmət edən uğurlu rəhbərliyinizin və uzaqgörənliyinizin bariz göstəricisidir. Fürsətdən istifadə edərək Azərbaycan xalqına daimi firavanlıq, xoşbəxtlik və dayanıqlı inkişaf arzulayıram.

Sizi bir daha əmin etmək istərdim ki, BMT-nin inkişaf Proqramının Azərbaycandakı nümayəndəliyi Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinə verdiyi töhfədə Azərbaycan hökumətini dəstəkləməyə sadiqdir. BMTİP həmçinin Azərbaycan xalqının firavan və təhlükəsiz gələcəyi ilə bağlı göstərdiyiniz səyləri dəstəkləmək üçün hökumətlə sıx tərəfdaşlıq şəraitində işləri davam etdirməyə hazırdır.

Zati-aliləri, xahiş edirəm dərin hörmət və ehtiramımı qəbul edəsiniz.

*Hörmətlə,*

***Alessandra ROKKASALVO,***
***BMT-nin İnkişaf Proqramının Azərbaycandakı rezident nümayəndəsinin səlahiyyətlərini icra edən***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Fədakar rəhbərliyinizlə tam azad edilmiş ərazilər də daxil olmaqla ilk dəfə bütün Azərbaycanda fevralın 7-də keçirilən prezident seçkilərində parlaq qələbəniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan xalqı Sizi - çox böyük nüfuza malik, dərin inam və sevgi bəslədiyi Müzəffər Ali Baş Komandanı, təhlükəsiz və firavan gələcəyin təminatçısını seçdi.

Dünyanın ən nüfuzlu, güclü liderlərindən biri olaraq Siz ölkənin ərazi bütövlüyünü, suverenliyini tam bərpa etmisiniz, iqtisadiyyatını, mədəniyyətini, incəsənətini inkişaf etdirmisiniz. Bir sözlə, Siz Azərbaycanın bütün vətəndaşlarının arzu və istəklərini həyata keçirirsiniz. Sizə sonsuz təşəkkür edirəm.

*Dərin ehtiramla,*

***Adilə ƏLİYEVA,***
***Azərbaycanın Əməkdar artisti, pianoçu, Azərbaycanın "Dostluq" ordeni, Fransanın "Fəxri Legion" ordeni ilə təltif edilmiş, BMT nəzdində Universal Sülh Federasiyasının sülh səfiri***
*Fransa Respublikası*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Sizi təbrik edir, yeni-yeni uğurlar arzulayırıq.

Azərbaycan xalqının rifahının, xoşbəxt gələcəyinin təmin olunması, torpaqlarımızın işğaldan azad olunması, dünya ölkələri arasında nüfuzunun artması, siyasi sabitliyin qorunub saxlanması Sizin apardığınız müdrik, düşünülmüş daxili və xarici siyasətin nəticəsidir.

Cənab Prezident, xaricdə yaşayan dünya azərbaycanlıları kimi biz də Sizin siyasətinizi dəstəkləyir, Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaq üçün əlimizdən gələni edirik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, sağlam həyat, ölkəmizin tərəqqisi, xalqımızın rifahı naminə fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirik.

Tanrı Sizi qorusun!

*Hörmətlə,*

***Azər KƏRİMOV,***
***professor, Çexiya Azərbaycan Elm və Mədəniyyət Mərkəzinin sədri***
*Çex Respublikası*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Müzəffər Ali Baş Komandan.

Sizi, Avstriya Respublikasında yaşayan azərbaycanlılar adından ürəkdən salamlayır və fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində qazandığınız qələbə münasibətilə böyük fəxr hissilə səmimi-qəlbdən təbrik edirəm.

Cənab Prezident, bu gün qürur hissilə deyirik ki, Azərbaycanın hər qarış torpağında xalqımız səs verdi, qalib Liderini dəstəklədi.

Dünyada yaşayan əlli milyondan çox azərbaycanlını müzəffər Lider olaraq Sizin atdığınız hər bir addım sevindirir, ruhlandırır. Əminliklə deyə bilərik ki, Azərbaycan bundan sonra daha da qüdrətlənəcək, güclənəcək. Biz Avstriyada yaşayan azərbaycanlılar olaraq buna bütün qəlbimizlə inanırıq, çünki bu gün bütün dünya Sizin həm cəbhədə, həm də siyasi arenada qazandığınız misilsiz qələbələrdən danışır. Qələbə Sizə və xalqımıza çox yaraşır.

Möhtərəm Prezident, Sizə ali vəzifənizdə müvəffəqiyyətlər, tükənməz güc-qüvvət, möhkəm cansağlığı, xalqımıza isə sülh və əmin-amanlıq arzulayırıq.

*Hörmətlə,*

***Fərid ƏZİZOV,***
***Avstriya Azərbaycanlıları Cəmiyyəti və Zalsburq Azərbaycan Evinin rəhbəri, Kempo-Karate idman növü üzrə 6 qat Dünya və Avropa çempionu***
*Avstriya Respublikası, Zalsburq şəhəri*

## Serbiya Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandar Vuçiçə

Hörmətli cənab Prezident.

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Sizin qətiyyətli liderliyiniz sayəsində dost Serbiya hərtərəfli inkişaf edir və böyük uğurlara imza atır. Keçən ilin sonunda ölkənizdə baş tutmuş növbədənkənar parlament seçkilərinin nəticələri Sizin həyata keçirdiyiniz ümummilli siyasətə, əzmkar fəaliyyətinizə xalqınızın dəstəyini, Sizə olan inam və etimadı bir daha bariz şəkildə təsdiq etdi.

Biz xoş ənənələrə əsaslanan, qarşılıqlı hörmət və dəstək kimi sağlam təməllər üzərində qurulmuş Azərbaycan-Serbiya əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk. Ölkələrimiz arasında dostluq əlaqələrinin möhkəmlənməsi, səmərəli əməkdaşlığın və strateji tərəfdaşlığın gündən-günə genişlənməsi bizi çox sevindirir. Beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyimizi xüsusi qeyd etmək istərdim.

Siyasi əlaqələrimizin yüksək səviyyəsi, qarşılıqlı ali səfərlər və davamlı təmaslarımız bütün sahələr üzrə fəaliyyətimizin yeni məzmunla zənginləşməsində mühüm rol oynayır. Bu yaxınlarda Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılışı enerji sahəsində uğurlu və davamlı əməkdaşlığımızın növbəti əyani nümunəsidir.

Hazırda ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi olduqca genişdir. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Serbiya dostluğu və əməkdaşlığının böyük potensialından tam şəkildə istifadə etmək və strateji tərəfdaşlığımızı daha da gücləndirmək məqsədilə birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Serbiya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2024-cü il*

## Slovakiya Prezidenti Zuzana Çaputova Azərbaycan Prezidenti İlham Əliyevi seçkilərdə qazandığı qələbə münasibətilə təbrik edib

Slovakiya Respublikasının Prezidenti Zuzana Çaputova Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə seçkilərdə qazandığı qələbə münasibətilə təbrik məktubu göndərib.

AZƏRTAC xəbər verir ki, məktubda Zuzana Çaputova Prezident vəzifəsinə seçilməsi münasibətilə dövlətimizin başçısını Slovakiya vətəndaşları adından və şəxsən öz adından təbrik etdiyini bildirib.

Slovakiya Prezidenti müasir dünyanın bir sıra çağırışlarla üzləşdiyini qeyd edərək, həll yollarının qarşılıqlı əməkdaşlıq, dialoq, çoxtərəflilik və beynəlxalq hüququn prinsiplərinə, o cümlədən suverenliyə və ərazi bütövlüyünə hörmət əsasında tapılmasının önəmini vurğulayıb.

Slovakiya ilə Azərbaycan arasında uzunmüddətli dostluq əlaqələrinin mövcud olduğunu bildirən Prezident Zuzana Çaputova qarşılıqlı olaraq səfirliklərin açılması sayəsində ölkələrimizin əməkdaşlığının daha da dərinləşəcəyini qeyd edib.

Prezident Zuzana Çaputova Prezident İlham Əliyevə möhkəm cansağlığı və vəzifəsinin icrasında uğurlar, Azərbaycan vətəndaşlarına sülh, firavanlıq arzulayıb.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi ürəkdən təbrik edirik.

Yeritdiyiniz uğurlu siyasi xətti davam etdirmək üçün Sizə möhkəm cansağlığı, tükənməz enerji və daha çox əzm diləyirik.

Norveçin azərbaycanlı gəncləri olaraq bu düşüncələrlə zəfərinizin həm xalqımız, həm də bölgəmiz üçün xeyirli olmasını diləyir, Sizə ali vəzifənizdə müvəffəqiyyətlər arzu edirik.

*Hörmətlə,*

***Fariz RZAYEV,***
***Norveç Azərbaycanlıları Gənclər Təşkilatının sədri***
*Norveç Krallığı, Oslo şəhəri*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Növbədənkənar prezident seçkilərində əldə etdiyiniz qələbə münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu qələbə xalqın Sizə olan etimadının bariz nümunəsidir. Sizin Azərbaycanın inkişafı və işıqlı gələcəyi naminə atdığınız addımlar, xalqımızın rifahı və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması üçün bütün səylər bizi hər zaman qürurlandırıb.

Sizin komandanlığınızla qəhrəman Vətən övladlarının şücaəti sayəsində Azərbaycan xalqı öz tarixi torpaqlarına qayıdaraq xalqımız Zəfər sevinci yaşadı və tariximizin şanlı səhifəsinə şahidlik etdi. Bütün bunlar Azərbaycan xalqının öz layiqli liderini müəyyən etməsində tərəddüd yaratmadı.

Cənab Prezident, prezidentlik fəaliyyətinizin yeni dövründə Sizə uğurlar arzulayır və bu uğurların ölkəmizin davamlı inkişafında müstəsna rol oynayacağına əminliyimi bildirirəm. Çox şadam ki, Qalib Xalqımız öz Qalib Liderini seçdi. Sizə bu yolda hər zaman olduğu kimi əmin adımlarla irəliləməyi arzu edirəm.

Biz azərbaycanlılar, dünyanın hər yerində daim Sizinlə qürur duyuruq və yanınızdayıq.

Yaşasın müstəqil və bütöv Azərbaycan!

*Hörmətlə,*

***Lalin HƏSƏNOVA,***
***Kanada "Vətən" Azərbaycan Mədəniyyət və İncəsənət Mərkəzinin rəhbəri***
*Kanada, Toronto şəhəri*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Biz, "Kanada Azərbaycanlı Tələbələr Assosiasiyası" olaraq 2024-cü il fevralın 7-də növbədənkənar prezident seçkilərində əldə etdiyiniz üstün qələbə münasibətilə Sizi ürəkdən təbrik edirik.

Siz Azərbaycanın inkişafı naminə atdığınız addımlarda daim güclü bir liderlik sərgiləmiş, xalqımızın rifahı və ölkəmizin beynəlxalq arenadakı təsirini artırmaq üçün var gücünüzlə çalışmısınız. Sizin idarəetmə təcrübəniz sayəsində Azərbaycan tarixi nailiyyətlər əldə etmiş, ərazi bütövlüyünü və suverenliyini bərpa etmişdir. Xalqımız Sizin rəhbərliyinizlə gələcəyə ümid və qürur hissi ilə baxır. Bunu Azərbaycan xalqı növbədənkənar prezident seçkilərində Sizin liderliyinizə olan etimadını açıq şəkildə nümayiş etdirərək sübut etmişdir. Qələbələri ilə Azərbaycanın yolunu açan lider olaraq Sizinlə fəxr edir, başçılığınız altında ölkəmizin daim inkişaf etməsini, hər zaman sülhün, sabitliyin olmasını arzulayırıq.

Cənab Prezident, növbəti illərdə də qazanılacaq uğurların ölkəmizin davamlı inkişafına önəmli töhfə verəcəyinə inanırıq.

*Hörmətlə,*

***"Kanada Azərbaycanlı Tələbələr Assosiasiyası"***
*Kanada, Ottava şəhəri*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Böyük Azərbaycan xalqının öz layiqli Liderinə səs verdiyi seçkilərdə qazandığınız növbəti möhtəşəm qələbə münasibətilə Sizi Dərbənd şəhərində yaşayan azərbaycanlılar adından təbrik edirəm.

Siz, cənab Prezident, Heydər Əliyev siyasətini davam etdirərək Azərbaycan Respublikasının siyasi və iqtisadi imkanlarını bütün dünyaya göstərdiniz.

Sizin məqsədyönlü siyasətiniz sayəsində Azərbaycanın nüfuzu beynəlxalq aləmdə ən yüksək zirvələrə çatmışdır.

Əminəm ki, Sizin kimi liderlə Azərbaycan xalqı firavan, xoşbəxt yaçayacaq. Mən də Sizə və xalqınıza səadət, rifah arzulayıram.

*Hörmətlə,*

***Qəni PANAYEV,***
***Dərbənd şəhər Deputatlar Soveti sədrinin köməkçisi***
*Rusiya Federasiyası, Dağıstan Respublikası, Dərbənd şəhəri*

❖ ❖ ❖

Xalqının qəhrəman Prezidenti!

Sizin rəhbərliyiniz dövründə Azərbaycan Respublikası beynəlxalq hüququn prinsipləri və BMT nizamnaməsinə sadiqliyini qorumaq, ölkənin ərazi bütövlüyünü və suverenliyini bərpa etmək istiqamətində əzmkar mövqe nümayiş etdirmiş və buna nail olmuşdur.

Sizin strateji siyasətiniz və sadiqliyiniz sayəsində Azərbaycan sosial və iqtisadi inkişaf istiqamətində ciddi şəkildə irəliləmiş, hər bir vətəndaşın təhlükəsizliyi və firavanlığı təmin edilmiş, ölkəniz regional liderə çevrilərək beynəlxalq nüfuza sahib olmuşdur.

Sizi Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirik. Bu qələbə Azərbaycan vətəndaşlarının Sizin liderliyinizə olan hədsiz etimadının təzahürüdür.

Möhtərəm Prezidentimiz, Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edirik.

***Rəhmətulla BABAYEV,***
***İnquşetiya Azərbaycanlıları Şuşa Regional Milli-Mədəni Mərkəzinin fəxri prezidenti***
*Rusiya Federasiyası, İnquşetiya Respublikası, Malqabek şəhəri*

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident.

"Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti" İctimai Təşkilatının üzvləri adından Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə təbrik edirəm.

Sizin layiqli qələbəniz ölkə vətəndaşlarının dəstəyini və etimadını qazanan, gücünü və enerjisini vətəndaşların firavanlığı və rifahı naminə yönəltməyi bacaran bacarıqlı və təcrübəli rəhbərin nüfuzuna xalqın etimadını təsdiq edir.

Sizə Azərbaycan Respublikasının inkişafındakı sürəti qoruyub saxlamaqla yanaşı, hədəflərinizə doğru inamla addımlamağı arzu edirəm. Sizin təcrübəniz, cari problemlərin ən xırda məqamlarını dərindən təhlil qabiliyyətiniz, komandanızın peşəkarlığı qarşıya qoyulan vəzifələrin uğurla həllinə öz töhfəsini verəcək və seçicilərin göstərdiyi etimad, əlbəttə ki, yaxşı nəticələrə çevriləcəkdir!

Biz Sizin Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə şəxsi töhfənizi yüksək qiymətləndiririk. Azərbaycanla Ulyanovsk vilayəti arasında dostluq münasibətlərinin və işgüzar tərəfdaşlığın inkişafına göstərdiyiniz diqqət və dəstəyə görə xüsusi minnətdarlığımızı bildirmək istərdik. Əminik ki, Siz fəaliyyətinizlə bundan sonra da ikitərəfli münasibətlərin inkişafına və qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsinə əsaslı töhfə verəcəksiniz.

Hörmətli Prezident, Sizə şərəfli işinizdə parlaq qələbələr, planlarınızın həyata keçirilməsində uğurlar, yeni nailiyyətlər, Sizə və yaxınlarınıza cansağlığı, əmin-amanlıq və xeyirxahlıq arzulayırıq!

*Hörmətlə,*

***İslam HÜSEYNOV,***
***Rusiyanın Ulyanovsk vilayəti qubernatorunun milli məsələlər üzrə müşaviri, "Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti" İctimai Təşkilatının sədri***
*Rusiya Federasiyası, Ulyanovsk şəhəri*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Şimali Osetiya-Alaniya Respublikası "Azərbaycanlılar Konqresi" adından Azərbaycan Respublikasında keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik. Bu qələbə Azərbaycan vətəndaşlarının Sizin liderliyinizə olan sonsuz etimadının təzahürüdür.

Sizin müdrik siyasətiniz sayəsində Azərbaycan sosial və iqtisadi inkişaf istiqamətində ciddi irəliləyişə nail olmuş, hər bir vətəndaşın təhlükəsizliyi və firavanlığı təmin edilmiş, ölkəniz regional liderə çevrilərək beynəlxalq nüfuza sahib olmuşdur.

Əminik ki, Sizin davamlı müdrik rəhbərliyiniz və liderliyiniz sayəsində Azərbaycan və Rusiya arasında dostluq, tərəfdaşlıq münasibətləri daha da güclənəcək və inkişaf edəcəkdir.

Möhtərəm Prezident, Sizə möhkəm cansağlığı, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, Azərbaycan xalqına isə sülh və əmin-amanlıq arzu edirik.

*Hörmətlə,*

***Şahin MƏMMƏDOV,***
***Şimali Osetiya-Alaniya Respublikası "Azərbaycanlılar Konqresi"nin fəxri prezidenti***
***Murtuza GÜLMƏMMƏDOV,***
***Konqresin sədri***
*Rusiya Federasiyası, Şimali Osetiya-Alaniya Respublikası, Vladiqafqaz şəhəri*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirik. Azərbaycanın Qafqazın parlayan ulduzuna çevrilməsində Sizin nailiyyətləriniz təqdirəlayiqdir.

Bölgədə sabitliyin və etimadın qorunub saxlanması üçün Sizin yenidən Prezident seçilməyiniz Türkiyədə və Türk Dünyasında böyük sevinclə qarşılanmışdır.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Səfər QARAQOYUNLU,***
***Türkiyə-Azərbaycan Həmrəylik və Mədəniyyət Dərnəyinin sədri***
*Türkiyə Respublikası, İstanbul şəhəri*

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident.

Suverenliyimizi tam bərpa etdikdən sonra Azərbaycanın bütün ərazisində, o cümlədən Sizin rəhbərliyiniz altında azad edilən torpaqlarda ilk dəfə keçirilən Azərbaycan Respublikasının Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə Azərbaycan Avropa Yəhudiləri İcması adından Sizi ürəkdən təbrik edirik.

Seçicilərin yekdil dəstəyi Azərbaycan xalqının Sizin yüksək nüfuzunuza tam etimad göstərdiyini təsdiq etdi.

Sizin Azərbaycanda yaşayan bütün xalqların həyat səviyyəsinin yaxşılaşmasına verdiyiniz töhfə göz qabağındadır. Sizin davamlı əməyiniz sayəsində ölkə vətəndaşlarının həyatı hər gün daha da yaxşılaşır, daha keyfiyyətli, xoşbəxt olur. Bu, Azərbaycanın böyük yəhudi icmasında da tam hiss olunur. Sizin rəhbərliyiniz sayəsində ölkəmizdə hamı üçün əlverişli, tolerant mühit yaradılmışdır.

Sizə - möhtərəm Prezidentimizə Azərbaycan xalqının rifahı naminə planlarınızı həyata keçirmək üçün səmimi-qəlbdən davamlı uğurlar, möhkəm cansağlığı, əsl xoşbəxtlik və tükənməz güc, qüvvət arzulayırıq.

*Hörmətlə,*

***Aleksandr ŞAROVSKİ,***
***Avropa yəhudilərinin Bakı dini icmasının sədri***
***Yevgeni BRENNEYSEN,***
***Avropa yəhudilərinin Bakı dini icması sədrinin müavini***
***Şneor SEQAL,***
***Avropa yəhudilərinin Bakı dini icmasının baş ravvini***
*Azərbaycan Respublikası, Bakı şəhəri*

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığınız inamlı qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Müstəqillik tarixində ilk dəfə olaraq Azərbaycanın bütün suveren ərazisində keçirilən seçkilər ölkə vətəndaşlarının Sizə olan yüksək etimadını bir daha nümayiş etdirdi.

İnanıram ki, müdrik rəhbərliyiniz nəinki Azərbaycanda, eləcə də bütün bölgədə sülhün və əmin-amanlığın qarantı olacaqdır.

Cənab Prezident, Sizə Azərbaycan xalqının rifahı naminə, həmçinin dünya azərbaycanlılarının birliyi və inkişafı yolunda qarşıya qoyduğunuz ali məqsədlərə nail olmağınızı arzulayıram.

Allah Sizi qorusun!

*Hörmətlə,*

***Ruslan HACIYEV,***
***Gürcüstanın sabiq deputatı***
*Gürcüstan*

# Moskvada "Millətlərin azadlığı uğrunda!" mövzusunda beynəlxalq forum keçirilir

**Moskvada "Millətlərin azadlığı uğrunda!" mövzusunda beynəlxalq forum işə başlayıb.**



AZƏRTAC xəbər verir ki, "Yedinaya Rossiya" Partiyasının təşkilatçılığı ilə keçirilən tədbirdə 50-yə yaxın ölkədən 60 siyasi partiyanı, ictimai-siyasi təşkilatı təmsil edən 200-dən çox nümayəndə iştirak edir.

Neokolonializmin müasir təzahürlərinə qarşı mübarizə məsələlərinin müzakirə olunduğu forumun təşkilatçıları tədbirin bütün qitələrdə məsul siyasi qüvvələrlə qarşılıqlı faydalı çoxtərəfli əməkdaşlığı inkişaf etdirmək məqsədi daşıdığını, qlobal və regional gündəmdə olan məsələlərə tərəflərin yanaşmalarını müqayisə etməyə imkan verəcəyinə əmindirlər.

İki gün davam edəcək forumda ölkəmiz Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, deputat Nizami Səfərovla təmsil olunur.

Forumda çıxış edən deputat Nizami Səfərov bildirib ki, neokolonializm müasir dövrün ən çirkin təzahürlərindən biridir. Ötən il Bakıda keçirilən beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciətdə Prezident İlham Əliyev birmənalı olaraq qeyd edib ki, Azərbaycan XXI əsrdə neokolonializmin təzahürlərindən ciddi şəkildə narahatdır və onun formaları ilə mübarizədə bir çox dövlətlərlə həmrəylik nümayiş etdirir. "Ümumiyyətlə, bu, çox mənfi prosesdir. Neokolonializmin hazırkı dövrdə təzahürləri müstəqil dövlətlərin işlərinə müdaxilə, suveren hüquqların pozulması kimi formalarda özünü büruzə verir. Xüsusilə bunu Fransanın timsalında görmək mümkündür. Fransa Ermənistanı özünün neokolonializm siyasətinin alətinə çevirib. Əgər bu cür təsirlər olmasaydı, bəlkə də son dövrlərdə regionda baş verən proseslər başqa məcraya yönələrdi", - deyə deputat vurğulayıb. N.Səfərov xatırladıb ki, Azərbaycan Prezidenti İlham Əliyev andiçmə mərasimində çıxışı zamanı da bu mövzu ilə bağlı dəqiq mövqeyini bir daha ortaya qoyub.

Qvineya Respublikasının nümayəndəsi Suro Milimuno ölkəsinin uzun illər Fransa müstəmləkəçiliyindən əziyyət çəkdiyini vurğulayıb. Qeyd edib ki, 1958-ci ildə Fransa müstəmləkəçiliyindən azad olan Qvineya xalqı demokratik inkişaf yoluna qədəm qoysa da, hələ də iqtisadiyyat, maliyyə və bir çox digər mühüm sahələr Fransanın gizli nəzarəti altındadır. "Biz müstəmləkəçilikdən azad olsaq da, Fransanın caynaqlarından qurtula bilmirik. Fransa Qvineya iqtisadiyyatını öz məngənəsində saxlayır", - deyə o vurğulayıb.

Moskva Dövlət Universitetinin professoru Mehmet Pərinçək Fransa, ABŞ kimi dövlətlərin müstəmləkəçilik siyasətinin bu gün müxtəlif yollarla davam etdirildiyini bildirib. Vurğulayıb ki, xüsusilə Fransa və ABŞ Afrikada neokolonializm siyasətini davam etdirməyə çalışırlar. Buna baxmayaraq, Mali, Niger, Burkina-Fasoda və Afrikanın digər ölkələrində Fransanın müstəmləkəçilik siyasəti iflasa uğrayır, hərbi bazaları bu ölkələrdən çıxarılır, iqtisadi bağlantıları dayandırılır. Onlar müstəmləkəçilik siyasətini, sadəcə, Afrikada yox, Cənubi Qafqazda, Yaxın Şərqdə də tətbiq edirlər. "Bu ölkələr Türkiyəni, Azərbaycanı, İraqı, Suriyanı, hətta Rusiyanı da ələ keçirmək və parçalamaq istəyirlər. Amma Azərbaycanın İkinci Qarabağ müharibəsində tam Qələbə qazanması Fransa və Amerikanın bu istiqamətdə məğlubiyyəti oldu. Bu qələbə bölgədə sülh və sabitlik üçün böyük imkanlar yaratdı", - deyə türk ekspert söyləyib.

Onun fikrincə, buna baxmayaraq, Fransa və ABŞ Cənubi Qafqaz siyasətindən əl çəkməyib, Ermənistandan Azərbaycana, Türkiyə və Rusiyaya qarşı istifadə etmək istəyir. Son günlər təmas xəttində yaşanan gərginliyi buna misal göstərən Pərinçək əlavə edib ki, Cənubi Qafqazda sülhün bərqərar olması Fransa və ABŞ üçün bu regionda təsir gücünü itirmək deməkdir.

Konqo Respublikasının nümayəndəsi Nyanqa Qakosso Fransanın müstəmləkə dövründə ölkəsinin təbii sərvətlərini taladığını bildirərək qeyd edib. "Biz müstəmləkəçilik siyasətindən canımızı qurtara bilsək də, Fransa hələ də ölkəmizi talan edir. Bu səbəbdəndir ki, Konqoda iqtisadi çətinliklər mövcuddur. Ölkəmiz hazırda müstəmləkəçilik siyasəti ilə mübarizə aparır", - deyə o bildirib.





# 17 tunel, 23 avtomobil körpüsü

## Kəlbəcərdən Laçına çəkilən 75,8 kilometrlik yolun inşası davam edir

**Şanlı Zəfərimizlə bitən Vətən müharibəsindən ötən 3 ildən artıq müddət ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında böyük tikinti-quruculuq işləri həyata keçirilməkdədir.**

Əlbəttə ki, bu ərazilərdə hərəkətin tənzimlənməsi üçün ilk növbədə yolların yenidən qurulması, körpü və tunellərin tikintisi xüsusi əhəmiyyət kəsb edir. Həm bərpa-quruculuq işlərinin intensivləşdirilməsi, həm də tranzit-logistik baxımdan yolların inşası təxirə salınmadan həyata keçirilir.

Prezident İlham Əliyev işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri çərçivəsində yeni yolların açılışlarını edir və tikinti işlərinin sürətlə aparılması ilə bağlı ciddi tapşırıqlarını verir.

Ümumiyyətlə, azadlığa qovuşmuş bölgəmizdə 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yolu layihəsinin icrası nəzərdə tutulur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan mühüm əhəmiyyətə malik yol infrastrukturu layihələrindən biri də uzunluğu 75,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yoludur. Hazırda yolun və yol üzərində tunellərin inşası davam etdirilir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yolun müəyyən hissələrində qazma-dolğu işləri icra olunur, yeni torpaq yatağı inşa edilir. Bundan başqa, düzbucaqlı və dairəvi suötürücü boruların, həmçinin su kanallarının tikintisi, drenaj işləri və daş divarın inşası aparılır. Yolboyu tikintisi nəzərdə tutulmuş 17 avtomobil tunelindən 10-da tikinti işləri uğurla davam etdirilir.

Dolaylardan keçən mövcud yoldan istifadə ediləcəyi təqdirdə həddindən artıq sürüşmə zonalarına rast gəlinir. Bundan başqa, qış fəslində güclü qar və şaxtalı hava şəraitində yolun təhlükəsiz istismarı mümkün olmaya bilər. Bununla əlaqədar dolayların birbaşa tunellər vasitəsilə keçilməsi qərara alınıb. Tunellərdə hərəkət hissəsi 11,6 metr enində olacaq. Tunellərin ümumi uzunluğu 13 300 metr təşkil edəcək.

Kəlbəcər-Laçın yolunda inşa olunan 7 tuneldə qazma işləri artıq yekunlaşıb, tuneldaxili işlər davam etdirilir. 3 tuneldə isə qazma işləri görülür.

Bu tunellərdə giriş və çıxış olmaqla hər iki istiqamətdə qazma, partlatma və qırıcı üsullarla qaya qruntlardan ibarət hissələrin kənarlaşdırılması işləri davam etdirilir. Layihələndirilən digər tunellərdə isə işlərə mərhələlərlə başlanılması nəzərdə tutulur.

Kəlbəcər və Laçın rayonlarını birləşdirən bu avtomobil yolu 2, 3 və 4 hərəkət zolaqlı olmaqla, birinci və ikinci texniki dərəcələrə uyğun olaraq inşa edilir. Yolboyunca suların ötürülməsini təmin etmək məqsədilə ümumi uzunluğu 8910.47 metr olan 66 dairəvi və 139 düzbucaqlı borunun, zəruri yerlərdə ümumi uzunluğu 4 179 metr olan 23 avtomobil körpüsünün və 1 076 metr uzunluğa malik 3 qovşağın, həmçinin 4248,04 metr istinad və 30 521,21 metr daş divarın inşası işləri aparılır.

Ümumiyyətlə, Kəlbəcər-Laçın avtomobil yolu başlanğıcını Kəlbəcər rayonunun Qamışlı kəndindən götürməklə işğaldan azad edilmiş Laçın rayonunun ərazisindən keçir. Yeni yol bu rayonların bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və inşası aparılan Laçın Beynəlxalq Hava Limanına qədər rahat gedişgəlişi təmin edəcək.

Göründüyü kimi, artıq əksər yolların tikinti prosesinin böyük hissəsi yekunlaşmaq üzrədir. Əminliklə deyə bilərik ki, tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulub istifadəyə veriləcək.

Bir sözlə, İkinci Qarabağ müharibəsindəki şanlı qələbədən sonra yaranan yeni reallıq göz önündədir. Qarşıya qoyulan bir nömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaqdır. Tezliklə bu yollar Qarabağa və Şərqi Zəngəzura yeni həyat gətirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# YOLUMUZ AYDIN, HƏDƏFLƏRİMİZ BƏLLİDİR

Tam demokratik, hüquqi əsaslarla keçirilən, seçicilərin, xüsusən gənclərin böyük fəallığı şəraitində baş tutan, xalqın iradəsini dolğun şəkildə əks etdirən prezident seçkiləri artıq tarixə qovuşdu.

*Bu ali seçki kampaniyasına yekun isə Prezident İlham Əliyevin Milli Məclisdəki andiçmə mərasimində vuruldu.*

**İlham Əliyev özünəməxsus üslubda - dərin təhlilə, konkret fakt və misallara, arqumentlərə əsaslanan parlaq məzmunlu çıxışında ötən dövrə yekun vurmaqla yanaşı, qarşıdakı yeddi ildə görüləcək işləri, çatılacaq hədəfləri də dəqiqliklə müəyyənləşdirdi.**

*İlham Əliyevin nitqi həm də dövlətə başçılıq etdiyi son iyirmi ildə görülən işlərin və prezidentliyinin yeni dövründə dövlət qarşısında duran vəzifələrin bəyanı və şərhi də sayıla bilər.*

20 il tarix üçün qısa müddətdir.

Lakin ötən dövrdə görülən işlərin dəyəri əsrlərə sığmayacaq sanbala malikdir.

**Prezident İlham Əliyev nitqində uğur və nailiyyətlərin mənbəyini göstərdi:**

*"Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik".*

**Son 20 ilin ən möhtəşəm yekunu İlham Əliyevin xalqa verdiyi vədə layiqincə əməl edərək "Biz heç zaman Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik və lazım gələrsə, işğal altındakı torpaqları hərbi vasitələrlə azad edəcəyik" sözünü yerinə yetirməsi olmuşdur.**

Prezidentimiz andiçmə mərasimindəki nitqində bu məsələyə geniş yer verdi:

*"Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik".*

**Ötən 20 ilin iqtisadi yekunları da möhtəşəm olmuşdur.**

**Görülən işlər, atılan hesablanmış addımlar sayəsində müstəqil Azərbaycan bütün təlatümləri və geriliyi dəf edərək tarixinin ən qüdrətli dövlətinə çevrilmişdir.**

20 ilin yüksəlişinin rəqəmlərdəki ifadəsinə baxanda inkişafın əzəməti daha aydın görünür.

2003-cü illə müqayisədə:

* Ümumi daxili məhsul istehsalı 7 milyard dollardan 72 milyard dollara yüksəlib.

* Valyuta ehtiyatları 1,6 milyard dollardan 69,5 milyard dollara çatıb.

* Minimum əməkhaqqı 9 manatdan 345 manata qalxıb.

* Pensiya 20 manat idisə, indi 280 manatdır.

* Orta pensiya isə 500 manatdan çoxdur.

* Orta əməkhaqqı 940 manatın üstündədir.

* Yoxsulluq 50 faizdən 5 faizə düşüb.

* Əhalinin artımı yeni iş yerlərinin sürətlə açılmasını zəruri edir. Odur ki, hər il 10 minlərlə yeni iş yerləri yaradılır.

**Dövlət bu göstəricilərlə kifayətlənmir, sosial rifahın daha da yaxşılaşması üçün ardıcıl və təsirli tədbirlər görür.**

❖ ❖ ❖

Andiçmə mərasimindəki nitqində cənab İlham Əliyev qarşıda duran hədəfləri dəqiqliklə göstərərək onlara çatmağın yolları barədə də ətraflı danışdı.

**Yeni hədəflər hansılardır?**

*Azərbaycan öz gücünə, Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə Ermənistan ordusunu darmadağın edərək Qarabağ və Şərqi Zəngəzurdan qovdu, öz ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa etdi, tarixində ilk dəfə olaraq bütün sərhədlərini nəzarətə götürdü.*

Qalib dövlət olsa da, sülhə təşəbbüs göstərdi, beynəlxalq hüququn prinsipləri əsasında hazırlanan sülh müqaviləsinin şərtlərini yazılı şəkildə Ermənistana təqdim etdi.

Havadarlarına və müdafiəçilərinə arxalanan Ermənistan isə hələ də müxtəlif bəhanələrlə, gündə bir söz deyib mövqe sərgiləməklə sülh müqaviləsini imzalamaqdan yayınır.

Əksinə, revanşizm barədə düşünərək Fransanın vasitəsilə silahlanır, şərti sərhəddə tez-tez təxribatlar törədir, sadəlövhcəsinə nəyinsə dəyişəcəyini güman edir.

**Bütün bunları xatırladan dövlət başçısı İlham Əliyev ilk hədəfin də bu olduğunu bəyan etdi:** *"Hesab edirəm ki, növbəti illərdə qarşıda duran əsas vəzifələrdən biri ordumuzun, Silahlı Qüvvələrimizin daha da gücləndirilməsidir".*

Eyni zamanda indiyədək bu sahədə görülən işləri və aparılan islahatları xatırlatdı.

44 günlük Zəfər müharibəsi başa çatdıqdan sonra Azərbaycan Silahlı Qüvvələri lazımi qədər silah-sursat, texnika almış, yeni silahlı birləşmələr yaratmışdır. Xüsusi Təyinatlı Qüvvələrin sayı bir neçə dəfə artırılmış, "Komando" silahlı birləşmələrindəki hərbçilərin sayı isə artıq minlərlə ölçülür və bu proses davam edir.

**Azərbaycan heç zaman gizlətmir ki, dövlət büdcəsindən ən böyük vəsaiti ordu quruculuğuna, yeni silah-sursatın alınmasına ayırır!**

**Orduya və bir də Qarabağ və Şərqi Zəngəzurun bərpasına!**

Xatırladırıq ki, təkcə cari il hərbi sənaye kompleksinə bu məqsədlə həm özəl, həm də dövlət müəssisələri tərəfindən ən azı bir milyard manat sərmayə qoyulacaqdır.

Nəticədə özümüzü daha böyük həcmdə silah-sursat və texnika ilə təmin edəcək, üstəlik daha böyük həcmdə ixrac edəcək və beləliklə, böyük dərəcədə xarici asılılıqdan qurtaracağıq.

*Digər mühüm məqam isə ondan ibarətdir ki, bizim ordumuz öz gücünü paradlarda deyil, döyüş meydanlarında göstərib!*

*Təlimlər vasitəsilə peşəkarlığını durmadan artırır, üstəlik hərbçilərimiz arasında çox böyük ruh yüksəkliyi də mövcuddur.*

❖ ❖ ❖

**İkinci mühüm vəzifə ideoloji işin daha da gücləndirilməsi, gənc nəslin vətənpərvərlik ruhunda, milli ənənələr ruhunda tərbiyə olunmasıdır.**

Cənab İlham Əliyev bu hədəfi qısa şəkildə belə ifadə etdi: *"Biz elə bir gənc nəsil yetişdirməliyik ki, daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun".*

Dövlət başçısı bu missiyanın yerinə yetirilməsində Azərbaycan ailəsinin üzərinə böyük məsuliyyət düşdüyünü xüsusi vurğuladı. Eyni zamanda məktəblərin də rolunu qeyd etdi: *"Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur".*

❖ ❖ ❖

**Prezident İlham Əliyev hədəflər sırasında azərbaycançılıq ideologiyasına da toxundu.**

Tarixən Azərbaycan çoxmillətli və çoxkonfessiyalı olub. Bu milli və dini rəngarənglik Azərbaycanın gücünə yeni güc qatıb.

Bu gün Azərbaycan dünyaya həm də özünün nadir multikultural modeli ilə çıxır.

*Vətən müharibəsi dövründə düşmənə qarşı amansız döyüşlərdə Azərbaycanda yaşayan bütün millətlərin və etnik qrupların nümayəndələri də hünərlə vuruşdu, qəhrəmanlıq göstərdi.*

Onların xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayır!

Dəfələrlə düşmənlərimiz bizim bu birliyimizə, mehribanlığımıza xələl gətirmək istəyiblər.

Lakin hər dəfə əlləri boşda qalıb.

Vahid birliyimiz həm də azərbaycançılıq ideologiyasında öz əksini tapıb.

Bu məqama toxunan İlham Əliyev dedi: *"Ulu Öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli miraslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz - onun davamçıları isə bu müsbət meyilləri öz tərəfimizdən daha da gücləndiririk. Azərbaycanda yaşayan bütün xalqlar vahid, mehriban ailə kimi yaşayır. Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də, buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər. Çünki biz hamımız bir amal uğrunda birləşmişik".*

❖ ❖ ❖

**Ən mühüm vəzifələrdən biri Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi, 30 il doğma yurd-yuvalarından ayrı düşmüş insanların geriyə qaytarılmasıdır.**

Bununla bağlı I Dövlət Proqramı qəbul edilmiş və icrasına başlanmışdır.

Bu günə qədər təxminən 5400 keçmiş məcburi köçkün 5 yaşayış məntəqəsinə köçürülmüşdür.

Cari ildə ən azı 20 yeni yaşayış məntəqəsi əvvəlki sahiblərini qəbul edəcəkdir.

Beləliklə, 5 şəhərə və 15 kəndə keçmiş məcburi köçkünlər yerləşdiriləcəkdir.

*Böyük Qayıdışa dair I Dövlət Proqramı əsasında 2026-cı ilin sonunadək 140 min keçmiş məcburi köçkün dədə-baba torpaqlarına qayıdacaqdır.*

❖ ❖ ❖

**Son 20 ildə Azərbaycan iqtidarının ən böyük diqqət yetirdiyi məsələlərdən biri də əhalinin sosial müdafiəsinin gücləndirilməsidir.**

**Bu sahədə daim islahatlar keçirilir, hər il dövlət büdcəsindən daha çox vəsait ayrılır.**

*Yeni hədəflər sırasında bu məsələyə də xüsusi diqqət yetirilib, xüsusən də şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsinə, onların zəruri ehtiyaclarının qarşılanmasına.*

İndiyədək bu kateqoriyadan sayılan insanlara dövlət tərəfindən 14.800 fərdi ev və ya mənzil verilmişdir.

**Məqsəd şəhid ailələrinin və müharibə əlillərinin mənzil və evlərlə tam təmin olunmasıdır.**

❖ ❖ ❖

**Yeni dövrün ən mühüm hədəflərindən biri də texnoloji inkişafdır.**

Müasir dövrdə sənayenin inkişafı, xüsusən də hərbi sahədə və hərbi sənaye kompleksində texnoloji inkişaf və üstünlük mühüm əhəmiyyət daşıyır.

Həm II Qarabağ müharibəsində, həm də lokal tipli antiterror tədbirlərinin keçirilməsi zamanı hər birimiz bunun şahidi olduq.

Məhz texniki vasitələr hesabına II Qarabağ müharibəsindən minimum itkilərlə çıxdıq.

Əlbəttə, biz bu gün də yeni texnologiyalar alırıq və texnoloji inkişafa böyük dəstək veririk.

Cənab İlham Əliyev bu məsələdə kadr hazırlığının vacibliyinə xüsusi diqqət yönəltdi: *"Kadr hazırlığı olmadan heç bir texnoloji yenilik kifayət etməyəcək. Son müddət ərzində bir neçə min Azərbaycan gənci treninqlərdən keçib, xüsusi proqramlardan keçib. Texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi - bütün bunlar bizim gündəlik həyatımızın əlamətlərinə çevrilməlidir. Dövlət qurumları, özəl sektor və cəmiyyətin bütün digər seqmentləri buna hazır olmalıdırlar. Əks təqdirdə, biz geridə qalacağıq. Biz isə geridə qala bilmərik".*

❖ ❖ ❖

**Bərpaolunan enerji istehsalının artırılması yeni hədəflər sırasında əhəmiyyətli yerlərdən birini tutur.**

Məlum olduğu kimi, 2030-cu ilin sonuna qədər Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji növləri yaradılmalıdır.

Xüsusən də günəş və küləkdən elektrik enerjisi istehsal edən yeni qurğular quraşdırılmalı və su-elektrik stansiyaları tikilməlidir.

Bunlar realdır və artıq yeni müqavilələr bağlanmışdır.

*Məqsəd isə daha böyük həcmdə - 10 min meqavat miqdarında "yaşıl enerji" istehsalıdır.*

Xoşbəxtlikdən belə enerjinin alıcıları çoxdur, üstəlik bu sahəyə investisiya yatırmaq istəyənlər də kifayət qədərdir.

Odur ki, bu vəzifənin icrası elə bir çətinlik törətməyəcəkdir.

Bir məsələni də qeyd edək ki, bizim üçün ənənəvi yanacaq növləri sayılan neft-qaz istehsalının artımı istiqamətində də işlər davam etdiriləcəkdir.

❖ ❖ ❖

**Bu gün Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir.**

"Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri ölkəmizdən keçir və ərazimizdəki bütün nəqliyyat infrastrukturu işlək vəziyyətdədir.

Üstünlüyümüz də ondadır ki, vaxtında lazımi işləri görmüşük: həm Xəzər dənizində, həm dəmir və avtomobil yollarında, həm dəniz limanı və gəmiqayırma zavodunda.

Fərəhləndirici haldır ki, 8 beynəlxalq aeroportumuz vardır, doqquzuncu isə bu yaxınlarda Laçında istifadəyə veriləcəkdir.

Dənizə birbaşa çıxışı olmayan Azərbaycan vədəsində görülən işlər sayəsində artıq nəqliyyat mərkəzlərindən birinə çevrilmişdir.

Ölkəmizin getdikcə bu istiqamətdə rolu və əhəmiyyəti artır.

❖ ❖ ❖

**Xarici siyasət daxili siyasətin davamıdır!**

Güclü xarici siyasət yeritmək üçün Azərbaycanda hər şərait vardır:

* Güclü iqtisadiyyat;
* Güclü ordu;
* Daxili sabitlik;
* Xalq-iqtidar birliyi.

**Yeni dövrdə də Azərbaycanın xarici siyasəti çox aydın və açıq olacaqdır.**

Həm də Azərbaycanın yeritdiyi bu siyasət hamı tərəfindən bəyənilir və qəbul edilir.

Bunu Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 120 ölkənin təmsil olunduğu Qoşulmama Hərəkatına vaxtı daha bir il uzadılmaqla sədrliyi, COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı qərarın qəbulu da sübut edir.

**Yeni dövrdə Azərbaycan ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərini davam etdirmək niyyətindədir.**

Həm də bunu özü üçün prioritet seçib.

*"Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur, bizim ailəmiz türk dünyasıdır"* - cənab İlham Əliyevin inaqurasiya mərasimindəki çıxışından iqtibasdır.

Daha bir sitat: *"Bizim ailəmiz türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi?"*

❖ ❖ ❖

**Təbii ki, dövlət başçısı öz nitqində Azərbaycan-Ermənistan münasibətlərinə də diqqət yetirdi.**

Azərbaycan Ermənistanla münaqişəni bitmiş sayır.

Onunla sülh müqaviləsi imzalamaq və gələcəkdə əməkdaşlıq etmək istəyini də ortaya qoyub.

Ermənistan isə xam xəyallarla yaşayır, silah tədarükü görür, danışıqları, sərhədlərin delimitasiyasını və demarkasiyasını uzadır.

Özü bilər!

**"Dəmir yumruq" yerindədir və əvvəlkindən də güclüdür.**

*Onun havadarları isə müzakirələrə qatılmaq, danışıqlara münsiflik etmək, müxtəlif üsullarla Ermənistanın mövqeyini gücləndirmək istəyirlər.*

*Boş və mənasız xəyallardır!*

Ermənistan sülh istəmirsə, özü bilər və yenidən hərbə əl atsa, nəticəsi də hamıya və hər kəsə bəllidir.

Cənab İlham Əliyev Ermənistanın müdafiəçilərinə, danışıqlar prosesinə burun soxaraq erməni maraqlarını qorumaq fikrində olanlara da sözünü dedi: *"Biz öz məsələmizi həll etmişik".*

*"Gedin öz işinizlə məşğul olun".*

❖ ❖ ❖

**Azərbaycan düz yol ilə gedir!**

**Bu yol Heydər Əliyev siyasi kursu adlanır, dövlətimizi və xalqımızı daim qələbədən qələbəyə aparır.**

* Bu yol Azərbaycanı fəlakətlərdən, dövlət çevrilişi cəhdlərindən qurtardı, bir dövlət kimi məhvolmadan xilas etdi.

* Bu yol ilə gedən xalq İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli Azərbaycanını yaratdı.

* Bu yol ilə irəliləyərək dünya birliyinin nüfuzlu, sözükeçər dövlətlərindən birinə çevrildik.

* Bu yol ilə gedərək torpaqlarımızı işğaldan azad etdik, ərazi bütövlüyünə, suverenliyə nail olduq, milli qürurumuzu geri qaytardıq.

**İlham Əliyevin rəhbərliyi və sərkərdəliyi ilə qət etdiyimiz bu yol bizi qalib dövlətə, qalib xalqa çevirdi.**

**Heç kəs, heç zaman bizi bu yoldan döndərə, təhdid, təsir və təzyiqlərə boyun əydirə bilməz!**

**Yolumuz aydın, hədəflərimiz bəllidir!**

**Bəxtiyar SADIQOV**

# Azərbaycan diplomatları "Brussels Signal"a müsahibədə AI-nin fikirlərini tənqid ediblər

**Avropa İttifaqının (Aİ) bəzi rəsmi şəxslərinin Azərbaycanın "ekspansionizmi" haqqında bəyanatlarının heç bir əsası yoxdur.**

AZƏRTAC xəbər verir ki, bu barədə "Brussels Signal" nəşrinə müsahibəsində Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bildirib.

Diplomat Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borelin Azərbaycanın guya Ermənistana ərazi iddiaları olması barədə bəyanatlarını qətiyyətlə rədd edib. Elçin Əmirbəyov vurğulayıb: "Azərbaycanın Ermənistana qarşı heç bir ərazi iddiaları yoxdur". O əlavə edib ki, Qarabağ Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazisidir və ölkəmiz bu yaxınlarda özünün bütün ərazisində suverenliyini bərpa edib.




Azərbaycanın xarici işlər naziri vəzifəsini icra edən Ceyhun Bayramov da öz bəyanatında Avropa diplomatiyasının əsassız iddialarını pisləyib. O, avropalı siyasətçini Ermənistanın təcavüzkar hərəkətlərinə göz yummaqda ittiham edib. Nazir bildirib: "Ali nümayəndə Cozep Borelin silahlı təcavüz aktı törədən Ermənistana bəraət qazandırması onun hərbi təxribatı barədə susması kimi qiymətləndirilir".

Həm Elçin Əmirbəyov, həm də Ceyhun Bayramov "Dağlıq Qarabağ" kəlməsindən hələ də istifadə olunması ilə bağlı məyusluq ifadə ediblər, bunu fəaliyyətdən düşmüş və qəbuledilməz adlandırıblar. Onlar qeyd ediblər: "Bu gün yalnız Azərbaycanın Qarabağ regionu mövcuddur".

Ceyhun Bayramov həmçinin beynəlxalq ictimaiyyəti "Qarabağ iqtisadi rayonu" terminindən istifadə etməyə çağırıb.

# "Vergi sistemi yeni inkişaf dövründə: davamlı iqtisadiyyat üçün strateji hədəflər" mövzusunda forum keçirilib

**"Vergi sistemi yeni inkişaf dövründə: davamlı iqtisadiyyat üçün strateji hədəflər" mövzusunda vergi forumu keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə İqtisadiyyat Nazirliyinin və nazirlik yanında Dövlət Vergi Xidmətinin rəhbərliyi, dövlət qurumlarının nümayəndələri, millət vəkilləri, sahibkarların ictimai birliklərinin təmsilçiləri, xarici və yerli ekspertlər iştirak ediblər.

Tədbirdə çıxış edən iqtisadiyyat nazirinin səlahiyyətlərini icra edən Mikayıl Cabbarov bildirib ki, ölkəmiz dünyada baş verən qlobal çağırışlara adekvat yanaşma nümayiş etdirir. Son illər qeyri-neft-qaz sektorunda aparılan islahatlar və dəstək tədbirləri iqtisadi artımın dayanıqlığını təmin edir. 2023-cü ildə qeyri-neft-qaz sektoru 3,7 faiz artım dinamikasına malik olub. Azərbaycan iqtisadiyyatı 2024-cü ilə uğurlu göstəricilərlə başlayıb.

Çıxışında biznesin təşviqi ilə bağlı məsələlərə toxunan Mikayıl Cabbarov qeyd edib ki, vergi sistemi iqtisadiyyatın dövlət tənzimlənməsində mühüm alətlərə malikdir və iqtisadiyyatda müsbət dəyişikliklərin təmin edilməsində, iqtisadiyyatın "ağardılmasında" vacib rol oynayır. Milli iqtisadi inkişafı təmin etməyə və rəqabətqabiliyyətli ekosistem formalaşdırmağa yönələn hədəflər vergi siyasətinin əsas konturlarını müəyyən edir. Vergi siyasətinin təkmilləşməsində dövlət qurumları ilə yanaşı, işgüzar dairələrin də rolu xüsusilə vurğulanıb. Çıxışlar zamanı iqlim dəyişikliklərinin aktuallığı və "yaşıl iqtisadiyyatın" stimullaşdırılmasında vergi siyasətinin roluna diqqət çəkilib, bərpaolunan enerji mənbələrinə sərmayə qoyuluşunun, eləcə də istehsal sektorunda və ixrac olunan məhsullarda "karbon izi"nin azaldılmasına yönələn siyasətin vergi alətləri vasitəsilə dəstəklənməsinin vacibliyi qeyd olunub.

Ekologiya və təbii sərvətlər nazirinin səlahiyyətlərini icra edən Muxtar Babayev tədbirin əhəmiyyətini vurğulayıb, qlobal iqlim dəyişiklikləri fonunda COP29-un ev sahibi kimi Azərbaycanın bir sıra öhdəlikləri olduğunu diqqətə çatdırıb.

Qeyd olunub ki, hazırda İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və digər əlaqədar dövlət qurumları tərəfindən müxtəlif platformalar üzərindən bu öhdəliklərin yerinə yetirilməsi istiqamətində ciddi iş aparılır. M.Babayev iqtisadi cəhətdən dayanıqlı təmiz və sağlam mühitin ölkəmiz qarşısında duran əsas çağırışlardan biri olduğunu bildirib. Vurğulanıb ki, vergi siyasətinin biznes müəssisələrinə "yaşıl təcrübələrin" tətbiqinə, dayanıqlı enerji layihələrinə sərmayələr qoyulmasının təşviqinə və bərpaolunan enerji mənbələrindən istifadə edən investorların dəstəklənməsinə yönəlməsi zəruridir.

Tədbirdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Vergi Siyasəti və İnzibati Mərkəzinin baş vergi məsləhətçisi Endrü Auerbaxın və İOTA-nın prezidenti, Macarıstanın Milli Vergi və Gömrük Administrasiyasının rəhbəri Ferens Vaquhelyinin forum iştirakçılarına video-müraciəti səsləndirilib.

Forumda İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli təqdimatla çıxış edib və vergi sistemində reallaşdırılan islahatlar, həyata keçirilən tədbirlər barədə danışıb. Təqdimatda vergi sisteminin qarşısında duran çağırışlar, vergi islahatlarının iqtisadi təsirləri, vergi siyasətinin hədəfləri və əsas yanaşmalar, sahibkarların ictimai birlikləri ilə əməkdaşlıq, fiskal göstəricilər sahəsində əldə olunan nəticələr, kölgə iqtisadiyyatı ilə mübarizə, vergi xidmətində rəqəmsallaşma, perspektiv layihələr, ortamüddətli perspektivdə vergi siyasətinin əsas istiqamətləri barədə geniş məlumat verilib.

Bildirilib ki, ölkədə biznes mühitinin yaxşılaşdırılması, dayanıqlı və inklüziv iqtisadi inkişafın və davamlı iqtisadi artımın təmin edilməsinə yönəlik fəaliyyəti dəstəkləmək məqsədilə "Dövlət Vergi Xidmətinin 2024-2030-cu illər üzrə Strategiyası" hazırlanıb. Bu strategiya Dövlət Vergi Xidmətinin missiyasına, strateji baxışına uyğunlaşdırılan və mövcud dəyərlərinə söykənən 5 əsas istiqamətdən ibarətdir. Bunlara könüllü əməletmənin təşviqi, vergidən yayınma ilə effektiv mübarizə, mütərəqqi yeniliklərin tətbiqi, xidmətin institusional inkişafı və güclü insan kapitalının formalaşdırılması, habelə digər dövlət qurumları ilə əməkdaşlığı təmin edən birgə işin qurulması daxildir.

O.Nəzərli diqqətə çatdırıb ki, strategiyanın reallaşdırılması vergi sisteminin daha ədalətli, sadə, əlçatan və müştəriyönümlü olmasına gətirəcək, cəlbedici vergi mühitinin formalaşdırılmasına xidmət edəcək. Vergi xidmətinin gələcəyə baxışı etibarlı, müasir və könüllü əməletməyə əsaslanan vergi ekosisteminin qurulmasına söykənir. Bu vergi yığımlarını təmin etməklə bərabər vergi inzibatçılığının sadələşdirilməsinə, vergiödəyiciləri ilə qarşılıqlı etimad mühitinin formalaşmasına, könüllü əməletmənin təşviqinə yönələcək.

Qeyd olunub ki, həmçinin aparıcı dünya praktikası ilə uzlaşan yeni vergi sisteminə keçid və formalaşmış mövcud qanunvericilik təcrübəsindən çıxış edərək, Vergi Məcəlləsinin yeni strukturunun hazırlanması işlərinə başlanıb.

Sonra forum iştirakçıları Dövlət Vergi Xidmətinin təqdim etdiyi yeni xidmətlərə dair videoçarxı izləyiblər.

Forum öz işini üç sessiyada davam etdirib. Moderatoru Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva olan "Yaşıl artım: yaşıl iqtisadiyyata keçid üzrə qlobal çağırışlar və vergilərin rolu" mövzusuna həsr olunmuş birinci sessiyada İqtisadiyyat Nazirliyinin şöbə müdiri Hüseyn Hüseynov, E&Y şirkətinin audit üzrə partnyoru Nərgiz Kərimova və SOCAR-ın vitse-prezidenti Əfqan İsayev çıxış ediblər. Moderatoru "Deloitte Azerbaijan" şirkətinin idarəedici partnyoru Nuran Kərimov olan "Vətəndaş məmnunluğu: müraciətlərə baxılması sahəsində yeniliklər, müştəriyönümlülük dəyərlərinə əsaslanan yeni xidmət modellərinin yaradılması" mövzusuna həsr olunmuş ikinci sessiyada DVX-nin baş idarə rəisləri Elçin Məmmədov və Zeynalabdin Məmmədzadə, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sektor müdiri Semral Əliyev çıxış ediblər. Sessiyada DVX-nin yeni mobil tətbiqi ilə bağlı videoçarx nümayiş etdirilib. Moderatoru bp şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli olan "Mütərəqqi vergi sistemi: islahatların iqtisadi inkişafa, şəffaflığa təsiri və insan kapitalının həlledici rolu" mövzusunda üçüncü sessiyada ADA Universiteti Fondunun prezidenti Natiq Hacıyev, DVX-nin Aparatının rəhbəri Emil Qarayev və baş idarə rəisi Aytən Kərimova çıxış ediblər. Həmçinin sessiyada DVX-də insan resurslarının inkişafı ilə bağlı videoçarx nümayiş etdirilib.

Sessiyalarda müzakirələr aparılıb və tədbir iştirakçılarının sualları cavablandırılıb. Çıxış edənlər ölkədə yaranmış yeni iqtisadi şəraitdə biznes mühitinin dəstəklənməsi, iqtisadi idarəetmənin yeni çağırışlara uyğun həyata keçirilməsi və vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində tədbirləri müsbət qiymətləndirib, əsas prioritetlərin reallaşdırılması prosesində aparılacaq islahatlara dair təkliflərini səsləndiriblər.

# Heydər Əliyev Mərkəzində rəssam Kojo Marfonun sərgisinin açılışı olub

## Sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər

**Heydər Əliyev Mərkəzində qanalı rəssam Kojo Marfonun "Ümid sınağı" ("Crucible of hope") adlı fərdi sərgisi açılıb.**













AZƏRTAC xəbər verir ki, sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Açılış mərasimindən əvvəl rəssam Kojo Marfo jurnalistlərə açıqlamasında sərginin möhtəşəm təşkil edildiyini deyib: "Buraya gəlməzdən əvvəl Azərbaycanla bağlı ünvanladığım suallarımda ancaq xoş sözlər eşitdim. Bakıya ilk gəlişimdir. Burada olmaqdan və sərgimi keçirməkdən çox məmnunam. İnsanları mədəniyyət yaxınlaşdırır. Mədəniyyət sahəsində bizləri birləşdirən bir çox xüsusiyyətlər var. İlk sərgimi keçirməzdən əvvəl kifayət qədər həyatımı düşündüm. Həyatıma bir çox simalar daxil oldu, məhz onlar mənim əsərlərimin özünü təşkil edirlər və onlar məni sərgi keçirməyə həvəsləndirdilər. Bu isə insana hər zaman ümid verir".

Açılış mərasimində çıxış edən sərginin kuratoru Jan-Davit Malat (Jean-David Malat) Bakıya səfərinin bu əsərləri digər insanlara sərgiləməklə yanaşı, həmçinin gözəl şəhərdən həzz almaq imkanı yaratdığını qeyd edib. O, Kojo Marfonun solo sərgisinin təşkil edilməsinə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərova öz minnətdarlığını bildirib, bundan sonra da bu cür sərgilərin keçiriləcəyinə ümidvar olduğunu söyləyib.

Rəssam Kojo Marfo çıxışı zamanı bildirib ki, sərgi onun uşaqlıq illərində gördüklərinə ithaf olunub, hər bir əsərin ardında bir mesaj dayanıb və bu mesajlar əsərlərlə insanlar arasında olan bağlantını əks etdirir. K.Marfo qeyd edib ki, əsərlərin mövzusu insanlara xas olan, onların vacib bildiyi amallarla bağlıdır.

"Mənim üçün böyük şərəfdir ki, yaratdığım əsərləri belə gözəl, möhtəşəm binada sərgiləmək imkanı qazandım. Bunun üçün Heydər Əliyev Fonduna minnətdarlığımı bildirirəm", - deyə rəssam əlavə edib.

Sonra sərgiyə baxış olub.

Sərgidə rəssam Kojo Marfonun əlvan rəngləri ilə nəzərləri özünə cəlb edən, izləyicilərinə xoş, hətta bəzən bayram əhvali-ruhiyyəsi bəxş edən 20-dən çox əsəri nümayiş olunub.

Sərgilənən əsərlər qanalı rəssamın uşaqlıq xəyallarını müasir dünyanın reallığı ilə bir-birinə qarışdırır. Hər bir əsərində isə bir-birinə məharətlə bağlanan məna və emosiya qatları ziyarətçilərə Kojo Marfonu daha dərindən kəşf etmək imkanı qazandırır. Marfonun əsərləri cəmiyyət üçün güzgü funksiyasını daşıyır, dərin düşüncələrin yaranmasına ilham verir. Rəssamın fərqli zəkasını, yumor hissini və dərin müşahidə bacarığını nümayiş etdirən bu sərgi ziyarətçilərə Marfonun özünün hansı düşüncələrə malik olduğunu anlamağa fürsət yaradır.

Qeyd edək ki, Kojo Marfo Londonda yaşayan qanalı rəssamdır. O, uşaqlıqdan tanış olduğu Afrikanın ənənəvi Akan artefaktlarının, heykəllərinin təsiri altında rəssam kimi inkişaf edib. Çoxsaylı səyahətlər də Marfonun müxtəlif mədəniyyətlərlə tanışlığına və həmin mədəniyyətlərin yaradıcılığında əks edilməsinə səbəb olub. Marfonun yaradıcılığı ilə tanışlıq mədəniyyət dəhlizləri ilə səyahət etməyə bənzəyir.

Kojo Marfonun sənət əsərləri bundan əvvəl Amsterdam, Barselona, London, Nyu York, Paris, Tokio və digər şəhərlərdə nümayiş etdirilib.

# Böyük güclərin gücsüzlüyü ədalətin və həqiqətin fonunda daha aydın görünür

*Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisdə keçirilən andiçmə mərasimindəki nitqində ən vacib məqamlardan birinə - 30 ildən çox uzanan münaqişədə supergüclərin və böyük dövlətlərin tutduğu lal mövqeyə və anlaşılmayan laqeydliklərinə də toxundu: "Ancaq müharibə olmaya bilərdi, əgər Ermənistan və onun rəhbərliyi, onun arxasında dayanan qüvvələr beynəlxalq hüquqa əməl etsəydilər, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əməl etsəydilər. Əgər böyük dövlətlər Ermənistana onun işğalçılıq siyasətinə görə sanksiyalar tətbiq etsəydilər, heç olmasa onların işğalçılıq siyasətini pisləsəydilər, bəlkə də müharibəyə ehtiyac qalmazdı. Azərbaycan dövləti uzun illər ərzində təmkinlilik göstərirdi, eyni zamanda aparılan danışıqlara sadiqlik göstərirdi".*

Həmin dövrü unutmamışıq. Azərbaycan tərəfi danışıqlara üstünlük verdikcə, Ermənistanı sülhə çağırdıqca, işğalçı dövlət misli görünməmiş savaş ritorikası nümayiş etdirir, Azərbaycanı sındırmağa çalışırdı. Faktiki olaraq separatçı quldurlar özlərini işğal edilmiş ərazilərin əbədi sahibi hesab edirdilər. Amma məsələ onda idi ki, Ermənistan həmin zaman da öz gücünə yox, onlara birbaşa dəstək verən güclərə arxalanırdı. Məhz bu dəstək sayəsində erməni faşistlərinin işğalçı siyasəti xüsusi vəhşiliklərlə müşayiət olunurdu. Azərbaycan Prezidenti dəfələrlə onların havadarlarına çağırış etmişdi ki, nə qədər gec deyil, Ermənistanı inandırsınlar, özləri də elə lazımi addımlar atsınlar ki, Qafqazda əbədi münaqişələrə son qoyulsun: "Ancaq əfsuslar olsun ki, bütün çağırışlarım, bütün xəbərdarlıqlarım havada qaldı. Sanki kimsə hesab edirdi ki, Azərbaycan xalqı bu işğalla barışmalı olacaq. Biz isə döyüş meydanında göstərdik ki, nəyə qadirik. Biz döyüş meydanında cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etmişdik. Elə günü salmışdıq ki, özlərinin etirafına görə, 12 mindən çox fərarisi olmuşdur".

Bəli, bir nəfər belə fərarisi olmayan Azərbaycan Ordusu qısa müddətdə düşməni darmadağın etdi. Bu müharibədə ermənilərin özləri haqqında uydurduqları bütün əfsanələr sabun köpüyü kimi yox oldu. Ali Baş Komandanımızın qurduğu müqəddəs Azərbaycan Ordusu Ermənistanın uzun illər ərzində özləri haqqında yaratdıqları bütün əfsanələri tarixin zibilliklərinə atdı: "Xalq bir yumruq kimi birləşdi və cəmi 44 gün ərzində bütün tarixi və strateji vəzifələr təmin edildi. Bu 44 gün ərzində bir dəfə də olsun ordumuz geriyə addım atmamışdır, ancaq irəli gedirdik. Şuşanın azad edilməsi tarixi hadisə olaraq eyni zamanda İkinci Qarabağ müharibəsinə son qoydu. Çünki ondan sonra Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur olmuşdur, bizim qarşımızda ağ bayraq qaldırmışdır, təslim olmuşdur və beləliklə, İkinci Qarabağ müharibəsi başa çatdı".

Ali Baş Komandan belə hesab edir ki, İkinci Qarabağ müharibəsi işğalçılara elə bir sarsıdıcı zərbə endirib ki, onlar uzun müddət özlərinə gələ bilməyəcəklər. Vaxt keçdikcə ermənilərin yenidən bizə qarşı ərazi iddiaları irəli sürməsi isə sadəcə onu göstərir ki, ermənilər heç vaxt dildə də olsa, öz çirkin istəklərindən əl çəkməyəcəklər. Ona görə də ayıq olmalıyıq.

Bu gün beynəlxalq aləmdə də münasibətlər elə gərginləşmişdir ki, dünya faktiki olaraq üçüncü dünya müharibəsi ərəfəsindədir. Belə mürəkkəb şəraitdə Azərbaycanın qələbəsi istisna kimi xüsusi əhəmiyyət kəsb edir. Prezident belə hesab edir ki, Azərbaycanın əldə etdiyi döyüş təcrübəsi əvəzolunmazdır: "Bizim ordumuz təlimlərdə yox, paradlarda yox, döyüş meydanında öz gücünü göstərmişdir. Ermənistan və ona hərbi cəhətdən dəstək verənlər bilməlidirlər ki, bizi heç nə dayandıra bilməz. Əgər bizə qarşı ərazi iddialarına son qoyulmazsa, əgər Ermənistan öz qanunvericiliyini normal qaydaya salmazsa, təbii ki, sülh müqaviləsi olmayacaq. Bu, bir daha onu deməyə əsas verir ki, ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi əsas vəzifədir. Bu gün onu da bildirməliyəm ki, bir çox ölkələr üçün bu, əsas vəzifə kimi artıq qəbul olunub, onların hərbi doktrinalarında, onların büdcə xərclərində və digər addımlarda da bunu əyani şəkildə görmək olur. Bizim üstünlüyümüz ondan ibarətdir ki, ordumuz döyüş meydanında öz gücünü göstərib, ordumuzda çox yüksək mənəvi ruh var, bizim peşəkarlığımız artır və biz Ermənistanı döyüş meydanında məğlub etmişik. Ona görə bu amil həmişə mövcud olacaq".

Digər tərəfdən Azərbaycan-Ermənistan münasibətləri bizim üçün xüsusi aktuallıq kəsb etməsə də, Hayastanın havadarları daim bu məsələni müzakirə etmək, Prezident İlham Əliyevin dediyi kimi, "yorğanı öz üstlərinə çəkərək" ayıblarını ört-basdır etmək istəyirlər: "Bizə bu məsələdə vasitəçi lazım deyil. Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının da təşəbbüskarı biz olmuşuq. Beş məlum prinsipin də müəllifi biz olmuşuq. Sülh müqaviləsinin mətnini də biz yazmışıq, Ermənistan tərəfinə göndərmişik. İndi Ermənistan beynəlxalq hüququn normalarına riayət etmək istəyirsə, bu müqavilə imzalanacaq. İstəmirsə, yenə də bizə qarşı əsassız iddialar irəli sürüləcəksə, bu müqavilə imzalanmayacaq, ancaq Azərbaycan üçün heç nə dəyişməyəcək. Mən artıq dedim, bizim qarşımızda duran çağırışlara, bizə qarşı aparılan çirkin siyasətə biz onsuz da hazır olmalıyıq".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***



# Yeni Zəfərin mübarək, cənab Prezident!

Azərbaycan xalqının daha bir qürurlu, şərəfli günü olan 2024-cü ilin 7 fevralı Prezident İlham Əliyevin növbəti qələbəsi ilə tarixə yazıldı. Həmin gün ərazi bütövlüyü və suverenliyi tam təmin olunmuş müstəqil Azərbaycanda ilk prezident seçkisi keçirildi. Xalq ləyaqətlə, inam və sevgi ilə, necə deyərlər, el birliyi, səs çoxluğu ilə öz liderinə - İlham Əliyevə etimad göstərdi, daha 7 il onun dövlətə rəhbərlik etməsi üçün yolunda "yaşıl işıq" yandırdı.

7 fevral Azərbaycan tarixini dəyişən bir gündür, 44 günlük savaşda qazanılan Zəfərin məntiqi davamıdır. Bu, təkcə İlham Əliyevin deyil, bütövlükdə xalqın zəfəridir, bütöv Azərbaycanın dörd bir yanında ucalan üçrəngli bayrağın möhtəşəmliyinə işıq tutan qələbədir. Bu, sülhün, əmin-amanlığın, inkişafın, gələcəyin zəfəridir. Bu zəfərin mənbəyi həmin gün xalqın nizami ordu kimi seçki məntəqələrinə doğru hərəkət etmələrindədir.

Xalq fevralın 7-də zəfərin və birliyin simvolu "dəmir yumruğ"un yanında dayandı, qorudu, sipər oldu, "Biz birlikdə güclüyük!" deyən İlham Əliyevin iradəsini, cəsarət və qətiyyətini, onu dünyada söz sahibi edən diplomatiyasını müdafiə etdi. 7 fevralda təkcə seçkidə iştirak edənlərin deyil, bütövlükdə 60 milyonluq azərbaycanlının ürəyi Azərbaycanda idi. O gün bütün gözlər seçki qutularına zilləndi, hər kəsin nəbzi eyni vurdu. Dünyanın hər yerində yaşayan soydaşlarımız "biz səninləyik, cənab Prezident, Ali Baş Komandan, səni sevirik!" dedi. Bunların nəticəsi olaraq Konstitusiya Məhkəməsi son qərarı verdi: İlham Əliyev 92,12 faiz səs çoxluğu ilə növbəti 7 il üçün Azərbaycanın Prezidenti seçildi. Dünən isə İlham Əliyevin içdiyi and bu zəfərin məntiqi davamı olaraq nöqtəni qoydu.

Əslində, bu zəfərin başlanğıcı 2003-cü ildən gəlir. Həmin il oktyabrın 15-də Azərbaycan xalqı öz gələcəyini İlham Əliyevə etibar edərək onu Prezident seçəndə həm də Ulu Öndər Heydər Əliyevin xalqa müraciətini dəstəkləyirdi. Ulu Öndərin seçki ərəfəsində dediyi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" sözlərinin doğruluğunu İlham Əliyev ötən 20 ildə dövlətin sosial-siyasi, hərbi-iqtisadi, elmi-mədəni yüksəlişi ilə təsdiqlədi. 2003-cü ildə ilk andiçməsində dedi: "Mən bu gün bu yüksək kürsüdən əziz Prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm. Əziz Prezident, əsəriniz olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik".

İlham Əliyevin 20 illik fəaliyyəti sübut etdi ki, bu sözləri gəlişigözəl olsun deyə söyləmədi, qısa bir müddətdə vədinə əməl etdi. İki onillik bir zaman kəsiyində "güclü iqtisadiyyat-güclü dövlət" formulunu reallaşdırdı. İqtisadi inkişafda neft-qaz sənayesini iqtisadiyyatın onurğa sütunu sayaraq neft amilinə önəm verdi, üstəlik də qeyri-neft sənayesinin inkişafını prioritetə çevirdi. Bu gün sosial müdafiə sistemləri, demək olar ki, modern üslubda həyata keçirilir, bu sahədə ciddi keyfiyyət dəyişikliyi müşahidə olunur. Xüsusilə də son 20 ildə vətəndaş rifahının təminatında əldə olunan uğurlar onu deməyə əsas verir ki, həmin yüksəlişin kökündə həyata keçirilən uğurlu islahatlar paketi dayanır.

Ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, ordu quruculuğuna diqqətin artırılması, Silahlı Qüvvələrin ən müasir silah, sursat, hərbi texnika və texnologiyalarla təchiz olunmasına yönələn kompleks tədbirlərin həyata keçirilməsi Prezident İlham Əliyevin ən böyük uğurudur. İki il öncə yerli televiziyalara verdiyi müsahibəsində Prezident belə bir fikir söyləmişdi: "Prezident seçiləndə mənim 42 yaşım var idi, təcrübəm də o qədər böyük deyildi və mən o vaxt beynəlxalq hüquqa inanırdım. İnanırdım ki, ədalət hardansa göydən düşüb bizim məsələmizi həll edəcək. Sonra başa düşdüm ki, ədaləti biz özümüz bərpa etməliyik". Bununla belə Prezident fəaliyyəti dövründə var gücü ilə çalışdı ki, həmin ədaləti bərpa etsin, dağılmış daşları yerinə qoysun. Nəhayət, buna nail oldu. Prezidentlik fəaliyyətinin 17 ilini torpaqların azad olunması məqsədilə hazırlıq işlərinə yönəltdi, ordunu zəfərə hazırladı, diplomatik cəbhədə Azərbaycanın üstünlüyünü təmin etmək üçün ən yüksək tribunalardan haqq səsimizi dünyaya çatdırdı. Azərbaycan tarixinə ən parlaq qələbəni yazdı, 30 illik həsrətə son qoydu.

44 gündə Ali Baş Komandanın ali keyfiyyətləri üzə çıxdı, dünya onu heyrətlə izlədi, vətən, yurd, torpaq sevgisinə təəccübləndilər. O, savaş günlərində dünyaya təkcə qalib sərkərdə, Müzəffər Ali Baş Komandan, qətiyyətli siyasətçi, adil dövlət başçısı, mahir diplomat kimi görünmədi. Belə bir həssas dönəmdə xalqın qarşısına çıxdı, sevindirici qələbə xəbərlərini çatdırdı. İllərlə yurd-yuvasından didərgin düşənləri torpağına qovuşdurdu. Ümidi sönməyən, inamı tükənməyən köçkünlərə 30 il sonra bundan gözəl hədiyyə ola bilməzdi. Doğma yurda köç həmin insanların gələcək yolunda işıq oldu. Bu köç indi xalqın sevdiyi və xalqını sevən müdrik rəhbər, qətiyyətli liderin zirvə nöqtəsidir.

Prezident 2003-cü ildə xalqın taleyini özünün taleyi seçərək dedi: "Ölkənin ən dəyərli sərvəti onun vətəndaşlarıdır". Məhz həmin zamandan xalqını daha çox sevdi, ona arxalandı, inandı və qorudu. Üstəlik də bu böyük sevgi ilə ərazicə balaca ölkəni ucaltdı. Çəkinmədən deyə bilərik ki, ötən iki onillikdə qazanılmış uğurların kökündə xalq-iqtidar birliyi dayanır. Onun müntəzəm olaraq rayonlara etdiyi səfərlər zamanı xalqla görüşləri, insanlarla qurduğu ünsiyyət, hər kəsi təmkinlə dinləməsi, problemi məhz onların dilindən eşitməsi və məsələnin həlli üçün yerindəcə tapşırıq verməsi həmin bütövlüyün bariz nümunəsi olmaqla yanaşı, həm də o xalqa olan hörmət, diqqət və qayğıdır. Fakt: 2016-cı ilin aprelində Ermənistan cəbhə xəttində təxribat törədəndə və nəticədə insanlar ev-eşiklərindən uzaq düşəndə yenə də onların harayına ilk çatan Prezident İlham Əliyev oldu. Onun dərhal təmas xəttinə gəlişi düşmənlə üz-üzə dəyanətini itirməyib dayanan insanlara inanılmaz ruh vermişdi. Bu həm də xalqın liderinin qətiyyət və mərdliyinin, xalqla bir olmasının gözəl nümunəsi idi.

Prezident İlham Əliyev çətin gündə də, xoş gündə də hər zaman insanların yanında olub, onlarla birgə sevinib, birgə kədərlənib. İlham Əliyevə insanların sonsuz sevgisini qazandıran da hər kəsin gözü qarşısında sərgilədiyi bu sadəlik və təvazökarlıqdır. Hələ onu demirik ki, şəhid ailələri ilə görüşəndə keçirdiyi hisslər, gözlərindəki kədər, üzündəki qəm dərhal ətrafına sirayət edir. O, bu cür həssas təbəqəyə qayğını və diqqəti tək özünün deyil, həm də cəmiyyətin əsas işi kimi ortaya qoyub. Şəhid ailələrinə mənzillərin, avtomobillərin açarlarını bir çox hallarda şəxsən özü təqdim edir və bunun bir dövlət başçısı üçün böyük şərəf olduğunu dilə gətirir. Prezidentin belə davranışı insanları ürəkləndirir, sabaha inamını artırır.

Bütün bu parametrlərin daşıyıcısı olan Prezidentin dünənki andiçməsi fərqli zamana təsadüf edirdi. İlham Əliyev 20 il əvvəl əlini ana qanunumuz olan Konstitusiyaya və müqəddəs Qurani-Kərimə basıb and içəndə hələ, özü demiş, siyasi oyunların dolanbac yollarından keçməmişdi. Elə bir zamanda iqtidara gəlmişdi ki, dünya köhnə dünya deyildi, hər yerdə, hər sahədə ədalət kölgədə qalmışdı. Bunlar Azərbaycana münasibətdə daha qabarıq hiss olunurdu, ikili standartlar ədalət tərəzisini üstələyirdi. Amma İlham Əliyev bütün bunları qısa müddətdə əlinin tərsi ilə geri çevirib ölkəmizi bugünkü Zəfərə çatdırdı. Sayca beşinci andiçmə mərasimi isə qətiyyətli, cəsarətli və iradəli liderin, dünyada söz sahibi olan Prezidentin yeni Zəfəri idi.

Yeni Zəfərin mübarək, cənab Prezident!

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Dövlət başçısı yeni və daha uğurlu dövrün başlandığının mesajını verdi

**Fevralın 7-də Azərbaycan tarixinə yeni səhifə yazıldı. Müstəqillik tariximizdə ilk dəfə suverenliyini tam bərpa etmiş respublikamızda seçki keçirildi. Vətən müharibəsində böyük Zəfər qazandığı gündən bəri qalibiyyət qürurunu yaşayan Azərbaycan xalqı ruh yüksəkliyi ilə seçki məntəqələrinə gedərək seçimini etdi. Növbədənkənar prezident seçkilərində İlham Əliyev böyük səs çoxluğu ilə qalib gəldi.**

Fevralın 14-ü tariximizin daha bir unudulmaz gününə çevrildi. Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirildi. Çıxışında prezident seçkilərində ona yenidən böyük etimad və dəstək göstərən doğma Azərbaycan xalqına öz dərin təşəkkürünü bildirən Prezident İlham Əliyev bir daha əmin etdi ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlindən gələni əsirgəməyəcək.

Dövlətimizin başçısı ona iyirmi ildən çoxdur ki, öz dəstəyini göstərən Azərbaycan xalqına 2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə verdiyi vədləri xatırlatdı və onların yerinə yetirildiyini qeyd etdi. "Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz, doğrudan da, bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik", - deyə dövlət başçısı bildirdi.

Prezident İlham Əliyev verdiyi vədlər arasında ilk növbədə ölkəmizin ərazi bütövlüyünün bərpası olduğunu vurğuladı: "O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə, bax, bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik".

Azərbaycan tarix boyu çox çətin sınaqlarla üzləşdi. Torpaqları yağmalandı. Və son iki yüz illik tarixində ilk dəfə ərazilərini işğaldan azad etməyə müvəffəq oldu. İkinci Qarabağ müharibəsinin şanlı tariximiz olduğunu qeyd edən dövlətimizin başçısı xalqımızın, dövlətimizin sülhpərvərliyini də vurğuladı. Bildirdi ki, əgər Ermənistan və onun rəhbərliyi, onun arxasında dayanan qüvvələr beynəlxalq hüquqa əməl etsəydilər, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əməl etsəydilər, əgər böyük dövlətlər Ermənistana onun işğalçılıq siyasətinə görə sanksiyalar tətbiq etsəydilər, heç olmasa onların işğalçılıq siyasətini pisləsəydilər, bəlkə də müharibəyə ehtiyac qalmazdı.

Azərbaycanın Ermənistanın yaratdığı problemin sülh yolu həlli istiqamətində ardıcıl və qətiyyətli tədbirlər həyata keçirdiyi, təmkinlilik, eyni zamanda aparılan danışıqlara sadiqlik göstərdiyi, ümidlərimizin tükənməyə başladığı, işğalçı dövlətin isə daha da azğınlaşdığı, torpaqlarımızı əbədi işğal altında saxlaya biləcəyini hesab etdiyi uzun illərin intizarı, mənəvi sıxıntıları, qəlb ağrıları keçmişdə qalsa da, unudulmayıb. Prezident İlham Əliyev dəfələrlə müxtəlif tədbirlərdə, eyni zamanda Ermənistan rəhbərliyi ilə, onlara dəstək verən böyük dövlətlərin rəhbərləri ilə söhbətlər əsnasında Azərbaycanın heç vaxt bu vəziyyətlə barışmayacağını bildirirdi: "Deyirdim ki, nə qədər gec deyil, Ermənistanı inandırın və özünüz də lazımi addımlar atın ki, bu işğala son qoyulsun. Ancaq əfsuslar olsun ki, bütün çağırışlarım, bütün xəbərdarlıqlarım havada qaldı. Sanki kimsə hesab edirdi ki, Azərbaycan xalqı bu işğalla barışmalı olacaq. Biz isə döyüş meydanında göstərdik ki, nəyə qadirik. Biz döyüş meydanında cəmi 44 gün ərzində Ermənistan ordusunu tamamilə darmadağın etmişdik".

2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalayan Ermənistan üzərinə götürdüyü öhdəlikləri tam şəkildə yerinə yetirmədi. İkinci Qarabağ müharibəsindən ötən üç il ərzində nəinki öz silahlı qüvvələrini Qarabağ bölgəsindən çıxarmadı, hətta əlavə silah-sursat göndərdi, ərazilərimizdə mina terrorunu davam etdirdi. Prezident İlham Əliyev buna da diqqəti çəkdi: "Ermənistan sanki bütün dünyanı və o cümlədən bizi aldatmağa çalışırdı ki, Ermənistan ordusunun silahlı birləşmələri Qarabağda mövcud deyil, bu, sən demə, hansısa özünümüdafiə qüvvələridir. Bu cəfəng versiyalara inananlar Ermənistan rəhbərliyi ilə birlikdə bütün məsuliyyəti daşıyırlar". Dövlətimizin başçısı qeyd etdi ki, ona görə antiterror əməliyyatı qaçılmaz idi.

Ötən ilin sentyabrında keçirilmiş antiterror əməliyyatının bir daha Azərbaycan Silahlı Qüvvələrinin gücünü, peşəkarlığını göstərdiyini, cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salındığını və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur olduğunu, bununla da Azərbaycan ərazisində separatizmin kökünün kəsildiyini, Azərbaycanın həm öz ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdiyini diqqətə çatdıran Prezident İlham Əliyev qeyd etdi ki, bu, tarixi hadisədir və bu tarixi hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir.

Müstəqillik dövründə ilk dəfə ölkəmizin bütün ərazilərində keçirilən seçkilərdə səsvermə prosesində Xankəndidə iştirak etməsinin səbəbini Prezident İlham Əliyev belə açıqladı: "Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar. Məhz Xankəndidə hələ 1980-ci illərin sonlarında xalqımıza qarşı qanlı cinayətlər başlamışdır. Məhz Xankəndidə səs verdiyim binada xalqımıza qarşı soyqırımı planlaşdırılırdı və oradan idarə olunurdu. Məhz səs verdiyim binanın önündə yerləşən meydanda erməni millətçiləri və ondan sonra Ermənistan dövləti bizə qarşı ərazi iddialarını irəli sürmüşdü. Məhz o binada Qarabağı Azərbaycandan ayırmaq üçün hələ sovet dövründə xüsusi komitə yerləşdirilmişdi və o komitənin əsas məqsədi Qarabağı Azərbaycandan ayırmaq idi, bunu hər kəs bilir. Ona görə məhz orada otuz il bizim tarixi yerimizi, Pənahəli xan tərəfindən salınan o məkanı qanunsuz zəbt edən şeytanlar məhz orada da öz süqutunu özləri təsdiq etmişlər, təbii ki, məcburən. Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi".

Prezident İlham Əliyev qürurla bildirdi ki, yeni dövr başlayır, biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq: "Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaq".

Andiçmə mərasimində çıxışının sonunda Prezident İlham Əliyev qətiyyətlə nəzərə çatdırdı ki, biz öz məsələmizi həll etmişik. "Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik! Bu yeni dövr uğurla başlayır. Əminəm ki, uğurla da davam edəcək. Bu yolda hamımıza uğurlar, yolumuz açıq olsun!", - dövlətimizin başçısı dedi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Kəndli bu gününü dünəni ilə müqayisə edib sabahına səs verdi

Fevralın 7-də keçirilən prezident seçkilərində iri şəhərlərlə yanaşı, regionlarda da seçici fəallığı müşahidə olundu. İnsanlar müstəqilliyin ilk illərindəki çətinlikləri unutmamışlar. Həmin dövr kəndlərdə işıq, qaz yox idi, kəndli əlində vəsait olmadığı üçün torpağı əkib-becərə bilmirdi, ümidi hər yerdən kəsilmişdi. Əlac iş dalınca iri şəhərlərə, qonşu ölkələrə köçməyə qalmışdı.

Yalnız Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan kəndində həyat yenidən qaynamağa başladı. Ümummilli Lider keçmiş SSRİ məkanında ilk dəfə olaraq torpaq islahatı həyata keçirdi, kəndli öz torpağının, daha doğrusu, öz taleyinin sahibi oldu. Lakin kənd təsərrüfatında işlərin tam qaydasına düşməsi üçün çox vaxt lazım gəldi. Çünki kolxoz və sovxozlar dağıdılmış, onlara məxsus əmlak talan edilmişdi. Torpağı əkib-becərmək üçün texnika, gübrə, toxum və s. çatışmırdı.

Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul edilən regional inkişaf proqramları sayəsində vəziyyət kökündən dəyişdi. Aqrar sektorda başlanmış islahatlar təkcə davam etdirilmədi, həm də tədricən genişləndirilərək kənd təsərrüfatında çalışanların daha çox güzəştlərdən yararlanmalarına imkan yaratdı. İstehsalçılar toxum, ting, damazlıq heyvanların və gübrələrin əldə edilməsində dövlətdən yardım almağa başladılar.

Həmin dövrdə kəndlinin rastlaşdığı əsas çətinliklərdən biri də təsərrüfatlarını genişləndirmək üçün vəsaitin olmaması idi. Kəndli xeyli müddət torpağı əkib-becərə bilmədiyindən əlində vəsait qalmamışdı. Odur ki, dövlət bütün sahələrdə, o cümlədən aqrar sektorda fəaliyyət göstərən sahibkarlara güzəştli kreditlər verməyə başladı. Bu cür kreditlər kəndliyə təsərrüfatını genişləndirmək, istehsalı artırmaq üçün əlavə imkan yaratdı.

Ötən əsrin sonlarında sovetlər birliyindən qalma texnikalar köhnəlmiş, bir çoxu isə sıradan çıxmışdı. O üzdən regionlarda kənd təsərrüfatı texnikası çatışmazlığı yaranmışdı. Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan "Aqroservis" bu çətinliklərin aradan qaldırılmasında önəmli rol oynadı. Kəndli bu yolla ala bilmədiyi yüksəkkeyfiyyətli texnikadan istifadə etmək imkanı qazandı. Üstəlik, imkanlı fermerlərə kənd təsərrüfatı texnikasının güzəştli qiymətlərlə satışı da təşkil olundu. İndi bir çox kəndlinin özünün şəxsi texnikası var və ilbəil belə kəndlilərin sayı artır.

Bütün bunlarsa nəticəsiz qalmır. Yaşlı nəslin yaxşı yadındadır. Təxminən 20 il əvvəl bazarlarda satılan meyvə və tərəvəzin böyük hissəsi xaricdən gətirilmiş məhsullar idi. Hazırda bunun əksini görürük. İndi Rusiya bazarında ən çox maraq göstərilən meyvə və tərəvəzlər bizim torpağımızın məhsullarıdır. Yəni əvvəl idxal etdiyimiz məhsulları indi Azərbaycan kəndlisi ixrac edir. Bu gün ət və süd məhsulları ilə daxili istehsal hesabına təminat təxminən 80-90 faiz arasındadır. Quş əti və yumurta ilə təminat da yüksək səviyyədədir. Son vaxtlar Rusiyaya yumurta ixracımız da bu təminatın daxili ehtiyacdan artıq olduğunu göstərir.

Statistikaya əsasən, son 20 ildə kənd təsərrüfatı məhsullarının istehsal həcmi real ifadədə 2,1 dəfədən çox artıb, qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin orta hesabla 10 faizi aqrar sektorun payına düşüb. Həmin dövr kənd təsərrüfatında məhsul istehsalı üçün istifadə edilən əkin sahələrinin həcmi 25,9 faiz genişlənib, dövlətin dəstəyi sayəsində aqrar sektora investisiya qoyuluşu 11 faiz artıb.

Dövlətin aqrar sektora və fərd olaraq kəndliyə verdiyi dəstəyin nəticəsi konkret sahələrdə də öz əksini tapır. Hesabat dövründə dənli və dənli paxlalıların istehsalında 57,9 faiz, kartofda 31,4 faiz, meyvə və giləmeyvələrdə 2,2 dəfə, pambıqda 2,8 dəfə, tərəvəzdə 74,5 faiz, üzümdə 3,5 dəfə, çay istehsalında isə 19 faiz artım müşahidə edilib. Heyvandarlığa gəldikdə, kəsilmiş ət və süd istehsalının hər birində 2 dəfə artım olub. Kənd təsərrüfatı məhsullarının ixracında isə 10 dəfədən çox artım qeydə alınıb.

Ölkəmizdə son dövrlər kənd təsərrüfatında müasir texnikalardan və innovasiyalardan istifadə genişlənib, "ağıllı kənd təsərrüfatı" həllərinin tətbiqinə başlanılıb. Bu məqsədlə aqrar sektorda idarəetmə sistemi təkmilləşdirilib, o cümlədən Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi tam tətbiq olunub, onun geniş əhatə bazası yaradılıb ki, torpaqdan daha səmərəli istifadə etməklə yüksək səviyyədə məhsul istehsalına nail olunsun.

Ölkədə kəndlinin təsərrüfat qayğıları ilə yanaşı, sosial problemlərinin həllinə də xüsusi əhəmiyyət verilir. Kəndlinin üzləşdiyi məişət çətinliklərini həll etmək üçün kəndarası yollar, elektrik, qaz və su xətləri çəkilir. Bu gün hətta ucqar dağ kəndlərinin sakinləri internetdən istifadə edirlər. Bütün bunlardan sonra prezident seçkilərində region əhalisinin, o sıradan kənd seçicisinin İlham Əliyevə yekdilliklə səs verməsi təbiidir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***




# Prezident strateji prioritetləri bəyan etdi

**"Siyasi arenada dövlətin və xalqın gələcəyi ilə bağlı məsuliyyəti öz üzərinə götürməyi, vaxtında və düzgün qərarlar qəbul edərək, onların icrasına dair qətiyyətli addımlar ataraq tarixi bir missiyanı yerinə yetirməyi bacaran şəxsiyyətlər xalqın əsl liderinə və siyasi fenomeninə çevrilirlər. 2003-cü ildən ölkədə keçirilmiş seçkilərdə Prezident seçilmiş İlham Əliyev Ümummilli Liderimizin siyasi kursunu davam etdirərək dövlətimizi strateji hədəflərə doğru uğurla aparır. Xalq onu qalib edən Prezidentini seçkidə qalib etməklə növbəti mərhələdə gözləntilərinin yenə də reallaşdırılacağına inanır".**

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat qeyd edib ki, prezident seçkiləri Azərbaycan xalqının iradəsini əks etdirdi. Xalq görülən işlərə yüksək qiymət verərək gələcək inkişafımıza səs verdi. Seçkilər ədalətli və şəffaf şəkildə keçirildi. Beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, "exit-poll"lar MSK-nın rəsmi nəticələri ilə üst-üstə düşdü. Bu bir daha onu göstərdi ki, xalqımızın iradəsini ifadə edən prezident seçkiləri hər zaman olduğu kimi, bu dəfə də qanun çərçivəsində keçirilib.

Deputat bildirib ki, İlham Əliyevin əvvəlki mərhələdə müəyyənləşdirdiyi yol xəritəsi güclü iqtisadi potensialın formalaşdırılmasını, müasir cəmiyyət quruculuğunu, qarşıya qoyulmuş bütün vəzifələri yerinə yetirmək qüdrətində olan Silahlı Qüvvələrin daha da gücləndirilməsini, beynəlxalq aləmlə bərabərhüquqlu, qarşılıqlı etimada və əməkdaşlığa əsaslanan əlaqələrin inkişaf etdirilməsini və bütün bunların son hədəfi kimi Azərbaycanın müstəqil siyasətini, ərazi bütövlüyünün toxunulmazlığını nəzərdə tuturdu: "Ona görə də atılan bütün addımlar Azərbaycanı Qarabağın azadlığına yaxınlaşdırırdı. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. Daha sonra isə rəşadətli ordumuz tərəfindən Qarabağda keçirilən 24 saatlıq lokal antiterror tədbirləri nəticəsində ərazilərimiz qanunsuz erməni hərbi birləşmələrindən tamamilə təmizləndi, separatçı rejim özünü buraxdığını elan etdi. Ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması Prezident İlham Əliyevin siyasətinin şah əsəridir. Bu gün əminliklə demək olar ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan bundan sonra da böyük zəfərlərə və nailiyyətlərə imza atacaq!", - deyə müsahibimiz söyləyib.

Deputat diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin beynəlxalq nüfuzu da nailiyyətlərimizin qazanılmasında əsas amillərdəndir: "Dövlət başçısı beynəlxalq platformalarda çoxlu yeni təşəbbüslərin və çağırışların müəllifidir. Bu təşəbbüslər isə hər zaman dəstək qazanır və icrası da uğurla yerinə yetirilir. Dövlət başçısının 50-yə yaxın beynəlxalq mükafata layiq görülməsi də onun beynəlxalq nüfuzunun əyani sübutudur. Prezident İlham Əliyevin hakimiyyətdə olduğu son 20 ildə ölkənin sosial-iqtisadi sahədə nailiyyətləri beynəlxalq təşkilatlar tərəfindən də qeyd edilir. Dünya Bankının qiymətləndirmələrinə görə, Azərbaycan 2002-2022-ci illərdə yuxarı ortagəlirli ölkələr qrupuna daxil olub. Son 20 ildə ölkəmizdə dövlət büdcəsinin illik sosial müdafiə xərcləri 20 dəfədən çox artıb. Bu uğurların arxasında gərgin iş, xalqa və dövlətə xidmət dayanır".

Prezident İlham Əliyevin xalqa verdiyi bütün vədləri yerinə yetirdiyini deyən Kamran Bayramovun sözlərinə görə, 20 ildə ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, əhalinin sosial rifahı daha da yaxşılaşıb: "Ölkəmizin siyasi, iqtisadi imkanları genişləndirilib, beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Prezident ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı davamlı tədbirlər görüb, nəhəng infrastruktur layihələrinin həyata keçirilməsini təmin edib. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını genişləndirib. Olimpiya idman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına, yüzlərlə tibb ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafına, minlərlə məktəb tikilməsi və təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi təhsilin zamanın tələblərinə uyğun qurulmasına mühüm töhfələr verib".

Kamran Bayramov bildirib ki, İlham Əliyevin inaqurasiya mərasimində nitqi ölkəmizin gələcəyinə konseptual baxış xarakteri daşıdı və strateji prioritetləri müəyyən etdi. Prezident İlham Əliyev qeyd etdi ki, yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Dövlətimizin başçısının dediyi kimi, bu dövrün böyük nailiyyətləri olacaq.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Azərbaycanın enerji siyasəti də yeni mərhələyə qədəm qoyur

**1994-cü ildən üzü bəri Azərbaycanın həyata keçirdiyi neft, qaz və ixrac layihələri dünyanın diqqət mərkəzindədir. Çünki hasil etdiyimiz karbohidrogenləri daşıyan kəmərlər, Xəzərlə Qara və Aralıq dənizlərini birləşdirən, Adriatik dənizinin altından keçib sahilində şaxələnən ixrac marşrutları bir çox ölkənin enerji təhlükəsizliyində mühüm rol oynayır.**

Bir zamanlar isə bu layihələrə mane olmaq istəyənlər, ümumiyyətlə, Azərbaycanda bu kəmərləri dolduracaq qədər neftin və qazın olmadığı barədə səhv fikirlər söyləyən, əslində, böhtan atanlar az deyildi. Həmin layihələrin qələbə çalması, indi təkcə Azərbaycana deyil, bütün regiona xeyir-bərəkət gətirməsi belələrinə ən tutarlı cavabdır.

Azərbaycanın yeni neft strategiyasının möhkəm təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur və artıq 20 ildən çoxdur Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir, bu sahədə misilsiz nailiyyətlərə imza atılır. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri artıq 18 ildir fasiləsiz və təhlükəsiz şəkildə fəaliyyət göstərir. İndiyədək bu kəmərin daşıdığı neft Ceyhan terminalında 5557 tankerə yüklənib və dünya bazarlarına yola salınıb.

"Azəri-Çıraq- Günəşli" (AÇG) yataqları 26 ildən çoxdur neft və səmt qazı verir. 2017-ci ilin sentyabrında isə bu yataqların işlənməsinin müddəti əsrin ortasınadək uzadıldı. İndi "Azəri Mərkəzi Şərqi" adlanan yeni layihə çərçivəsində ilk neftin yolunu gözləyirik.

Neft diyarı kimi tanınan Azərbaycan ötən illər ərzində qısa bir zamanda qaz ixrac edən ölkə kimi də şöhrət tapdı. İndi Bakı yaxınlığındakı Səngəçal terminalından başlayaraq 3500 kilometr məsafə qət edən "Cənub qaz dəhlizi" İtaliya torpağınadək uzanır. Dünyanın bir çox görkəmli siyasətçisi və tanınmış mütəxəssisi də etiraf edir ki, bu möhtəşəm layihənin təşəbbüskarı və aparıcı qüvvəsi Azərbaycandır. "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının toplantılarının hər il Bakıda keçirilməsi də Azərbaycan Prezidentinin dünyadakı hörmətindən və nüfuzundan qaynaqlanır.

Dövlətimizin başçısı fevralın 14-də keçirilən andiçmə mərasimində bildirdi ki, ənənəvi yanacaq növləri - neft-qaz sahəsində işlər davam etdiriləcək: "Neft hasilatının sabitləşməsi istiqamətində işlər gedir, hesab edirəm ki, yaxın gələcəkdə nəticələr olacaq. Bizə sabit neft hasilatı lazımdır və biz investorlar qarşısında bu vəzifəni qoymuşuq. Müəyyən narahatedici məqamlar olub və işgüzar qaydada təmaslar əsnasında bu məsələlərin həlli gözlənilir".

Prezident İlham Əliyev qaz hasilatı və ixracı məsələlərinə də toxunmuşdur. Belə ki, biz artıq səkkiz ölkəyə mavi yanacaq ixrac edirik. 2006-cı ilin sonundan Gürcüstan Cənubi Qafqaz Boru Kəməri (CQBK), 2007-ci ilin ortalarından Türkiyə Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri ilə Azərbaycan qazı alır. Genişləndirilmiş CQBK-dən, TANAP-dan ( Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan (Trans-Adriatik Qaz Boru Kəməri) ibarət "Cənub qaz dəhlizi" isə Avropanın enerji xəritəsini dəyişdirən bir layihə oldu. Belə ki, qoca qitə yeni mənbədən yeni marşrutla mavi yanacaq aldı. Bu marşrut getdikcə şaxələnir, yeni interkonnektorlar qaz idxalçısı olan ölkələrin şəbəkəsini genişləndirir. 2022-ci il oktyabrın 1-də Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun, 2023-cü il dekabrın 10-da isə Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirilib. Beləliklə, indi ölkəmiz Gürcüstan və Türkiyədən əlavə, İtaliyaya, Bolqarıstana, Yunanıstana, Rumıniyaya, Macarıstana və Serbiyaya qaz ixrac edir.

Bu barədə dövlətimizin başçısı demişdir: "Tələbat daha böyükdür, ilk növbədə, təbii ki, Avropa İttifaqı məkanından. Bizdən xahiş edənlərin sayı artır ki, biz kömək edək. Bax, bizə edilən xahişlər bu məqsədi daşıyır. Biz isə etibarlı tərəfdaş kimi həmişə ehtiyacı olanlara kömək etməyə hazırıq və bu köməyi göstəririk, bu da qiymətləndirilir. Düzdür, hər zaman qiymətləndirilməsə də, prinsip etibarilə bu vəziyyət bizi qane edir. Gələcəkdə bizim ixrac coğrafiyamız artacaq, təbii ki, Avropa istiqaməti üzrə".

İxracın artması üçün isə bir sıra vacib şərtlər var ki, bunlardan biri də hasilatın artmasıdır. Hazırda ixracın əsas mənbəyi Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağı olsa da, yaxın gələcəkdə ondan sonrakı sıraya qoşulacaq yataqlar da var. Prezident İlham Əliyev bu barədə belə demişdir: "Bu yaxınlarda bizim yeni resurs bazamız işə salınıb. "Şahdəniz" yatağından sonra ikinci resurs bazamız "Abşeron" qaz-kondensat yatağından ilk qaz çıxarılıb və yəqin ki, biz yaxın gələcəkdə bu yatağın işlənilməsinin ikinci mərhələsinə də başlayacağıq. Gələn il "Azəri-Çıraq-Günəşli" yatağının dərin laylarından qaz hasilatı nəzərdə tutulur. Bu da bizim resurs bazamızı artıracaq. Ondan başqa, "Ümid", "Babək", "Şəfəq", "Asiman", "Qarabağ" neft və qaz-kondensat yataqlarından hasilata başlamaq üçün bir çox xarici investorlar tərəfindən təkliflər var. Vaxtilə bizi istəməyən qüvvələr şayiə yayırdılar ki, Azərbaycanda neft yoxdur. Azərbaycan 1997-ci ildən bəri neft hasilatını yüksək səviyyədə saxlayır və bir çox ölkələrə neft ixrac edir. Sonra deyirdilər ki, Azərbaycanda qaz yoxdur. Təbii ki, bu da cəfəngiyyatdır, bax, sadaladığım bu yataqlar onu əyani şəkildə göstərir".

Prezident İlham Əliyevin enerji siyasətinin növbəti reallığı "yaşıl enerji"nin inkişafı ilə bağlıdır. Azərbaycan bu sahədə də ön sıralardadır. Bu sahədə artıq bir neçə layihəyə uğurlu start verilib. Keçən il oktyabrın 26-da Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətilə tikilən "Qaradağ" Günəş-Elektrik Stansiyası müvəffəqiyyətlə istismara daxil olub. Ölkəmizin geniş bir ərazisi - işğaldan azad olunmuş bölgələrimiz Prezident tərəfindən "yaşıl enerji" zonası elan edilib. Bərpaolunan enerji mənbələri ilə zəngin olan Naxçıvan da həmçinin "yaşıl enerji" zonası elan edilib və burada bir sıra layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

"Bizim planlarımıza görə 2030-cu ilin sonuna qədər Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji növləri, yeni enerji növləri yaradılmalıdır, əsasən günəş, külək və hidro - su elektrik stansiyaları. Dediyim rəqəm tam realdır, bu, artıq imzalanmış kontraktlar əsasında olacaqdır. Niyyət protokolları isə daha böyük rəqəm haqqında bəhs edir, təqribən 10 min meqavat. Beləliklə, biz böyük həcmdə təbii qazımızı ixrac edə biləcəyik, ona qənaət olunacaq. Elektrik enerjisinin böyük hissəsi bərpaolunan enerji hesabına istehsal ediləcək... Ona görə bərpaolunan enerji növləri ilə bağlı bizim hədəflərimiz aydındır. Onu da bildirməliyəm ki, bütün bu layihələr xarici investorlar tərəfindən icra edilir və ediləcək. Əgər belə demək mümkündürsə, biz indi xarici investorların rəqabət prosesini də görürük. Çünki o qədər çox ölkə Azərbaycanda bu sahəyə vəsait qoymaq istəyir ki, bizim bu qədər imkanımız hələ ki, yoxdur. Halbuki Dünya Bankının qolu olan Beynəlxalq Maliyyə Korporasiyası təkcə dənizdə külək potensialımızı 157 min meqavat səviyyəsində təsbit edib".

Ölkəmizin iqlim dəyişikliyi məsələlərinə də töhfələri çox olacaq. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan bu il COP29-a - dünya miqyasında ən böyük beynəlxalq konfransa evsahibliyi edəcək.

Yeri gəlmişkən, onu da qeyd edək ki, ölkəmiz indiyədək bir çox mötəbər tədbirə evsahibliyi edib və bu sahədə də zəngin təcrübə toplayıb. Bu ilin sonunda dünyanın nəzərləri yenidən Bakıya dikiləcək. COP-29-un iştirakçıları və qonaqları bir daha Azərbaycanın əldə etdiyi nailiyyətlərin şahidi olacaqlar. Həm də təkcə ekologiyanın qorunmasında, enerji, o cümlədən "yaşıl enerji"də deyil, bütün sahələrdə müdrik liderimiz İlham Əliyevin rəhbərliyi ilə qazandığımız uğurları əyani görəcəklər.

*Flora SADIQLI,*
*"Azərbaycan"*



MÜSİAD AZƏRBAYCAN

**Müstəqil Sənayeçi və İş Adamları Dərnəyi (MÜSİAD) Prezident İlham Əliyevi 7 fevral 2024-cü il tarixdə keçirilmiş növbədənkənar prezident seçkilərində qazandığı parlaq qələbə münasibətilə səmimi-qəlbdən təbrik edir və qürur duyur.**

**MÜSİAD Azərbaycan olaraq bildiririk ki, Qalib xalqımızın qalib Liderinin Azərbaycanın inkişafında qət etdiyi uğurlu yol təqdirəlayiqdir.**

**Prezident seçkilərinin ərazi bütövlüyünü tam bərpa edilmiş canımız Azərbaycanın bütün ərazilərində keçirilməsi qürurvericidir.**

**Seçkilərdə qazanılan qələbə Azərbaycan xalqının öz Liderinə sonsuz etimad və güvəninin bariz nümunəsidir. Azərbaycan xalqının rifahı və bütün sahələrdə inkişafı üçün göstərdiyi əvəzsiz xidmətlərə görə cənab Prezident İlham Əliyevə təşəkkür edirik.**

**"Bir millət, iki dövlət" prinsiplərinə və Tək Millət olan ölkələrimiz arasında imzalanan Şuşa Bəyannaməsinə sadiq qalaraq yeni və daha böyük layihələrə imza atılacağına inamımız sonsuzdur.**

**Azərbaycanın Zəfər salnaməsini yazan Prezidentimizi bir daha təbrik edir, möhkəm cansağlığı, ali dövlət fəaliyyətində və bütün təşəbbüslərdə uğurlar diləyirik.**

# Xalqa layiqli xidmət andı

**Ötən 20 ildə Azərbaycanın keçdiyi yol keşməkeşli olsa da, bu qısa, lakin əsrə bərabər dönəm qürur, şərəf tarixi adlandırılmağa layiqdir.**

Son 20 il ərzində Azərbaycanın və azərbaycanlıların milli-ictimai statusu, fundamental islahatlar və quruculuq işləri ilə ölkənin mənzərəsi, həyat səviyyəsi dəyişmiş, iki əsrin ağır yükündən xilas olunmuşdur. Məhz bu illərə möhürünü vurmuş hadisələr nəticəsində son 200 ildə əldə edilməsi mümkün olmayan, bəzən isə xəyal edilməsi belə çətin olan nailiyyətlər qazanılmışdır. Bu nailiyyətlərin isə bir memarı, bir Lideri olmuşdur: cənab İlham Əliyev. Çiynində qanlı-qadalı Vətən müharibəsi, sinəsində şəhid ağrıları daşıyan, azad edilmiş şəhərlərin, kəndlərin adlarını rahat, arxayınlıqla elan edə-edə, milli ruhu, bütün Azərbaycanı silkələyib oyadan Prezident İlham Əliyev.

14 fevral 2024-cü ildə həmin Müzəffər Ali Baş Komandan xalqın ona bir daha göstərdiyi etimadı yüksək dəyərləndirərək and içirdi. And içdi ki, bundan sonra da xalqa ləyaqətlə xidmət edəcək, xalqın onun üzərinə qoyduğu vəzifəni şərəflə yerinə yetirəcəkdir.

Əslində, bu andiçmə mərasimi həm də böyük bir tarixi dönəmin hesabatı idi. Hesabatın əsas tezislərində bir xətt daha çox vurğulanırdı: bütün mübarizənin kökündə milli-mənəvi dəyərlərə, azərbaycançılıq ideologiyasına sədaqət və xalqa xidmət.

Cənab İlham Əliyev bildirdi ki, istər daxili siyasətdə, istərsə də xarici siyasətdə Ulu Öndər Heydər Əliyevin siyasi kursuna sədaqət bu gün əldə edilmiş nailiyyətlərin əsasını təşkil etmiş, Azərbaycan bu müddətdə dünya birliyində öz layiqli yerini tutmuşdur.

Bu illər ərzində Azərbaycan iqtisadiyyatı uğurla inkişaf etmiş, bunun nəticəsi olaraq ölkəmizin xarici amillərdən asılılığı tamamilə aradan qaldırılmışdır. Sosial sahədə də uğurlar qazanılmış, pensiya və əməkhaqları artmış, çoxlu sayda iş yerləri açılmışdır. Ölkədə investisiyalar üçün əlverişli mühit yaradılmışdır. İnvestisiyaların əksəriyyətini daxili vəsaitlər təşkil edir. Biznes mühitinin yaxşılaşdırılması üçün islahatlar davam etdirilmiş, inhisarçılığa qarşı tədbirlər görülmüş və görülməkdədir.

44 günlük Vətən müharibəsində qazanılan Zəfəri Azərbaycan xalqının əyilməz ruhunun təcəssümü kimi xarakterizə edən cənab Prezident bu qələbənin xalqın yumruq kimi birləşməsinin, Azərbaycanın igid oğullarının Vətən uğrunda ölümün gözünə dik baxmağın simvolu adlandırmışdır.

Dövlət başçısı qeyd etmişdir ki, bundan sonra növbəti dövrə qədəm qoyan Azərbaycan yeni çağırışlar və yeni hədəflər qarşısındadır. Bu hədəflər ilk növbədə vətəndaş cəmiyyətinin inkişafı, xarici təhdidlərə qarşı mübarizə, ordunun gücləndirilməsi, iqtisadiyyatın inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, yaxın illərdə 140 min keçmiş məcburi köçkünün doğma yurdlarına qaytarılmasıdır.

Cənab Prezident qeyd etdi ki, Ermənistanda qisas arzusunda olan revanşist qüvvələr hələ də qalmaqdadır. Ona görə də Azərbaycan bundan sonra da ordusunu gücləndirməyə davam edəcək və istənilən vaxt potensial təcavüzkarın "ağlını başına gətirməyə" hazırdır.

Xarici təhdidlərə qarşı mübarizə üçün ilk növbədə xalqın sarsılmaz birliyinin vacib olduğunu qeyd edən cənab İlham Əliyev böyüməkdə olan nəsli vətənpərvərlik və milli dəyərlər ruhunda yetişdirməyə çağırdı.

Vətəndaş cəmiyyətinin formalaşdırılması üzrə addımlar atmağa çağıran cənab Prezident qeyd etdi ki, yeni nailiyyətlər üçün cəmiyyətin birliyi böyük əhəmiyyət kəsb edir: "İkinci Qarabağ müharibəsindəki parlaq Qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı böyük xalqdır. Azərbaycanda yaşayan bütün etnik qruplar, bütün xalqlar Azərbaycan Bayrağı altında birləşib. Bu Qələbədə, bu tarixi Zəfərdə ölkəmizdə yaşayan hər bir xalqın öz dəyərli töhfəsi var".

Xalqa və xalq-dövlət birliyinə arxalanaraq həyata keçirməyi nəzərdə tutduğu hədəflərə çatmaqda qüdrətli Liderimizə - Prezident İlham Əliyevə uğurlar diləyir və bu mübarizədə onun əsgəri olmaqdan şərəf duyuruq.

***Natiq QULUZADƏ,***
***YAP Zəngilan rayon təşkilatının sədri***

# Gələcəyə hesablanmış tarixi hadisə

**7 fevral növbədənkənar prezident seçkiləri artıq tarixə qovuşdu və milli dövlətçilik salnaməmizin daha bir şərəfli səhifəsinə çevrildi. Bu seçkilər Azərbaycanın müstəqillik dövründə keçirilmiş çoxsaylı dövlət tədbirlərindən bir sıra fərqləndirici məqamları ilə daha çox diqqəti cəlb edir. Belə ki, 1991-ci ildən bu günə qədər olan bütün seçkilər, o cümlədən prezident və parlament seçkiləri ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin pozulduğu illərə təsadüf etmişdir.**

2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində əldə etdiyimiz möhtəşəm qələbə Prezident İlham Əliyevi təkcə siyasi lider kimi deyil, həm də bacarıqlı komandan kimi bütün dünyada tanıtdı.

Etiraf etmək lazımdır ki, İkinci Qarabağ müharibəsində qazanılmış qələbə dövlət başçısının təkcə bir hərbi qələbəsi deyil, onun 20 illik prezidentliyi dövründə apardığı məqsədyönlü fəaliyyətinin məntiqi nəticəsidir. Bu illər ərzində istər daxili, istərsə də xarici siyasət sahəsində İlham Əliyevin atdığı hər bir addım ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi hədəfinə yönəlmişdi. Buna görə də Vətən müharibəsindəki qələbəni dövlət başçısı İlham Əliyevin yürütdüyü çoxşaxəli siyasətin məntiqi yekunu kimi də dəyərləndirməliyik.

Bu dövrdə Heydər Əliyevin siyasi strategiyasının davam etdirilməsi sayəsində əldə olunmuş müvəffəqiyyətlərin əsas şərtlərindən biri Azərbaycan xalqının bu strategiyaya dəstək verməsi oldu. Prezident İlham Əliyev atdığı hər bir addımda xalqın maraqlarını nəzərə alıb, onun etimadına güvənirdi. Onun əvvəlki prezident seçkilərində qazandığı səslər bunun bariz nümunəsidir. Əslində, "Xalq - İlham Əliyev", "İlham Əliyev- Xalq" birliyi onun Azərbaycana rəhbərliyi dövründə qazandığı bütün uğurların rəhni sayılmalıdır.

Ölkənin inkişafının əsasının iqtisadi amillərlə bağlı olduğunu aydın dərk edən cənab İlham Əliyevin dövlət başçısı kimi imzaladığı ilk sənədlər, qəbul etdiyi qərarlar ölkəmizin iqtisadi suverenliyinin və təhlükəsizliyinin təmin edilməsinə, xalqın sosial rifahının yaxşılaşdırılmasına yönəlmişdir. Prezident İlham Əliyev tərəfindən həyata keçirilmiş sistemli islahatların, məqsədyönlü tədbirlərin nəticəsində iqtisadi artımın dayanıqlılığı təmin edildi, o cümlədən qeyri-neft sahələrinin inkişafı sürətləndi. Dövlət başçısının strategiyasının nəticəsi olaraq iqtisadiyyatın həcmi getdikcə böyüdü, ölkənin maliyyə imkanları genişləndi və nəhayət, Azərbaycan yuxarı ortagəlirli dövlətlər qrupunda möhkəmləndi. Bu dövrdə iqtisadi artımın sahəvi hərəkətverici qüvvəsi olan qeyri-neft-qaz sənayesi 2,3 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, informasiya və rabitə sahəsi isə 2, 4 dəfə böyüdü.

Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul olunmuş regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramı bölgələrlə paytaxt arasındakı inkişaf fərqini aradan qaldırdı.

Həyata keçirilən məqsədyönlü siyasət ölkədə etibarlı sosial müdafiə sisteminin formalaşmasına, əhalinin müxtəlif təbəqələrinin, xüsusilə də aztəminatlı ailələrin və sosial cəhətdən həssas insanların həyat səviyyəsinin yüksəldilməsinə geniş imkanlar yaratdı. Belə ki, əhalinin sosial müdafiəsi istiqamətində ardıcıl, genişmiqyaslı dövlət proqramları həyata keçirilir, əməkhaqqı, pensiya və digər sosial ödənişlər müntəzəm olaraq artırılır. Xüsusilə 2018-ci ildən başlanan yeni köklü sosial islahatlar nəticəsində bu sahədə inqilabi irəliləyişlərə nail olunub. Nəticədə əhalinin pul gəlirləri 7 dəfə artaraq 2005-ci ildəki 8063.6 mln manatdan 2021-ci ildə 57181.5 mln manata yüksəlmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili siyasət kursu sayəsində demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yönündə mühüm nəticələr əldə olunmuşdur. Onun müəyyən etdiyi demokratik inkişaf yolu Azərbaycanın hər bir vətəndaşına özünü hüquqi dövlət quruculuğu prosesinin fəal iştirakçısı kimi hiss etməyə imkan yaratdı. Demokratik inkişaf yolunda həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq ölkəmizdə təkmil siyasi sistem formalaşdı, rifah dövlətinin yaradılması istiqamətində əməli addımlar atıldı.

Dövlət başçısının ordu quruculuğu məsələlərinə diqqət və qayğısının nəticəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndi, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı, ordunun döyüş qabiliyyəti yüksəldildi. Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrildi. Bütün bunların nəticəsi kimi XXI əsrin ikinci onilliyinin sonunda Azərbaycan iqtisadi, siyasi və hərbi cəhətdən güclü dövlətə çevrildi. Belə şəraitdə əsas vəzifə ölkənin ərazi bütövlüyünün təmin edilməsi məsələsi idi ki, Prezident İlham Əliyev bu vəzifənin də öhdəsindən ləyaqətlə gəldi. 44 günlük İkinci Qarabağ müharibəsində möhtəşəm qələbədən sonra Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərini tanımağa məcbur edilməsi cənab İlham Əliyevin hərbi-diplomatik bacarığının daha bir nümunəsi oldu. 2023-cü ilin sentyabrında həyata keçirilmiş 23 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycan özünün tarixi əraziləri üzərində suverenliyini tam bərpa etməklə təcavüzkar etnik separatizmi və münaqişəni tamamilə aradan qaldırmaq təcrübəsini bütün dünyaya nümayiş etdirdi. Doğrudan da, dünya tarixində təcavüzkar separatizmin ləğv edilməsinin bu cür uğurlu həllinin başqa nümunəsini tapmaq mümkün deyildir.

Bu illər ərzində Azərbaycan dövləti müxtəlif ermənipərəst qüvvələrin təzyiqlərinə məruz qalmasına baxmayaraq, Prezident İlham Əliyev ölkənin haqlı savaşını ləyaqətlə başa çatdırmağa müvəffəq olmaqla öz adını Azərbaycan tarixinə "Müzəffər Ali Baş Komandan" kimi əbədi həkk etdi.

Azərbaycan tarixi bir çox şanlı qələbə, mübarizə səhifələri ilə dolu olsa da, etiraf edək ki, Prezident İlham Əliyevin "Qarabağ qələbəsi" tariximizdə görünməmiş hadisə hesab olunmalıdır. Bəziləri bu qələbəni tariximizin 100-200 illik dövrü ərzində ən möhtəşəm qələbə hesab etsələr də, biz bu tarixi çərçivəni daha uzaq keçmişə - 500-1000 illik dövrə qədər genişləndirməliyik. Bütövlükdə bu qələbə çox böyük tarixi dəyər kəsb etməklə yanaşı, Azərbaycanın və regionun gələcək inkişafını müəyyənləşdirəcək mühüm hadisədir.

Xalqımız bu gün öz tarixinin ən şərəfli və ləyaqətli dövrünü yaşayır. Qarabağ münaqişəsinə nöqtə qoyulduqdan sonra erməni vandalları tərəfindən dağıdılmış torpaqlarımızın bərpası, keçmiş qaçqın və köçkünlərin öz doğma elobalarında rahat yaşamaq üçün lazımi şəraitin yaradılması hazırda qarşıda duran əsas vəzifədir. Qarabağda və Şərqi Zəngəzurda quruculuq işlərinə II Qarabağ müharibəsindən dərhal sonra start verilsə də, düşünürük ki, 2024-cü ilin yazından bu işlərin miqyası daha da genişlənəcəkdir.

Eyni zamanda bu gün dünyada və regionumuzda cərəyan edən mürəkkəb hadisə və proseslər Azərbaycan dövlətini adekvat tədbirlər görməyə sövq edir. Bütün bunlar dövlət başçısını düşündürməyə bilməz. Gələcəkdə dövlətimizin qarşısında duran mühüm vəzifələrin həlli, ölkəmizin daha müstəqil və suveren, çiçəklənən ölkəyə çevrilməsi məqsədinə nail olunması Prezidenti xalqın etimadını yenidən qazanmaq üçün növbədənkənar seçkilərdə iştiraka sövq etdi. Xalq inandığı, etibar etdiyi Liderinə - Prezident İlham Əliyevə səs verdi. Andiçmə mərasimini qürurla seyr etdik. Prezidentin fikirləri, yeni dövrün çağırışları Azərbaycanda işıqlı gələcəyə doğru böyük bir yolun başlandığını göstərir. Bu isə bizi arzularımıza aparan yoldur.

***Ədalət QASIMOV,***
***tarix üzrə elmlər doktoru***

# Aviasiya haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının hava məkanından istifadəni və aviasiya sahəsində fəaliyyəti tənzimləyir, aviasiyada təhlükəsizliyin, o cümlədən dövlətin müdafiəsinin, əhalinin və iqtisadiyyatın hava daşımaları və aviasiya işləri ilə əlaqədar ehtiyaclarının təmin edilməsi üçün həyata keçirilən tədbirlərin hüquqi və təşkilati əsaslarını müəyyən edir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **aviasiya** - hava gəmiləri vasitəsilə hava məkanından istifadə edilməsinə və ya bu məqsədlə lazımi şəraitin yaradılmasına yönəldilən fəaliyyət;

1.1.2. **aviasiya fəaliyyəti** - aviadaşımalara olan tələbatın təmin edilməsi məqsədilə xidmət təminatçıları tərəfindən həyata keçirilən fəaliyyət;

1.1.3. **aerodrom** - istənilən bina, qurğu və avadanlıq daxil olmaqla, hava gəmilərinin enməsi, qalxması və yerdə hərəkəti üçün tam və ya qismən istifadəsi nəzərdə tutulmuş yer, yaxud su səthinin müəyyən sahəsi;

1.1.4. **aerodromyanı ərazi** - hava gəmiləri uçuşlarının təhlükəsizliyinin, hava limanının uzunmüddətli inkişaf perspektivlərinin və əhalinin sanitariya və epidemioloji rifahının təmin edilməsi, o cümlədən aerodrom avadanlığı və hava gəmilərinin istismarının insanın həyat və sağlamlığına, ətraf mühitə mənfi təsirlərinin qarşısının alınması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən istifadəsinə razılıq verilən xüsusi tələblər tətbiq olunan zona;

1.1.5. **aerodrom istismarçısı** - bir və ya bir neçə aerodromu istismar edən və ya belə xidməti təklif edən fiziki və ya hüquqi şəxs;

1.1.6. **Aeronaviqasiya Məlumatlar Toplusu** - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet informasiya ehtiyatında yerləşdirdiyi və dərc etdirdiyi və aeronaviqasiya üçün davamlı əhəmiyyət kəsb edən, aviasiya məlumatlarını özündə ehtiva edən toplu;

1.1.7. **aeronaviqasiya xidmətləri** - rabitə, naviqasiya və müşahidə, aeronaviqasiya üçün meteoroloji xidmətlər, axtarış və xilasetmə, aeronaviqasiya informasiya xidmətləri daxil olmaqla, məlumatların emalı və ötürülməsi məqsədilə hava hərəkətinin təşkilinə yönəldilmiş xidmətlər;

1.1.8. **aviasiya hadisəsi** - uçuş məqsədilə bütün şəxslərin hava gəmisinə mindiyi andan hava gəmisini tərk etdiyi anadək şəxsin hava gəmisində, hava gəmisinin hər hansı hissəsi və ya ayrılmış hissəsi ilə birbaşa təması və ya reaktiv partlama nəticəsində ölümü və ya ağır yaralanması, həmçinin hava gəmisinin itməsi və ya əlçatmaz yerə düşməsi;

1.1.9. **aviasiya insidenti** - aviasiya hadisəsi ilə nəticələnməyən, hava gəmisinin istifadə olunması ilə bağlı olan, istismarın təhlükəsizliyinə mənfi təsir göstərən və ya göstərə bilən hadisə;

1.1.10. **aviasiya personalı** - ali, texniki və ya xüsusi hazırlıq keçmiş və ixtisas qeydləri əks olunmuş şəhadətnamələrə, vəsiqələrə (sertifikatlara) malik olan, aviasiya sahəsində müəyyən işlərin yerinə yetirilməsinə buraxılan mütəxəssislər;

1.1.11. **aviasiya təhlükəsizliyi** - insanlardan və maddi resurslardan istifadə etməklə, aviasiyanın qanunsuz müdaxilə aktlarından qorunması üzrə tədbirlər kompleksi;

1.1.12. **Azərbaycan Respublikasının hava məkanı** - Azərbaycan Respublikasının quru ərazisi, daxili və ərazi suları üzərindəki hava məkanı;

1.1.13. **beynəlxalq uçuşlar** - hava gəmisinin bir neçə dövlətin hava məkanından keçməklə uçuş əməliyyatı;

1.1.14. **beynəlxalq hava daşıması** - birdən artıq dövlətin ərazisi üzərindəki hava məkanından keçən hava daşıması;

1.1.15. **birgə bazalı aerodrom** - mülki, dövlət və (və ya) eksperimental aviasiya hava gəmilərinin birgə baza yeri olan aerodrom;

1.1.16. **bort ehtiyatları** - əl yükü və aviasiya müəssisəsinə aid poçt və digər əşyalar istisna olmaqla, uçuş vaxtı hava gəmisində sərnişinlər və hava gəmisi heyətinə xidmət göstərilməsi üçün istifadə olunan və yaxud satış üçün təqdim edilən əşyalar, eləcə də hava gəmisinin istismarı və ona texniki xidmət göstərilməsi məqsədilə istifadə edilən əşyalar;

1.1.17. **coğrafi zona** - pilotsuz uçuş aparatı sistemlərinin əməliyyatları zamanı dövlət təhlükəsizliyi, uçuşların təhlükəsizliyi, aviasiya təhlükəsizliyi və ətraf mühitin qorunması, o cümlədən dövlət, kommersiya, şəxsi və ailə həyatının sirri ilə bağlı yarana biləcək riskləri nəzərə alaraq həyata keçiriləcək əməliyyatlar üçün müəyyən edilən, məhdudiyyət qoyulan və ya qadağan edilən hava məkanının bir hissəsi;

1.1.18. **daşıyıcı** - daşıma müqaviləsi və ya digər qanuni əsaslarla haqq müqabilində sərnişin, baqaj, yük və ya poçt daşımalarını yerinə yetirən, mülkiyyət, icarə və ya istifadə hüququ ilə hava gəmilərinə malik olan hüquqi şəxs və ya fərdi sahibkar;

1.1.19. **daxili hava daşıması** - uçuş məntəqəsi, təyinat məntəqəsi və bütün enmə məntəqələri Azərbaycan Respublikasının ərazisində yerləşən hava daşıması;

1.1.20. **dizayn dövləti** - hava gəmisinin növünün dizaynına görə cavabdeh olan hüquqi şəxsin üzərində yurisdiksiyaya malik olan dövlət;

1.1.21. **dizayn təşkilatı** - hava gəmisinin növünün dizaynına görə cavabdeh olan hüquqi şəxs;

1.1.22. **güc qurğusu ilə hərəkətə gətirilən hava gəmisi** - güc qurğusu ilə hərəkətə gətirilən və qaldırıcı qüvvəsi əsasən uçuşun verilmiş şəraitində hərəkətsiz qalan səthlərin aerodinamik reaksiyasının hesabına yaranan havadan ağır uçuş aparatı;

1.1.23. **hava daşıması** - müəyyən haqq müqabilində hava gəmisi ilə sərnişin, baqaj və yüklərin, habelə poçt göndərişlərinin daşınması;

1.1.24. **hava əlaqələri** - hava daşımaları məqsədilə ardıcıl olaraq həyata keçirilən uçuşlar;

1.1.25. **hava limanı (aeroport)** - hava gəmilərinin qəbulu və yola salınması, hava daşımalarına xidmət göstərilməsi üçün nəzərdə tutulan və müvafiq aerodromu, aerovağzalı, digər yerüstü tikililəri, lazımi avadanlığı olan qurğular kompleksi;

1.1.26. **hava gəmisi** - hava ilə qarşılıqlı təsir hesabına atmosferdə qalan (yer səthindən əks olunan hava ilə qarşılıqlı təsir istisna olmaqla) hər hansı aparat;

1.1.27. **hava gəmisinin heyəti** - uçuş xidməti vaxtı hava gəmisinin idarə edilməsi və xidmət göstərilməsi üzrə hava gəmisinin bortunda müəyyən vəzifələri yerinə yetirmək üçün hava gəmisinin sahibinin və ya istismarçının təyin etdiyi şəxslər;

1.1.28. **hava gəmisinin istismarçısı** - istismarçı sertifikatı əsasında bir və ya bir neçə hava gəmisini istismar edən və ya belə xidməti təklif edən hüquqi və ya fiziki şəxs;

1.1.29. **hava gəmisinin kapitanı (komanda verən pilotu)** - hava gəmisinin sahibi və ya istismarçısı tərəfindən təyin olunan, hava gəmisinin uçuşa yararlı və hazır olmasına və uçuşun təhlükəsiz yerinə yetirilməsinə görə cavabdeh olan, hava gəmisi heyətinə və sərnişinlərə icrası məcburi göstərişlər verən pilot;

1.1.30. **hava gəmisinin sahibi** - hava gəmisi üzərində mülkiyyət, icarə və ya istifadə hüququna malik olan hüquqi və ya fiziki şəxs;

1.1.31. **hava gəmisinin sərnişini (kommersiya hava daşımaları üzrə)** - sərnişinin hava nəqliyyatı ilə daşınma müqaviləsi və ya daşınma məqsədilə hava gəmisinin kirayələnməsi (çarteri) müqaviləsi bağlamış fiziki şəxs;

1.1.32. **hava gəmisinin itirilməsi** - hava gəmisinin tam dağılması, hava gəmisinin (onun qırıntılarının) yerinin təyin edilməməsi və onun axtarışlarının dayandırılması, hava gəmisinin məcburi enmə yerindən təxliyəsinin mümkün olmaması, hava gəmisinin bərpasının qeyri-mümkün olması və ya iqtisadi cəhətdən məqsədəuyğun olmaması;

1.1.33. **hava hərəkəti** - hava gəmilərinin uçuşda, yaxud aerodromun manevretmə ərazisində hərəkəti;

1.1.34. **hava hərəkətinin idarə edilməsi** - hava gəmilərinin bir-biri ilə və ya manevretmə ərazisindəki maneələrlə toqquşmalarının qarşısının alınması, hava hərəkəti axınının sürətləndirilməsi və nizamlı axınının saxlanması məqsədilə hava hərəkətinin tənzimlənməsi;

1.1.35. **hava hərəkətinin idarə edilməsinin təşkili sistemi** - insan faktoru, informasiya, texnologiya, qurğu və xidmətlərin birgə inteqrasiyası vasitəsilə havada, yerüstü və (və ya) fəzada rabitə, naviqasiya və müşahidə ilə dəstəklənən sistem;

1.1.36. **hava hərəkətinə xidmət** - uçuş informasiya xidməti, qəza xəbərdarlığı, hava hərəkətinə məsləhət xidməti, hava hərəkətinə dispetçer xidmətinin (sahə dispetçer xidməti, yaxınlaşma dispetçer xidməti və ya aerodrom dispetçer xidməti) göstərilməsi;

1.1.37. **hava məkanının strukturu** - şaquli və üfüqi müstəvilərdə məhdudlaşdırılmış, hava məkanından istifadənin təşkili üçün nəzərdə tutulmuş hava məkanı elementlərinin məcmusu;

1.1.38. **helikopter meydançası** - helikopterlərin enməsi, qalxması və ya səth üzərində hərəkəti üçün bütövlükdə və ya qismən istifadə edilməsi nəzərdə tutulan aerodromda, tikili və ya qurğu üzərində müəyyən edilmiş sahə;

1.1.39. **hərbi və digər xüsusi rejimli zonalar** - hərbi hissələrin və digər xüsusi istifadə rejimi müəyyənləşdirilən obyektlərin yerləşdiyi ərazilər;

1.1.40. **xidmət təminatçısı** - təlim təşkilatları, hava gəmisinin istismarçıları, aerodrom istismarçıları, hava gəmisinin istismarçılarına xidmət göstərən texniki xidmət təşkilatları, hava gəmisi, mühərrik və ya pərlərin növ dizaynına və istehsalına məsul olan hüquqi şəxslər və fərdi sahibkarlar, o cümlədən hava hərəkəti xidmətlərini təmin edən təchizatçı;

1.1.41. **xüsusi xarakterli aviasiya fəaliyyəti** - kənd təsərrüfatı, tikinti, səhiyyə, aerofotoçəkiliş, topoqrafik və spektrofotometrik çəkiliş, müşahidə, axtarış və xilasetmə, hava reklamı və digər sahələrdə xüsusi xidmətləri təmin etmək üçün həyata keçirilən uçuşlar;

1.1.42. **xüsusi şəraitlərdə uçuş əməliyyatları** - hava hərəkətini idarəetmə məntəqəsinin idarəetmə zonası daxilində vizual meteoroloji şəraitdən aşağı meteoroloji şəraitdə yerinə yetirilməsi üçün icazə verdiyi xüsusi vizual qaydalarla uçuş əməliyyatı;

1.1.43. **istismar tələbləri** - istismarçı sertifikatı ilə bağlı və istismar təlimatında göstərilən şərtlərə uyğun icazələr, şərtlər və məhdudiyyətlər;

1.1.44. **istismar təlimatı** - istismarçının vəzifələrini yerinə yetirərkən istifadə etməli olduğu prosedur, qayda və göstərişləri ehtiva edən sənəd;

1.1.45. **istismarçı sertifikatı** - fiziki və hüquqi şəxslərə hava daşımalarını həyata keçirməyə icazə verən sənəd;

1.1.46. **istismarçı dövlət** - hava gəmisi istismarçısının əsasən fəaliyyət göstərdiyi yerin olduğu və ya belə yer yoxdursa, istismarçının hüquqi ünvanının olduğu dövlət;

1.1.47. **istehsalçı dövlət** - hava gəmisinin konstruksiyasının yığılmasına cavabdeh olan hüquqi şəxsin yerləşdiyi dövlət;

1.1.48. **istehsalçı təşkilat** - hava gəmisinin konstruksiyasının yığılmasına cavabdeh olan hüquqi şəxs;

1.1.49. **kabinə heyəti** - uçuş heyətinin üzvü kimi çıxış etməyən, sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə istismarçı və ya hava gəmisi kapitanının (komanda verən pilotunun) verdiyi vəzifələri yerinə yetirən şəxs;

1.1.50. **kommersiya hava daşımaları** - hava gəmisi ilə müəyyən haqq müqabilində və daşıma müqaviləsi əsasında sərnişinlərin, baqajın, yükün və ya poçt göndərişlərinin daşınmasının həyata keçirilməsi;

1.1.51. **hava gəmisinin komponenti** - mühərrik, pər, hissə və ya quraşdırılmamış avadanlıq;

1.1.52. **quraşdırılmamış avadanlıq** - hava gəmisi istismarçısı tərəfindən hava gəmisinin bortunda daşınan, onun hissəsi olmayan və hava gəmisinin istismarı və ya idarə edilməsi üçün istifadə olunan və ya istifadə üçün nəzərdə tutulan, eləcə də hava gəmisinin təhlükəsiz istismarına təsir edə bilən və ya onun bortundakı şəxslərin həyat təminatı üçün istifadə olunan hər hansı cihaz, avadanlıq, mexanizm, aparat, ləvazimat, proqram təminatı və ya aksessuar;

1.1.53. **qeydiyyat dövləti** - hava gəmisinin dövlət qeydiyyatına alındığı dövlət;

1.1.54. **model pilotsuz uçuş aparatı** - həvəskar modelçilər tərəfindən hazırlanan və ya yığılan pilotsuz uçuş aparatı;

1.1.55. **model pilotsuz uçuş aparatı klubu və ya assosiasiyası** - model pilotsuz uçuş aparatlarını yarış, idman və əyləncə məqsədləri üçün nizamnaməsinə uyğun olaraq istismar edən hüquqi şəxs;

1.1.56. **məşq uçuşları** - hava gəmisinin istismarçısının uçuş heyətini hava gəmisinin uçuş əməliyyatlarının həyata keçirilməsi prosedurlarına uyğun təlimatlandırmaq, yoxlamaq və ya tanış etmək məqsədilə keçirdiyi uçuşlar;

1.1.57. **nəzarət olunan hava məkanı** - hava məkanının təsnifatına uyğun olaraq, hüdudlarında hava hərəkətinin idarəetmə xidməti göstərilən müəyyən ölçülü hava məkanı;

1.1.58. **növ dizaynı** - uçuşa yararlılığı müəyyən etmək məqsədilə hava gəmisinin, mühərrikin və ya pərin dizaynını müəyyən etməyə imkan verən məlumat və ya məlumat toplusu;

1.1.59. **perron** - sərnişinlərin minib-düşməsi, baqajın, yüklərin və poçtun yüklənib-boşaldılması, yanacaq doldurulması və ya boşaldılması, dayanma, yaxud texniki xidmət məqsədilə hava gəmilərinin yerləşdirilməsi üçün nəzərdə tutulmuş aerodromun müəyyən sahəsi;

1.1.60. **pilotsuz uçuş aparatı** - bortunda pilot olmadan avtonom rejimdə uçan və ya məsafədən idarə edilən istənilən hava gəmisi;

1.1.61. **pilotsuz uçuş aparatını məsafədən idarə edən pilot (operator)** - pilotsuz uçuş aparatının istismarı ilə bağlı vəzifələri icra edən və uçuş zamanı pilotsuz uçuş aparatını məsafədən avadanlıq vasitəsilə idarə edən fiziki şəxs;

1.1.62. **pilotsuz uçuş aparatı sistemləri** - pilotsuz uçuş aparatı və onun məsafədən idarə edilməsi üçün avadanlıq;

1.1.63. **pilotsuz uçuş aparatının məsafədən idarə edilməsi üçün avadanlıq** - pilotsuz uçuş aparatının təhlükəsiz istismarını təmin edən və onun hissəsi olmayan, eləcə də bortunda daşınmayan hər hansı bir cihaz, ləvazimat, ehtiyat hissələri, əşya və ya proqram təminatı;

1.1.64. **pilotsuz uçuş aparatının qeydiyyatı sertifikatı** - pilotsuz uçuş aparatının dövlət qeydiyyatına alınması barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi təsdiqedici sənəd;

1.1.65. **pilotsuz uçuş aparatı sistemləri əməliyyatının iştirakçısı** - operator, pilotsuz uçuş aparatı müşahidəçisi, eləcə də pilotsuz uçuş aparatı sistemləri istismarçısı tərəfindən təlimatlandırılmış və pilotsuz uçuş aparatı sistemləri əməliyyatının həyata keçirilməsində iştirak edən fiziki şəxs;

1.1.66. **pilotsuz uçuş aparatının uçuşlarının idarə edilməsi və əlaqələndirilməsi mərkəzi** - Azərbaycan Respublikasında pilotsuz uçuş aparatının uçuşlarına nəzarəti və hava hərəkətinin idarəetməsinin əlaqələndirilməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı mərkəz;

1.1.67. **hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi** - beynəlxalq və milli qanunvericiliyə uyğun olaraq, hava gəmisinin, hava gəmisi heyətinin, sərnişinlərin, yükün, baqajın, poçt daşımalarının hərəkətinin təkmilləşdirilməsinə yönəlmiş, gecikmələrin qarşısının alınması, hava əlaqələrinin sürətləndirilməsi məqsədilə prosedurların sadələşdirilməsi;

1.1.68. **səlahiyyətli nümayəndə** - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən digər dövlətin apardığı aviasiya hadisəsi və insidentinin araşdırmasında iştirak etmək məqsədilə təyin edilən peşəkar şəxs;

1.1.69. **sərnişinlər barədə ilkin məlumatlar** - hava daşımalarını həyata keçirən istismarçıların təqdim etdikləri hava gəmisinin uçuş məlumatlarından, o cümlədən Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikasının ərazisini tərk edəcək sərnişin və hava gəmisinin heyət üzvlərinin sərhədkeçmə sənədlərində əks olunan informasiyadan ibarət məlumatlar toplusu;

1.1.70. **sərnişinlər barədə ilkin məlumatlar sistemi** - uçuşun başlanmasından və ya başa çatmasından əvvəl hər bir sərnişin və (və ya) hava gəmisinin heyət üzvləri haqqında toplanmış məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməsini təmin edən elektron informasiya sistemi;

1.1.71. **sərnişin adlarının qeydiyyatı** - sərnişin və ya onun adından bron edilmiş hər bir səfərə dair qeydə alınan və hava daşımaları üzrə xidmətlərin göstərilməsi zamanı hava daşımalarını həyata keçirən istismarçılar tərəfindən kommersiya və uçuş əməliyyatları məqsədləri üçün istifadə olunan məlumatlar toplusu;

1.1.72. **sərnişin məlumatlarına dair "bir pəncərə" sistemi** - hava daşımalarını həyata keçirən istismarçılar tərəfindən sərnişinlər barədə formalaşdırılan ilkin məlumatlar sistemi və sərnişin adlarının qeydiyyatı məlumatlarının vahid məlumat bazasında yerləşdirilməsinə və vahid qurum üzərindən qəbuluna, saxlanılmasına və ötürülməsinə imkan verən sistem;

1.1.73. **təhlükəli yüklər** - hava gəmilərində daşınarkən, yüklənərkən, saxlanılarkən vəboşaldılarkən ətraf mühitin çirklənməsinə səbəb olan, insanların və digər canlıların həyatına və sağlamlığına, habelə uçuşun təhlükəsizliyinə və əmlakın mühafizəsinə təhlükə yarada bilən məmulatlar, maddələr və ya qurğular;

1.1.74. **texniki xidmət** - təmir, yoxlama, dəyişmə, qüsurların aradan qaldırılması və modifikasiyası daxil olmaqla, hava gəmisinin, mühərrikin, pərin və ya əlaqəli hissənin uçuşa yararlılığının saxlanılmasını təmin etmək üçün lazımi işlərin yerinə yetirilməsi;

1.1.75. **tanınma** - xarici dövlətlərin mülki aviasiya sahəsində səlahiyyətli orqanları tərəfindən verilmiş sertifikat, icazə və ya digər analoji sənədlərin etibarlılığının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiqi;

1.1.76. **uçuş heyəti** - uçuş xidməti vaxtı hava gəmisinin uçuş əməliyyatının həyata keçirilməsi üçün əsas vəzifələri yerinə yetirmək məqsədilə təyin edilmiş və şəhadətnamə verilmiş şəxslər;

1.1.77. **uçuş əməliyyatı** - hava daşımaları ilə əlaqədar hava gəmilərinin həyata keçirdiyi əməliyyatlar;

1.1.78. **uçuşu imitasiya edən təlim qurğusu** - yerdə uçuş şəraitini modelləşdirən hər hansı cihaz növü, o cümlədən uçuş trenajorları, uçuş və naviqasiya prosedurlarını əhatə edən təlim qurğuları;

1.1.79. **uçuşların təhlükəsizliyi** - təhlükə mənbələrinin aşkarlanması və risklərə nəzarət yolu ilə uçuşların təhlükəsiz həyata keçirilməsi, o cümlədən insan həyatına və sağlamlığına, yaxud əmlaka ziyan vurulma riskinin azaldılması və məqbul səviyyədə saxlanılması üçün görülən tədbirlərin məcmusu;

1.1.80. **uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi** - zəruri təşkilati struktur, uçuşların təhlükəsizliyinin təmin olunmasına cəlb edilmiş subyektlərin vəzifələri və məsuliyyəti daxil olmaqla, bu sahədə müvafiq qayda və prosedurların məcmusu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq və tətbiq edilən sistem;

1.1.81. **uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarət** - aviasiya fəaliyyətini həyata keçirən fiziki və hüquqi şəxslər tərəfindən uçuşların təhlükəsizliyi sahəsində beynəlxalq standartlara, habelə aviasiya sahəsində yaranan münasibətləri tənzimləyən Azərbaycan Respublikası normativ hüquqi aktlarının tələblərinə riayət olunmasının təmin edilməsi və həmin tələblərin pozulması hallarının aradan qaldırılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilən fəaliyyət;

1.1.82. **uçuş vaxtı:**

1.1.82.1. **təyyarə üçün** - hava gəmisinin uçuş məqsədilə hərəkətə başladığı andan uçuşun sonunda dayandığı ana qədər olan ümumi müddət;

1.1.82.2. **helikopter üçün** - hava gəmisinin pərlərinin fırlanmağa başladığı andan uçuşun sonunda dayandığı və pərlərinin dayandırıldığı ana qədər olan ümumi müddət;

1.1.82.3. **pilotsuz uçuş aparatı üçün** - uçuş əməliyyatı yerinə yetirmək məqsədilə məsafədən idarə olunan hava gəmisinin uçuş əməliyyatlarının idarə edilməsi və əlaqələndirilməsi mərkəzinin arasında yaranan, əmrin verilməsi və nəzarət əlaqəsinin başlanmasından və ya məsafədən idarə edən pilotun (operatorun) nəzarəti təhvil aldığı andan nəzarəti təhvil verdiyi anadək və ya uçuş əməliyyatının sonunda uçuşların idarə edilməsi və əlaqələndirilməsi mərkəzi ilə məsafədən idarə olunan hava gəmisi arasında nəzarət əlaqəsinin bitdiyi anadək olan ümumi müddət;

1.1.83. **uçuşa yararlılıq** - hava gəmisinin, mühərrikin, pərin və ya hissənin təsdiq edilmiş dizaynına uyğun və təhlükəsiz istismarı üçün işlək vəziyyətdə olması;

1.1.84. **uçuşa yararlılığın saxlanılması** - istismar zamanı hava gəmisinin, mühərrikin, pərlərin və hissələrin uçuşa yararlılıq tələblərinə uyğunluğunun təmin edilməsi, habelə təhlükəsiz istismarı üçün lazımi vəziyyətdə saxlanılması məqsədilə həyata keçirilən tədbirlər toplusu;

1.1.85. **uçuş məlumat rayonu** - uçuş məlumat və xəbərdarlıq xidmətlərinin göstərildiyi müəyyən edilmiş ölçülərdə hava məkanı (uçuş məlumat rayonu Azərbaycan Respublikasının ərazi sularına daxil olmayan su sahəsi üzərində, o cümlədən dövlətlərarası müqavilə əsasında digər dövlətin üzərindəki hava məkanını özündə ehtiva edə bilər);

1.1.86. **ümumi xarakterli aviasiya fəaliyyəti** - kommersiya hava daşımaları və xüsusi xarakterli aviasiya fəaliyyəti üçün nəzərdə tutulmayan, təlim, əyləncə, istirahət və ya şəxsi iş məqsədləri üçün istifadə olunan mülki aviasiya;

1.1.87. **yerüstü xidmət** - yerdə nəzarətlə əlaqədar olan təhlükəsizliyin təmin edilməsi üzrə xidmətlər, hava gəmisinin yola salınması, yüklənmənin idarə edilməsi, sərnişinlərə xidmət, baqajın, yükün və poçtun yüklənib-boşaldılması, hava gəmisinə perronda göstərilən xidmətlər və bort ehtiyatlarının yüklənməsi daxil olmaqla, aerodromda göstərilən hər hansı bir xidmət.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyənləşdirilmiş mənaları ifadə edir.

**Maddə 2. Azərbaycan Respublikasının aviasiya haqqında qanunvericiliyi**

2.1. Aviasiya haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və aviasiya sahəsini tənzimləyən Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

2.2. Vahid beynəlxalq hava hərəkətinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə mülki aviasiya sahəsini tənzimləyən Azərbaycan Respublikasının normativ hüquqi aktları "Beynəlxalq Mülki Aviasiya haqqında" 1944-cü il 7 dekabr tarixli Konvensiyaya və onun əlavələri ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartları və tövsiyə olunan təcrübəsi, o cümlədən mülki aviasiya sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrin tələbləri nəzərə alınmaqla qəbul edilir.

**Maddə 3. Qanunun tətbiq dairəsi**

Bu Qanun Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikasında hava məkanından istifadəyə dair münasibətləri, Azərbaycan Respublikasına mənsub hava gəmilərinin Azərbaycan Respublikasının hava məkanından kənarda istismar edilməsi zamanı yaranan münasibətləri, həmçinin xarici dövlətə mənsub hava gəmilərinin Azərbaycan Respublikasının hava məkanında uçuş əməliyyatlarını həyata keçirməsi zamanı yaranan münasibətləri tənzimləyir və bu sahələrdə fəaliyyət göstərən dövlət orqanlarına (qurumlarına), bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, habelə xarici dövlətlərin və beynəlxalq təşkilatların müvafiq qurumlarına şamil olunur.

**Maddə 4. Aviasiyanın növləri**

4.1. Azərbaycan Respublikasında aviasiya mülki, dövlət və eksperimental aviasiyaya bölünür.

4.2. İqtisadiyyatın, əhalinin, o cümlədən ayrı-ayrı şəxslərin ehtiyaclarının ödənilməsi və həyata keçirilməsi üçün nəzərdə tutulan aviasiya mülki aviasiyadır. Mülki aviasiya sahəsində ümumi və xüsusi xarakterli aviasiya fəaliyyəti həyata keçirilir. Kommersiya hava daşımaları və xüsusi xarakterli aviasiya fəaliyyətiüçün nəzərdə tutulmayan mülki aviasiya ümumi xarakterli aviasiya fəaliyyəti hesab edilir.

4.3. Hərbi ehtiyacların, habelə dövlət təhlükəsizliyi, xarici kəşfiyyat, daxili işlər, sərhəd mühafizə, gömrük və ya digər dövlət orqanlarının ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan aviasiya dövlət aviasiyası hesab olunur.

4.4. Sınaq-konstruktor, eksperimental və elmi tədqiqat işlərinin aparılmasını, habelə aviasiya texnikasının və digər texnikanın sınaqdan keçirilməsini nəzərdə tutan aviasiya eksperimental aviasiya hesab edilir.

4.5. Qanunla qadağan edilməyən fəaliyyət zamanı mülki, eksperimental və ya dövlət aviasiyasından kommersiya məqsədləri üçün istifadə edilə bilər. Mülki, eksperimental və dövlət aviasiyasından kommersiya məqsədləri üçün istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 5. Aviasiya sahəsində mülkiyyət**

5.1. Mülki və eksperimental aviasiyaya aid hava gəmiləri, aerodromlar, hava limanları, texniki və uçuşların təşkili üçün zəruri olan vasitələr dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə ola bilər.

5.2. Dövlət aviasiyasına aid hava gəmiləri, aerodromlar, hava limanları, texniki və uçuşların təşkili üçün zəruri olan vasitələr, habelə hava hərəkətinin təşkili sisteminin obyektləri dövlət mülkiyyətidir.

### 2-ci fəsil
### AVİASİYA SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏMƏSİ

**Maddə 6. Aviasiya sahəsində dövlətin məqsədi və vəzifələri**

6.1. Aviasiya sahəsində dövlət tənzimləməsinin məqsədi aviasiyada təhlükəsizliyin, bu sahədə görülən işlərin və göstərilən xidmətlərin yüksək keyfiyyətinin təmin edilməsidir.

6.2. Aviasiya sahəsində dövlətin vəzifələri aşağıdakılardır:

6.2.1. uçuşların təhlükəsizliyini və aviasiya təhlükəsizliyini təmin etmək;

6.2.2. aviasiya təhlükəsizliyi, uçuşların təhlükəsizliyi, hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair dövlət proqramlarını qəbul etmək;

6.2.3. hava hərəkətinə xidmət göstərilməsini, habelə aviasiya telekommunikasiya və informasiya xidmətini təmin etmək;

6.2.4. hava limanlarının, aerodromların, aviasiya təşkilatlarının fəaliyyətini, hava hərəkətinə xidmət sistemini tənzimləmək və bu fəaliyyətə nəzarəti həyata keçirmək;

6.2.5. bu Qanuna və beynəlxalq tələblərə uyğun olaraq, mülki aviasiya ilə əlaqədar fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxsləri, aviasiya avadanlıqlarını və vasitələrini sertifikatlaşdırmaq;

6.2.6. aviasiya fəaliyyəti ilə əlaqədar fiziki və hüquqi şəxslərin fəaliyyətini yoxlamaq və aşkar edilmiş pozuntuların aradan qaldırılması üçün bu Qanunda müəyyən edilən tədbirləri görmək;

6.2.7. aviasiya hadisələrini və insidentlərini araşdırmaq, onların qarşısını almaq, habelə uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün maarifləndirmə və məlumatlandırma işlərini görmək, aviasiya hadisələri və insidentlərinin məlumat bazasını formalaşdırmaq;

6.2.8. aviasiya ilə əlaqədar axtarış və xilasetmə işlərinin tənzimlənməsini və əlaqələndirilməsini təmin etmək;

6.2.9. aviasiya hadisələri və insidentlərinin araşdırılmasını təmin etmək;

6.2.10. aviasiya sahəsində yarana biləcək təhlükə amillərinin müəyyən edilməsinə, risklərin qiymətləndirilməsinə və xidmət təminatçılarının xidmət göstərməsi zamanı həmin amillərin təsir dərəcəsinin azaldılması üçün risklərin idarə edilməsi sisteminə nəzarət etmək;

6.2.11. aviasiya təhlükəsizliyinə və uçuşların təhlükəsizliyinə nəzarət çərçivəsində qanunla müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərin fəaliyyətinə məhdudiyyət, qadağa qoymaq və digər məcburi tədbirlər tətbiq etmək;

6.2.12. hava daşımalarının bütün iştirakçıları üçün bərabər şərait yaratmaq, insanların vəmalların sərbəst hərəkətini asanlaşdırmaq və beynəlxalq səviyyədə milli aviasiya sənayesinin rəqabət qabiliyyətini artırmaq;

6.2.13. ətraf mühitin mühafizəsini təmin etmək;

6.2.14. texniki və istismar üzrə qarşılıqlı fəaliyyət və inzibati sahələrdə qabaqcıl təcrübənin tətbiqini təşviq etmək.

6.3. Aviasiya sahəsində dövlət siyasətini, tənzimlənməsini və nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.

**Maddə 7. Aviasiya sahəsində fəaliyyətə dair ümumi tələblər**

7.1. Aviasiya sahəsində fəaliyyətlə əlaqədar bu Qanun, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada müvafiq hüquqları təsdiq edən sənədləri almış fiziki və hüquqi şəxslər tərəfindən müntəzəm və qeyri-müntəzəm (çarter) uçuşların həyata keçirilməsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən icazə verilir.

7.2. Digər dövlətə mənsub mülki hava gəmisi Azərbaycan Respublikasının hava məkanında yalnız Azərbaycan Respublikası ilə həmin dövlət arasında belə uçuşların nəzərdə tutulduğu beynəlxalq müqavilə bağlanıldıqda müntəzəm və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən icazə verildikdə qeyri-müntəzəm (çarter) uçuşlar həyata keçirmək hüququna malikdir. Bu tələb həmçinin "Beynəlxalq Mülki Aviasiya haqqında" 1944-cü il 7 dekabr tarixli Konvensiyaya əsasən funksiya və vəzifələri ötürülmüş hava gəmilərinə də şamil edilir.

7.3. Digər dövlətə mənsub olan dövlət hava gəmisi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən icazə verildikdə, yalnız bu icazədə göstərilən şərtlərə və müddətlərə uyğun olaraq Azərbaycan Respublikasının hava məkanında uçuşlar həyata keçirmək hüququna malikdir.

7.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) icazəsi olmadan Azərbaycan Respublikasının hava məkanında heç bir hava gəmisinin səsdən iti sürətlə uçmasına yol verilmir.

7.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) digər dövlətlərə mənsub hava gəmilərində uçuşların təhlükəsizliyi üzrə yoxlamalar aparmaq hüququna malikdir. Bu cür yoxlamalar həmin hava gəmilərinin cədvəl üzrə uçuş vaxtına riayət edilməklə aparılır.

*Ardı 10-cu səh.*

# Aviasiya haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 9-cu səh.*

7.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəhbəri və sertifikatlaşdırma, o cümlədən nəzarətlə bağlı vəzifələrini icra edən əməkdaşları birbaşa və ya dolayısıyla aviasiya texnikasının, onun hissələrinin, quraşdırılmamış avadanlıqların, elementin və sistemlərin layihələndirilməsində, istehsalı və texniki xidmətində və ya onların istismarında iştirak edə bilməzlər.

7.7. Digər dövlətdə qeydiyyatda olan istismarçı tərəfindən istismar olunan mülki hava gəmiləri uçuşa və istismara yararlı olmalıdır. Həmin hava gəmilərinin uçuşa və istismara yararlılığının təmin edilməsi, uçuş heyətinə və uçuş sənədlərinə dair tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 8. Aviasiya sahəsində fəaliyyətə dair xüsusi tələblər**

8.1. Bu Qanunun 7.1-7.4-cü maddələrində nəzərdə tutulan icazələri almadan Azərbaycan Respublikasının dövlət sərhədini keçən, Azərbaycan Respublikasının dövlət sərhədi üzərində uçuş qaydalarını pozan və ya Azərbaycan Respublikasının hava məkanından istifadə qaydalarını digər şəkildə pozan hava gəmisi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tələbi ilə məcburi qaydada yerə endirilə bilər.

8.2. Bu Qanunun 8.1-ci maddəsində nəzərdə tutulan hallarda uçuş qaydalarını pozan hava gəmisi yerə endirildikdən və pozuntunun səbəbləri aydınlaşdırıldıqdan sonra uçuşunun davamına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən icazə verilir.

8.3. Məcburi qaydada yerə enmək barədə xüsusi tələblərə riayət etməyən, bortunda pozuntu törədilməsində təqsiri olmayan sərnişinlərin olması barədə düzgün məlumat olmayan və ya özünümüdafiə tələb edilən halda hava gəmisinin məhvinə icazə verilir.

8.4. Qəza halları istisna olmaqla, hava gəmisinin bortunda olan şəxslərin həyat və sağlamlığına təhlükə yarandığı hallarda və ya texniki nasazlıq səbəbindən Azərbaycan Respublikasının hava məkanına daxil olan beynəlxalq uçuşları yerinə yetirən hər hansı hava gəmisinin təcili enməsini və həmin hava gəmisinin sərhəd və gömrük nəzarətindən və bu Qanunda nəzərdə tutulmuş digər nəzarətdən keçməsini təmin etmək üçün yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) bu məqsədlə müəyyən etdiyi hava limanında yol verilir.

8.5. Kommersiya uçuşlarının həyata keçirilməsi zamanı istismar tələblərinə uyğun olmayan sınaqları və qəza şəraitinin imitasiyasını aparmağa yol verilmir.

**Maddə 9. Mülki aviasiya sahəsində xidmətlərə və ya hüquqi hərəkətlərə görə yığımlar və dövlət rüsumu**

9.1. Mülki aviasiya sahəsində aşağıdakı icazələrin, o cümlədən şəhadətnamə, vəsiqə və sertifikatların verilməsi və tanınması xidmətlərinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu ödənilir:

9.1.1. hava limanlarına və ya aerodromlara uyğunluq sertifikatının verilməsi;

9.1.2. hava nəqliyyatı istismarçılarına sertifikatın verilməsi;

9.1.3. mülki aviasiya sahəsində fəaliyyət göstərən digər subyektlərə uyğunluq sertifikatının verilməsi;

9.1.4. mülki aviasiya sahəsində fəaliyyət göstərən digər subyektlərə uyğunluq sertifikatının təkrar verilməsi;

9.1.5. hava gəmilərinə qeydiyyat sertifikatının verilməsi;

9.1.6. hava gəmisinin növ sertifikatının tanınması;

9.1.7. hava gəmilərinə uçuşa yararlılıq sertifikatının verilməsi;

9.1.8. hava gəmilərinə uçuşa yararlılıq sertifikatının müddətinin uzadılması;

9.1.9. hava təhlükəsizliyi və aeronaviqasiya üçün istifadə olunan avadanlıqlara uyğunluq sertifikatının verilməsi;

9.1.10. aviasiya təhlükəsizliyi üçün istifadə olunan avadanlıqların sertifikatının tanınması;

9.1.11. xüsusi şəraitdə uçuşların yerinə yetirilməsinə icazə verilməsi;

9.1.12. müntəzəm marşrutlara uçuş icazəsinin verilməsi;

9.1.13. qeyri-müntəzəm (çarter) marşrutlara uçuş icazəsinin verilməsi.

9.2. Mülki aviasiyada təhlükəsizliyin maliyyə təmini məqsədilə xidmət təminatçılarına mülki aviasiyada təhlükəsizliyə nəzarətlə bağlı göstərilən xidmətlərə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdə xidmət haqqı tutulur.

9.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) xidmət təminatçıları tərəfindən göstərilən hava limanları xidmətləri və aeronaviqasiya xidmətlərinə görə yığımların məbləğinin hesablanması qaydasını müəyyən edir.

**3-cü fəsil**

**HAVA LİMANLARI, AERODROMLAR VƏ HELİKOPTER MEYDANÇALARI**

**Maddə 10. Hava limanları və aerodromlar**

10.1. Beynəlxalq hava limanları, mülki aerodromlar dövlət, xüsusi və bələdiyyə, hərbi aerodromlar isə dövlət mülkiyyətindədir.

10.2. Mülki hava limanları və (və ya) aerodromlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada istismara yararlılıq, aeronaviqasiya təchizatı və təminatı, o cümlədən təhlükəsizlik tələblərinin təminatı baxımından sertifikatlaşdırılmalıdır.

10.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada uyğunluq sertifikatı almayan hava limanlarının və (və ya) aerodromların istismarına yol verilmir.

10.4. Hava limanlarına və (və ya) aerodromlara uyğunluq sertifikatı verən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) sertifikatlaşdırılmış hava limanlarına və (və ya) aerodromlara, yerüstü xidmət vasitələrinə nəzarəti həyata keçirir və müfəttiş yoxlamaları aparır.

10.5. Hava limanının və (və ya) aerodromun istismarı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi tələblərə uyğun olmadıqda, uçuşların təhlükəsizliyinin və aviasiya təhlükəsizliyinin müəyyən olunmuş səviyyədə təmin edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) hava limanının və (və ya) aerodromun istismarına dair məhdudiyyətlər tətbiq edir və ya istismarına qadağa qoyur.

10.6. Aşkar edilmiş çatışmazlıqlarla bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) uçuşların təhlükəsizliyinə və aviasiya təhlükəsizliyinə xələl gətirməmək şərtilə, hava limanının və (və ya) aerodromun istismarçısına çatışmazlıqların aradan qaldırılması üçün müddət müəyyən edir. Bu müddət ərzində hava limanı və (və ya) aerodrom üçün müvafiq məhdudiyyətlər müəyyən edilə bilər.

10.7. Aşkar edilmiş çatışmazlıqlar bu Qanunun 10.6-cı maddəsinə uyğun olaraq müəyyən edilmiş müddət ərzində aradan qaldırılmazsa, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş uyğunluq sertifikatı ləğv edilir.

10.8. Hava limanlarına və aerodromlara gedən yolların inşası, yenidən qurulması, abadlaşdırılması və istismarı, bu yollarda sərnişin nəqliyyatının müntəzəmliyi, habelə şəhərlərin və digər yaşayış məntəqələrinin hava limanları və aerodromlarla kommunikasiyası və telefon rabitəsi təmin edilir.

10.9. Hərbi və digər xüsusi rejimli zonaların yaxınlığında yerləşən hava limanlarının və aerodromların mühafizəsi dövlət tərəfindən təmin olunur və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) buna nəzarət edir.

10.10. Hərbi və digər xüsusi rejimli zonaların yaxınlığında yerləşən hava limanları və aerodromların təhlükəsizliyinə təhdidlər yarandıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin hava limanlarının və (və ya) aerodromların təhlükəsizliyi təmin olunana qədər mülki məqsədlər üçün istismarına məhdudiyyətlər tətbiq edir və ya onların fəaliyyətini dayandırır.

10.11. Mülki hava limanları və (və ya) aerodromlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi tələblərə uyğun layihələndirilir və istismar olunur.

10.12. Hava limanları və aerodromlar hava gəmisinin istismarına hər hansı təhdid yarada biləcək şəxslərin, nəqliyyat vasitələrinin, o cümlədən heyvanların hərəkət zonasına girişinin qarşısının alınması üçün mühafizə vasitələri ilə təmin olunur.

10.13. Mülki, eksperimental və dövlət aviasiyasına xidmət edən hava limanları və (və ya) aerodromlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada dövlət qeydiyyatına alınır. Mülki, dövlət və (və ya) eksperimental aviasiya hava gəmilərinin birgə baza yeri olan birgə bazalı aerodromlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada dövlət qeydiyyatına alınır.

10.14. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) dövlət qeydiyyatına alınmış hava limanları və (və ya) aerodromlar həminorqan (qurum) tərəfindən aparılan hava limanları və (və ya) aerodromların dövlət reyestrinə daxil edilir.

10.15. Aerodrom istismarçılarının və hava hərəkəti xidmətlərini təmin edən təchizatçının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılan məlumat qeydiyyat sisteminə çıxışı təmin edilir.

10.16. Fəaliyyətinin növündən və həcmindən asılı olaraq, aerodrom istismarçısı uçuşların təhlükəsizliyinin idarə edilməsi üzrə toplanmış məlumat bazası əsasında müvafiq tələblərə uyğunluğu və təhlükəsizliyi təmin etmək üçün risklərin idarə edilməsi sistemini hazırlayır və daim təkmilləşdirir.

10.17. Hava limanlarının və aerodromların istismarçıları tərəfindən fövqəladə hallar üçün fəaliyyət planı tərtib edilir, xilasetmə və yanğınsöndürmə işlərinin təşkili üçün tədbirlər görülür.

**Maddə 11. Aerodromyanı ərazi və onun istifadəsinə dair məhdudiyyətlər**

11.1. Aerodromyanı ərazi hüdudlarında torpaq sahəsinin və daşınmaz əmlakın istifadəsinə, həmçinin həmin ərazidə iqtisadi və digər fəaliyyətin həyata keçirilməsinə uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada nəzarət həyata keçirilir.

11.2. Aerodrom istismarçısı uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə aerodromyanı ərazidə və onun yaxınlığında gözqamaşdırıcı işıqların, rabitə, naviqasiya və müşahidə sistemlərinin normal işinə mənfi təsir göstərə bilən hərəkətli və ya sabit obyektlərin, cihazların, radiasiya mənbələrinin və hər hansı digər maneənin yerləşdirilməsinə nəzarəti təmin edir.

11.3. Aerodromyanı ərazinin hüdudlarında yaşayış məntəqələrinin layihələndirilməsi, inşası, habelə sənaye, kənd təsərrüfatı və digər obyektlərin inşası və yenidən qurulması uçuşların təhlükəsizliyinə dair tələblərə riayət olunmaqla, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılır və aerodrom istismarçısı tərəfindən risklərin idarə edilməsi həyata keçirilir.

11.4.Uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə fiziki və hüquqi şəxslər tərəfindən hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılıq verməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

11.5. Aerodromyanı ərazinin hüdudlarında məskunlaşma, daşınmaz əmlak obyektlərinin qanunsuz istifadəsi, habelə sanitariya və əhalinin sağlamlığının qorunması qaydalarının pozulması aşkar edildikdə, aerodrom istismarçısı bu barədə rəy hazırlayır və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), aerodromun yerləşdiyi ərazi üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)və bələdiyyəyə göndərir.

11.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 11.4-cü maddəsində nəzərdə tutulan razılıq əsasında, yaxud öz təşəbbüsü ilə Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin, bu Qanunun və Beynəlxalq Mülki Aviasiya Təşkilatının tələblərinin pozulması hallarını araşdıraraq, aerodromyanı ərazidə uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün tikinti işlərinin dayandırılması və tikinti obyektlərinin sökülməsi barədə Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 16-cı fəslinə uyğun olaraq müvafiq tədbirlərin görülməsi məqsədilə aidiyyəti üzrə müraciət etmək hüququna malikdir.

**Maddə 12. Ətraf mühitin mühafizəsi və təsirlərin idarə olunması**

12.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) mülki aviasiyanın fəaliyyəti ilə bağlı ətraf mühitin mühafizəsi sahəsində ümumi koordinasiya işini aparır.

12.2. Hava gəmisi sistemləri və avadanlıqlar ətraf mühitə təsiri baxımından texniki tələblərə uyğun olaraq layihələndirilir, istehsal edilir və texniki baxışdan keçirilir.

12.3.Yeni hava limanlarının inşası və ya mövcud hava limanlarının genişləndirilməsinə dair layihələrin ətraf mühitə təsirinin qiymətləndirilməsi, o cümlədən transsərhəd təsirinin qiymətləndirilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir. Aviasiyanın ətraf mühitə təsirinin azaldılması qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

**Maddə 13. Hava limanlarının, aerodromların və helikopter meydançalarının inşası və yenidən qurulması**

13.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hava limanlarının, aerodrom və helikopter meydançalarının inşası və yenidən qurulması ilə əlaqədar müvafiq ərazilərin ayrılması, tədqiqat, layihələndirmə və tikinti fəaliyyətiüçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyi nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən icazə verilməlidir.

13.2. Yeni hava limanlarının, aerodromların və helikopter meydançalarının tikintisi və yenidən qurulması layihələri hazırlanarkən aviasiyada təhlükəsizliyin təmin edilməsi məqsədilə ətraf ərazilərdə mövcud olan infrastruktur nəzərə alınır.

13.3. Hava limanlarında, aerodromlarda və helikopter meydançalarında inşaat və yenidənqurma işləri üzrə tikinti layihəsi və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən digər sənədlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılır.

**Maddə 14. Helikopter meydançaları**

14.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən mülki helikopter meydançaları istismara yararlılıq və təhlükəsizlik tələblərinə uyğun olaraq sertifikatlaşdırılır.

14.2. Helikopter meydançalarının layihələndirilməsi, tikintisi və texniki göstəricilərinə dair digər tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

14.3. Helikopter meydançalarının istismarçıları tərəfindən fövqəladə hallar üçün fəaliyyət planı tərtib edilir, xilasetmə və yanğınsöndürmə işlərinin təşkil edilməsi üçün tədbirlər görülür.

**4-cü fəsil**

**AXTARIŞ VƏ XİLASETMƏ**

**Maddə 15. Axtarış və xilasetmənin təşkili**

15.1. Azərbaycan Respublikasının ərazisində və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş digər ərazilərdə aviasiya hadisəsinə uğramış hava gəmisinin sərnişinlərinin və heyət üzvlərinin yerinin müəyyənləşdirilməsi və onların xilas edilməsi məqsədilə axtarış və xilasetmə işləri təşkil edilir.

15.2. Axtarış və xilasetmə işlərinin aparılmasını təşkil etmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən axtarış və xilasetmə üzrə koordinasiya mərkəzi yaradılır.

15.3. Hava gəmisinin aviasiya hadisəsinə uğraması zamanı axtarış və xilasetmə işlərinin təşkili qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

**Maddə 16. Aviasiya hadisəsi zamanı axtarış və xilasetməyə dair ümumi tələblər**

16.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), bələdiyyələr, hava hərəkəti xidmətlərini təmin edən təchizatçılar, hava limanları, aerodromlar, helikopter meydançaları və hava gəmisinin istismarçısı fəaliyyət istiqamətlərinə uyğun olaraq axtarış və xilasetmə işlərinin təşkil edilməsi üçün müvafiq sənədlərə, məlumatlara və avadanlıqlara malik olmalıdır.

16.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun), bələdiyyələrin, hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, hava limanlarının, aerodromların, helikopter meydançalarının və hava gəmisinin istismarçısının əməkdaşları, həmçinin müxtəlif sahələr üzrə mütəxəssislər axtarış və xilasetmə işlərinə cəlb edilir.

16.3. Axtarış və xilasetmə işlərinin dayandırılması barədə qərar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qəbul edilir.

16.4. Axtarış və xilasetmə işlərinin dayandırılması barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən axtarış və xilasetmə işlərində iştirak edən digər dövlət orqanlarına, aviasiya hadisələrinin araşdırılması üzrə daimi komissiyaya, hava gəmisinin istismarçısına, hava gəmisinin qeydiyyat dövlətinə və hava gəmisinin istismarçısının dövlətinə məlumat verilir.

16.5. İnsan həyatını xilas etmək məqsədilə görülən tədbirlər nəticəsində hadisə yerində aşkar edilmiş bütün elementlər hadisə yerində saxlanılmalı və bu elementlər barədə məlumat aviasiya hadisələrinin araşdırılması üzrə daimi komissiyaya verilməlidir.

**5-ci fəsil**

**AVİASİYA HADİSƏLƏRİ VƏ İNSİDENTLƏRİNİN ARAŞDIRILMASI**

**Maddə 17. Aviasiya hadisələri və insidentlərinin araşdırılmasının təşkili**

17.1. Hər bir aviasiya hadisəsi və ya insidentinin başvermə səbəbləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiya tərəfindən araşdırılır.

17.2. Aviasiya hadisələrinin və ya insidentlərinin araşdırılmasının əsas məqsədi bu hadisələrin və insidentlərin başvermə səbəblərinin müəyyən edilməsi və onların qarşısının alınması üçün preventiv tədbirlərin həyata keçirilməsidir.

17.3. Aviasiya hadisələrinin və ya insidentlərinin araşdırılması təqsirli şəxslərin müəyyən edilməsi və məsuliyyətə cəlb edilməsi məqsədi daşımır.

17.4. Aviasiya hadisələrinin və ya insidentlərinin araşdırılması zamanı aidiyyəti şəxslərin adlarının, uçuş heyətinin səs yazılarının və həyata keçirilən uçuş əməliyyatının video yazılarının, o cümlədən aviasiya hadisəsinin araşdırılması ilə bağlı istənilən məlumatın məxfiliyinin qorunması və Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə əsasən aparılan cinayət təqibinə mane olmamaq şərtilə götürülmüş sübutedici sənədlərin, yazıların, komponentlərin ixtisaslaşmış ekspertizası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.

17.5. Bu Qanunun 17.1-ci maddəsində nəzərdə tutulan daimi komissiyanın tərkibi və fəaliyyət qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

17.6. Bu Qanunun 17.1-ci maddəsində nəzərdə tutulan daimi komissiyanın nümayəndələrinin araşdırma zamanı heç bir məhdudiyyət qoyulmadan hadisə yerinə baxış keçirmək məqsədilə daxil olmasıvə istənilən material, habelə sübutlara, o cümlədən uçuş əməliyyatı və hava hərəkəti xidmətinə dair qeydlərə əlçatanlığı təmin edilir və araşdırma aparan digər orqan və şəxslər tərəfindən buna hər hansı maneə yaradılmır.

17.7. Azərbaycan Respublikasının ərazisində baş vermiş aviasiya hadisələri və insidentləri barədə məlumatın aidiyyəti üzrə verilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

17.8. Pilotsuz uçuş aparatları ilə bağlı baş verən aviasiya insidentləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi hallarda araşdırılmır.

17.9.Aviasiya hadisəsini və ya insidentini araşdırmaq üçün bu Qanunun 17.1-ci maddəsində nəzərdə tutulan daimi komissiya və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) səlahiyyətli nümayəndələri hadisə yerinə gələnədək hava gəmisinin elementlərinin qorunması təmin edilir.

17.10. Bu Qanunun 17.1-ci maddəsində nəzərdə tutulan daimi komissiyanın və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı olmadan aviasiya hadisəsinin və ya insidentinin baş verdiyi yerdə aşkar edilən hava gəmisinin hər hansı elementinin, yaxud onun daşıdığı əşyaların (yükün, baqajın) yığışdırılmasına və ya götürülməsinəyol verilmir.

**Maddə 18. Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması**

18.1. Azərbaycan Respublikasının ərazisində digər dövlətə mənsub hava gəmisi aviasiya hadisəsinə və ya insidentinə məruz qaldıqda, araşdırma prosesində maraqlı tərəflərin səlahiyyətli nümayəndələri, o cümlədən həmin hava gəmisinin dizayn dövlətinin, istehsalçı dövlətin, istismarçı dövlətin və qeydiyyata alındığı dövlətin səlahiyyətli şəxsləri iştirak etmək hüququna malikdirlər.

18.2. Azərbaycan Respublikasına mənsub hava gəmisi digər dövlətin ərazisində aviasiya hadisəsinə və ya insidentinə məruz qalarsa, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin aviasiya hadisəsinin və ya insidentinin araşdırılmasında Azərbaycan Respublikasının nümayəndələrinin iştirakının təmin edilməsi üçün aviasiya hadisəsinin baş verdiyi dövlətin müvafiq orqanına müraciət edir.

18.3. Bu Qanunun 17.1-ci maddəsində nəzərdə tutulan daimi komissiya və aviasiya hadisələrinin və ya insidentlərinin araşdırılmasına maraqlı tərəflərin səlahiyyətli nümayəndələri müvafiq araşdırmaya mütəxəssisləri (o cümlədən xarici ekspertləri) cəlb etmək, araşdırmada əhəmiyyəti olan sənədləri (məlumatları) əldə etmək, habelə əsasnaməsi ilə müəyyən edilmiş digər səlahiyyətlərə malikdir.

18.4. Araşdırma üçünbu Qanunun 17.1-ci maddəsində nəzərdə tutulan daimi komissiya digər dövlətin aidiyyəti orqanlarına yardım üçün müraciət edə bilər.

18.5. Bu Qanunun 17.1-ci maddəsində nəzərdə tutulan daimi komissiya öz fəaliyyətində müstəqildir və dövlət orqanlarının (qurumlarının), bələdiyyələrin, fiziki və hüquqi şəxslərin, habelə xarici dövlətlərin və beynəlxalq təşkilatların müvafiq qurumlarının onun fəaliyyətinə, o cümlədən aviasiya hadisələrinin və ya insidentlərinin araşdırılması və araşdırmanın nəticələrinə dair hesabatın tərtib edilməsinə müdaxiləsi qadağandır.

18.6. Uçuşların təhlükəsizliyinin təmin olunmasında mövcud və ya potensial nöqsanlar barədə məlumatların toplanmasını asanlaşdırmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aviasiya hadisələri barədə məcburi və könüllü verilməli olan məlumatların vahid sistemini yaradır.

18.7. Mülki aviasiyada uçuşların təhlükəsizliyinə dair məlumatların toplanılması və işlənilməsi sistemlərində məlumatın qorunması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 19. Aviasiya hadisələrinin və insidentlərinin araşdırılmasının nəticələri barədə hesabat**

19.1. Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiya araşdırmanın nəticələri barədə hesabat hazırlayır və həmin hesabatı dərc edir.

19.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təqdim edilmiş hesabatın nəticələrinə uyğun olaraq tədbirlər görür.

19.3. Araşdırmaya dair hesabatın layihəsinin və ya onun hər hansı hissəsinin, habelə araşdırma zamanı əldə olunan sənədlərin əldə edilməsinə və ya yayılmasına bu Qanunun 17.1-ci maddəsində nəzərdə tutulan daimi komissiyanın razılığı ilə yol verilir.

**Maddə 20. Aviasiya hadisələrinin və insidentlərinin araşdırılmasına yardım**

20.1. Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyaya kömək göstərmək məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) və bələdiyyələr fəaliyyət istiqamətlərinə uyğun olaraq daimi komissiyanın müraciəti əsasında aşağıdakıları yerinə yetirməlidirlər:

20.1.1. qüvvə və vasitələrin, müvafiq geyimin, təbii müdafiə vasitələrinin, nəqliyyat və rabitə vasitələrinin, lazımi ləvazimatın və materialların təminatı;

20.1.2. zərərçəkmiş şəxslər üçün yaşayış yeri və qida ilə təminat;

20.1.3. aviasiya hadisəsinin baş verdiyi ərazinin mühafizəsinin təşkili;

20.1.4. aviasiya hadisəsinin baş verdiyi yerdə iş aparmaq üçün təhlükəsiz şəraitin yaradılması;

20.1.5. zədələnmiş aviasiya texnikasının nəqlinin təmin olunması.

20.2. Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın fəaliyyəti dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

**6-cı fəsil**

**HAVA GƏMİLƏRİNİN DÖVLƏT QEYDİYYATI, DÖVLƏT UÇOTU, DÖVLƏT REYESTRİ VƏ NİŞANLANMASI**

**Maddə 21. Hava gəmilərinin dövlət qeydiyyatı, dövlət uçotu və dövlət reyestri**

21.1. Azərbaycan Respublikasına mənsub hava gəmiləri dövlət qeydiyyatına, xarici dövlətə mənsub hava gəmiləri dövlət uçotuna alınmalıdır.

21.2. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hava gəmisi Azərbaycan Respublikasının milli mənsubiyyətini daşıyır.

21.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dövlət qeydiyyatına alınmış mülki hava gəmilərinə qeydiyyat sertifikatı verir və onları mülki hava gəmilərinin dövlət reyestrinə daxil edir.

21.4. Hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, o cümlədən mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilməsi və çıxarılması qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

21.5. Hava gəmisi dövlət reyestrindən çıxarıldıqda onun qeydiyyat sertifikatı hüquqi qüvvəsini itirir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) qaytarılır. Bu zaman dövlət reyestrindən çıxarılmış hava gəmisinin sahibinə dövlət reyestrindən çıxarılma haqqında çıxarış verilir.

**Maddə 22. Hava gəmilərində nişanların və Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri**

22.1. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hava gəmisinə milli mənsubiyyət nişanı, qeydiyyat nişanı və Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri vurulur.

22.2. Hava gəmilərində bu Qanunun 22.1-ci maddəsində müəyyən edilmiş nişanların təsviri qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

22.3. Azərbaycan Respublikasında istismar edilən digər dövlətə mənsub olan hava gəmisi qeydiyyatda olduğu dövlətin qaydalarına uyğun nişanlanır.

**7-ci fəsil**

**UÇUŞA YARARLILIQ VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ**

**Maddə 23. Hava gəmilərinin sertifikatlaşdırılması**

23.1. Növ sertifikatına malik olan mülki hava gəmisi yalnız uçuşa yararlılıq sertifikatına və ya xüsusi uçuş icazəsinə malik olduqda istismar oluna bilər.

23.2. Uçuşa yararlılıq sertifikatı və ya xüsusi uçuş icazəsi yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən növ sertifikatı tanınmış mülki hava gəmilərinə verilir.

23.3. Mülki hava gəmilərinin növ dizaynında dəyişiklik və ya onların təmiri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya uyğun həyata keçirilir.

23.4. Mülki hava gəmilərinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada səs-küy çirklənmələri normalarına uyğunluq üzrə sertifikat verilir.

23.5. Bortunda radioavadanlıq quraşdırılmış mülki hava gəmilərinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən radioavadanlıq sertifikatı verilir.

23.6. Mülki hava gəmilərinə bu Qanunun 23.1-ci, 23.4-cü və 23.5-ci maddələrində nəzərdə tutulmuş sertifikatların verilməsi qaydası, habelə mülki hava gəmilərinə dair uçuşa yararlılıq və ətraf mühitin mühafizəsi üzrə tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 24. Hava gəmilərinin uçuşa yararlılığının saxlanılması**

24.1. Mülki hava gəmiləri və onların komponentləri uçuşa yararlı vəziyyətdə olmalıdır. Hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

24.2. Uçuşa yararlılıq sertifikatını vermiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 24.1-ci maddəsində qeyd olunan qaydaların pozulduğunu və ya mülki hava gəmisinin uçuşa yararlı olmadığını müəyyən etdikdə hava gəmisinin istismarını tam və ya qismən məhdudlaşdırır.

24.3. Mülki hava gəmilərinə texniki xidmət göstərən təşkilatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada sertifikatlaşdırılmalıdır.

24.4. Mülki hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılmasını idarə edən təşkilatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada sertifikatlaşdırılmalıdır.

*Ardı 11-ci səh.*

# Aviasiya haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 10-cu səh.*

**8-ci fəsil**
**AVİASİYA PERSONALI**

**Maddə 25. Aviasiya personalına dair tələblər**

25.1. Aviasiya personalı müvafiq şəhadətnamə, vəsiqə və sertifikatlara malik olmalıdır. Aviasiya personalına şəhadətnamələrin, vəsiqələrin və ya sertifikatların verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

25.2. Hava gəmilərinin uçuş və kabinə heyətləri,aeronaviqasiya xidmətlərinin təmin edilməsinə cəlb olunan havada hərəkəti idarəetmə dispetçerləri şəhadətnamə almalı, müvafiq təlim və tibbi yoxlamadan keçməlidirlər. Şəhadətnamələrin verilməsi, o cümlədən müvafiq təlim və tibbi yoxlamadan keçirilmə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

25.3. Uçuş və kabinə heyəti vəzifə öhdəliklərinin lazımi şəkildə yerinə yetirilməsinə dair normativ hüquqi aktlarla və vəzifə təlimatları ilə, o cümlədən uçuş heyəti istifadə ediləcək aerodromlar və aeronaviqasiya vasitələri ilə tanış olmadıqda uçuş əməliyyatı həyata keçirə bilməz.

25.4. Hava gəmilərinin istismarçıları uçuş və kabinə heyətlərinin ixtisaslarına uyğun müvafiq təlim və hazırlıq keçmələrini təmin edirlər.

25.5. Mülki hava gəmilərinin istismara buraxılışını təsdiq edən personal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada texniki xidmət üzrə şəhadətnamə almalıdır.

25.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi şəhadətnaməyə, vəsiqəyə və ya sertifikata malik olmayan və ya digər dövlətdə verilən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tanınan analoji sənədə malik olmayan şəxslər mülki aviasiya personalı qismində fəaliyyət göstərə bilməz.

25.7. Digər dövlətin mülki aviasiya sahəsində səlahiyyətli orqanı tərəfindən mülki aviasiya personalına verilmiş şəhadətnamə, vəsiqə və ya sertifikatların tanınması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

25.8. Aviasiya personalı peşəyə yararlılığının müəyyən edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada dövri olaraq ilkin və təkrar, nəzəri və praktiki testlərdən, o cümlədən psixoloji müayinələrdən keçirilir.

25.9. Bu Qanunun 25.1-ci maddəsində müəyyən edilmiş sənədləri almaq istəyən fiziki və hüquqi şəxslər "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu ödəyirlər.

25.10. Xidməti vəzifələrinin həyata keçirilməsi zamanı mülki aviasiya personalı bu Qanunda müəyyən edilmiş sənədləri üzərində daşımalıdır.

**Maddə 26. Aviasiya personalının şəhadətnamələrinin, vəsiqələrinin və sertifikatlarının dövlət reyestri**

26.1. Aviasiya personalının şəhadətnamə, vəsiqə və sertifikatlarının dövlət reyestrini həmin sənədləri vermiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aparır.

26.2. Digər dövlətdə verilmiş və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada tanınan analoji sənədlər barədə qeydlər bu Qanunun 26.1-ci maddəsində nəzərdə tutulan reyestrə daxil edilir.

**Maddə 27. Hava gəmisinin heyətinə dair ümumi tələblər**

27.1. Hava gəmisinin sahibi və ya istismarçısı hava gəmisini ixtisaslı heyətlə təmin edir. Hava daşımalarına cəlb edilən hava gəmisinin heyət üzvlərinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada şəhadətnamə verilir.

27.2. Hava gəmisi heyətinin hər bir üzvü öz vəzifələrini yerinə yetirməyə və hava gəmisinin rəhbərliyi tərəfindən verilən təlimatlara riayət etməyə borcludur.

27.3. Hava gəmisi heyətinin hər bir üzvü uçuşun uğurla başa çatacağına dair əsaslı şübhələri olduqda hava gəmisinin uçuşu ilə əlaqədar tapşırığın yerinə yetirilməsindən imtina edir.

27.4. Heyət üzvü uçuşdan əvvəl alkoqollu içki, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarını və ya uçuşların təhlükəsizliyinə təsir göstərə bilən dərman vasitələrini qəbul etdikdə, yaxud heyət üzvünün siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən xəstəliyi olduqda hava gəmisinin bortunda vəzifəsini icra etməsinə yol verilmir.

**Maddə 28. Hava gəmisinin kapitanının (komanda verən pilotun) hüquq və vəzifələri**

28.1. Hava gəmisinin idarə edilməsinə və uçuş vaxtı təhlükəsizliyinə görə məsuliyyəti hava gəmisinin kapitanı (komanda verən pilot) daşıyır.

28.2. Kapitan (komanda verən pilot) və ikinci pilot hava gəmisinin sahibi və ya onun razılığı ilə istismarçı tərəfindən təyin edilir.

28.3. Hava gəmisi uçuşda olmayan zaman kapitan (komanda verən pilot) və ikinci pilot hava gəmisində olmadıqda kapitan (komanda verən pilot) qismində yüksəkixtisaslı pilot çıxış edir. Pilotlar təyyarədə olmadıqda hava gəmisinin heyəti arasında ən yüksək vəzifəli şəxs hava gəmisinin kapitanı qismində çıxış edir.

28.4. Kapitanın (komanda verən pilotun) vəzifələri aşağıdakılardır:

28.4.1. uçuşdan əvvəl hava gəmisinin uçuşa yararlı və hazır olmasına, müvafiq heyətlə komplektləşdirilməsinə, yüklənməsinə əmin olmaq;

28.4.2. uçuşu yerinə yetirmək, uçuş zamanı hava gəmisinin uçuşa yararlılığına nəzarət etmək, o cümlədən obyektiv səbəblərdən öz vəzifələrini yerinə yetirə bilmədikdə uçuş başa çatdıqdan sonra bu halla bağlı bütün məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada hava hərəkətini idarə edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), hava gəmisinin sahibinə və ya istismarçısına məlumat vermək;

28.4.3. aviasiya hadisəsi və ya insidenti barədə dərhal müvafiq istismarçıya və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)məlumat vermək;

28.4.4. hava gəmisinin bortunda olan sərnişinlərin, baqajın və yükün təhlükəsizliyini təmin etmək;

28.4.5. uçuşların təhlükəsizliyinə dair sənədlərin hava gəmisinin bortunda olmasını və həmin sənədlərdə qeydlərin aparıldığını yoxlamaq;

28.4.6. hava gəmisi uçuş əməliyyatlarının həyata keçirilməsi üçün qadağan olunmuş zonaya daxil olduqda dərhal oranı tərk etmək;

28.4.7. hava gəmisi qəzaya uğradıqda, təhlükəyə məruz qaldıqda, habelə idarə olunması mümkün olmadıqda tədbirlər görmək.

28.5. Kapitanın (komanda verən pilotun) hüquqları aşağıdakılardır:

28.5.1. hava gəmisinin bortunda olan şəxslərə göstərişlər vermək və onların yerinə yetirilməsini tələb etmək;

28.5.2. öz hərəkətləri ilə uçuş və aviasiya təhlükəsizliyi üçün bilavasitə təhdid yaradan və hava gəmisi kapitanının göstərişinə tabe olmaqdan imtina edən şəxslər barəsində məcburetmə tədbirləri, yükü (baqajı) hava gəmisinin bortuna götürməkdən imtina etmək, habelə hava gəmisini tərk etməyi və yükün (baqajın) boşaldılmasını tələb etmək.

28.6. Uçuşdan əvvəl kabinə heyətinin hər bir üzvünün uçuş əməliyyatının həyata keçirilməsində rolu və vəzifələri müəyyən edilir. Kapitan (komanda verən pilot) uçuş əməliyyatının həyata keçirilməsi, hava gəmisinin, heyət üzvlərinin, sərnişinlərin və hava gəmisində olan yükün təhlükəsizliyi üçün məsuliyyət daşıyır.

28.7. Hava gəmisinin bütün heyət üzvləri və sərnişinlər bu Qanunun 28.3-cü maddəsində qeyd edilən hallar istisna olmaqla, kapitanın (komanda verən pilotun) bu Qanunun 28-ci maddəsində müəyyən edilmiş hüquq və vəzifələrinin icrası ilə bağlı əmrlərini icra etməyə, onun səlahiyyətlərinin həyata keçirilməsində ona kömək göstərməyə borcludurlar.

**Maddə 29. Təlim təşkilatlarına, təlimçilərə və təlim qurğularına dair tələblər**

29.1. Uçuş və kabinə heyətinə təlim keçən təşkilatlar, uçuş və kabinə heyətinin bilik və bacarıqlarını yoxlayan təlimçilər müvafiq sertifikata malik olmalıdır. Həmin sertifikat müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir.

29.2. Aeronaviqasiya xidmətlərinin təmin edilməsinə cəlb olunan havada hərəkəti idarəetmə dispetçerləri, onlara təlim keçən təşkilatlar, onların bilik və bacarıqlarını yoxlayan təlimçilər sertifikata malik olmalıdır. Həmin sertifikat müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir.

29.3. Mülki hava gəmilərinin istismara buraxılışını təsdiq edən personala ilkin texniki və hava gəmisinin növü üzrə təlimlər, eləcə də bu təlimlər üzrə imtahan keçirən və sertifikat verən təşkilatlar sertifikata malik olmalıdır. Həmin sertifikat müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir.

29.4. Uçuşu imitasiya edən təlim qurğuları sertifikatlaşdırılmalıdır. Həmin sertifikat müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir.

29.5. Digər dövlətdə yerləşən aviasiya personalının hazırlığı ilə məşğul olan tədris-təlim mərkəzləri tanınmalıdır. Tədris-təlim mərkəzlərinin tanınması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qaydada həyata keçirilir.

29.6. Aviasiya personalının hazırlığı zamanı eyni şəxs tərəfindən təlim keçirilməsinə və imtahanların qəbul edilməsinə yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə yol verilir.

**Maddə 30. Aviasiya personalının tibbi müayinəsi**

Aviasiya personalının peşəyə yararlılığı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada sertifikatlaşdırılan tibb müəssisələri və onların əməkdaşları tərəfindən həyata keçirilir.

**9-cu fəsil**
**MÜLKİ HAVA GƏMİLƏRİNİN İSTİSMAR EDİLMƏSİ**

**Maddə 31. İstismarçı sertifikatı və istismar tələbləri**

31.1. Hava gəmilərini istismar etmək istəyən fiziki və hüquqi şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) istismarçı sertifikatı almalıdırlar. İstismarçı sertifikatı hava gəmisi istismarçısının müraciəti əsasında istismar tələblərinə uyğunluğu təsdiq edildikdə verilir.

31.2. Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinə istismarçı sertifikatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir. Digər dövlətin hava gəmisi istismarçısının istismarçı sertifikatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada tanınır.

31.3. İstismarçı sertifikatının verilməsi və həmin sertifikatda dəyişiklik edilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

31.4. Mülki aviasiya sahəsində fəaliyyət göstərən və müvafiq sertifikatı olan istehsalçı, layihə və texniki xidmət təşkilatları yeni və modifikasiya edilmiş hava gəmilərinin prototiplərinin sınaq uçuşlarını, istehsalat şəraitində yoxlamaları və heyətlərin hazırlığını istismarçı sertifikatı almadan yerinə yetirmək hüququna malikdirlər.

**Maddə 32. İstismarçı sertifikatının qüvvəsinin dayandırılması və ya onun ləğv edilməsi**

32.1. İstismarçı tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi tələblərə riayət edilmədiyi aşkar olunduqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) sertifikatın hüquqi qüvvəsini həmin pozuntular aradan qaldırılanadək, lakin 90 (doxsan) gündən çox olmayan müddətə dayandırır.

32.2. Sertifikatın qüvvəsi dayandırıldığı müddətdə aşkar olunmuş pozuntular istismarçı tərəfindən aradan qaldırılmadıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) istismarçı sertifikatını ləğv edir.

**Maddə 33. İstismarçıların fəaliyyətinə nəzarət və yoxlamaların aparılması**

33.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) istismarçı tərəfindən istismarçı sertifikatının şərtlərinə riayət olunmasına nəzarət edir və bu məqsədlə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlamalar aparır.

33.2. Digər dövlətdə qeydiyyatda olan istismarçılar tərəfindən istismar edilən hava gəmilərinə uçuşların təhlükəsizliyi ilə bağlı nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

33.3. Bu Qanunun 33.2-ci maddəsində qeyd edilmiş istismarçıların hava gəmilərinə nəzarət zamanı uçuşların təhlükəsizliyinə təhdid yaradan hər hansı hal aşkar edildikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən onların uçuşuna, o cümlədən digər dövlətin istismarçısı tərəfindən Azərbaycan Respublikasının hava məkanından istifadəyə məhdudiyyət və ya qadağa qoyulur.

**Maddə 34. Müntəzəm və qeyri-müntəzəm hava əlaqələrinin həyata keçirilməsi**

34.1. İstismarçı sertifikatının sahibi müntəzəm və (və ya) qeyri-müntəzəm beynəlxalq və daxili hava əlaqələrini (reysləri) bu Qanunun 7.1-7.3-cü maddələrində nəzərdə tutulmuş icazə əsasında həyata keçirir.

34.2. Digər dövlətdə istismarçı sertifikatı almış istismarçı bu Qanunun 7.1-ci və 7.2-ci maddələrində nəzərdə tutulmuş icazə əsasında müntəzəm və qeyri-müntəzəm (çarter) hava əlaqələrini yerinə yetirmək hüququna malikdir. Müntəzəm hava əlaqələrinin həyata keçirilməsi zamanı icazə ilə yanaşı, hava əlaqələrinə tətbiq edilən şərtlər barədə yazılı göstərişlər verilir və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən tariflər və hava əlaqələri planı təsdiq edilir.

**Maddə 35. Hava əlaqələrinin yerinə yetirilməsi üçün verilən icazələrin ləğv edilməsi**

35.1. Müntəzəm və qeyri-müntəzəm (çarter) hava əlaqələrini həyata keçirmək üçün verilən icazələr aşağıdakı hallarda ləğv edilir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) qaytarılır:

35.1.1. icazənin sahibi tərəfindən müvafiq ərizə təqdim edildikdə;

35.1.2. icazənin müddəti bitdikdə;

35.1.3. icazənin sahibi olan hüquqi şəxs, xarici hüquqi şəxsin filialı, nümayəndəliyi ləğv edildikdə;

35.1.4. icazənin sahibi olan fiziki şəxsin fərdi sahibkar kimi fəaliyyətinə xitam verildikdə;

35.1.5. məhkəmənin qanuni qüvvəyə minmiş müvafiq qərarı olduqda;

35.1.6. icazənin verilməsi üçün təqdim edilmiş sənədlərdə sonralar düzgün olmayan məlumatlar aşkar edildikdə;

35.1.7. icazənin müəyyən edilmiş şərtləri onun sahibi tərəfindən pozulduqda və ya yerinə yetirilmədikdə;

35.1.8. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müfəttiş yoxlamalarının nəticələrindən asılı olaraq müəyyən etdiyi müddətdə aşkar olunmuş nöqsanlar aradan qaldırılmadıqda;

35.1.9. istismarçı sertifikatının müddəti bitdikdə.

**Maddə 36. Uçuş əməliyyatlarına dair ümumi tələblər**

36.1. Uçuş əməliyyatları pilot şəhadətnaməsinə və hava gəmisinin növünə uyğun olaraq müvafiq ixtisas qeydlərini təsdiqləyən icazəyə malik uçuş heyəti tərəfindən həyata keçirilir.

36.2. Uçuş əməliyyatları uçuşun həyata keçirildiyi ərazilərə, istifadə olunması planlaşdırılan aerodromlara və aeronaviqasiya avadanlığına dair xüsusi biliyə malik və hazırlıq keçmiş uçuş heyəti tərəfindən uçuş əməliyyatlarına dair təlimatlara və prosedurlara uyğun olaraq həyata keçirilir.

36.3. Uçuşların təhlükəsizliyinə, əmlaka, ətraf mühitə, insanların həyat və sağlamlığına təhlükə yarada bilən təhlükəli yüklərin, hərbi silah və sursatların normativ hüquqi aktlarla müəyyən edilmiş daşınma qaydalarına əməl edilmədən daşınması qadağandır.

36.4. Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatlar qorunub saxlanmalı və kənar müdaxilədən mühafizə edilməlidir. Uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatlar üzrə qeydlər, səs yazıları, sənədlərin qorunub saxlanılması və kənar müdaxilədən mühafizə edilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

36.5. Təlim və sınaq uçuşları istisna olmaqla, uçuş zamanı sistemlərin, mühərrikin və avadanlığın sıradan çıxması hallarının imitasiya edilməsi qadağandır.

**Maddə 37. Uçuş əməliyyatlarına dair xüsusi tələblər**

37.1. Hava gəmisinin istismarçısı xüsusi şəraitlərdə uçuş əməliyyatlarının həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) icazə alır.

37.2. Xüsusi şəraitlərdə uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə uçuş əməliyyatlarının təşkilinə dair tələblərə riayət edilir.

37.3. Qeyri-kommersiya məqsədilə istismar olunan və güc qurğusu ilə hərəkətə gətirilən hava gəmiləri, habelə fərqli tipli hava gəmiləri ilə həyata keçirilən hava gəmisinin nümayiş etdirilməsi, uçuş əməliyyatının qiymətləndirilməsi, hava gəmisinin müqavilə üzrə digər dövlətə aparılması, uçuşa yararlı olmayan hava gəmisinin uçuşuna icazə verilməsi, hava gəmisinə göstərilən texniki xidmətin nəticələrinin yoxlanılması, təlim uçuşları və digər qeyri-kommersiya məqsədli uçuş əməliyyatları bu Qanunun 37.6-cı maddəsində nəzərdə tutulan qaydalara riayət edilməklə həyata keçirilir.

37.4. Hava gəmisinin kənd təsərrüfatı, tikinti, fotoçəkiliş, axtarış, araşdırma, reklam və bu kimi digər xüsusi xarakterli aviasiya fəaliyyəti ilə bağlı uçuş əməliyyatları üçün istismar edilməsi bu Qanunun 37.6-cı maddəsində nəzərdə tutulan qaydalara riayət edilməklə həyata keçirilir.

37.5. Uçuş əməliyyatlarının bu Qanunun 37.1-37.4-cü maddələrində müəyyən edilmiş tələblərə uyğun yerinə yetirilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

37.6. Bu Qanunun 37.3-37.5-ci maddələrində nəzərdə tutulmuş uçuş əməliyyatları, o cümlədən xüsusi şəraitlərdə uçuş əməliyyatlarının həyata keçirilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

**Maddə 38. Uçuş əməliyyatlarına hazırlıq**

Uçuş əməliyyatlarına hazırlıq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 39. Beynəlxalq uçuşlar**

39.1. Azərbaycan Respublikasının hava məkanında beynəlxalq uçuşlar beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəaları nəzərə alınmaqla həyata keçirilir.

39.2. Hava gəmilərinin həyata keçirdiyi beynəlxalq uçuşlara, habelə beynəlxalq hava limanlarına və aerodromlara, beynəlxalq hava yollarına və aeronaviqasiyaya dair məlumatlar Aeronaviqasiya Məlumatlar Toplusunda dərc edilir.

39.3. Hava gəmilərinin beynəlxalq uçuş əməliyyatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 40. Məşq uçuşları və xüsusi xarakterli aviasiya fəaliyyəti ilə bağlı uçuşlar**

Məşq uçuşları və xüsusi xarakterli aviasiya fəaliyyəti ilə bağlı uçuşlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya uyğun olaraq həyata keçirilir.

**Maddə 41. Uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsi**

41.1. Mülki hava gəmilərinin istismarı zamanı uçuşların təhlükəsizliyinin yüksək səviyyəsinin təmin edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş, lakin başqa dövlətin istismarçısı tərəfindən istismar edilən hava gəmisinə, habelə digər dövlətdə qeydiyyatda olan, lakin Azərbaycan Respublikasının istismarçısı tərəfindən istismar edilən hava gəmisinə münasibətdə uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsi barədə həmin qeydiyyat dövləti ilə "Azərbaycan Respublikasının beynəlxalq müqavilələrin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq beynəlxalq müqavilələr bağlamaq hüququna malikdir.

41.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 41.1-ci maddəsində nəzərdə tutulan müqavilələrin bağlanılması barədə Beynəlxalq Mülki Aviasiya Təşkilatına məlumat verir.

41.3. Uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 42. Mülki aviasiya sahəsində sığorta tələbləri**

42.1. Hava gəmilərini və onların istismarı ilə əlaqədar vurulan zərərə görə qanunda müəyyən edilmiş qaydada öz məsuliyyətini sığortalamayan istismarçının hava gəmisindən istifadə etməsinə yol verilmir.

42.2. Digər dövlətlərdən Azərbaycan Respublikasına, Azərbaycan Respublikasından digər dövlətlərə və ya Azərbaycan Respublikasının ərazisində uçuşları həyata keçirən bütün istismarçıların hava gəmisindən uçuş məqsədilə istifadə nəticəsində, habelə xidmət təminatçıları tərəfindən aviasiya fəaliyyəti zamanı vurulan zərərə görə müvafiq olaraq aşağıdakıların sığorta etdirilməsi tələb olunur:

42.2.1. hava gəmisinin əmlak qismində sığortalanması;

42.2.2. hava gəmisinin bortunda uçuş, təlim-məşq və yoxlama aparılması zamanı hava gəmisinin heyətinin, habelə hava gəmisinin bortuna daxil olmağa icazəsi olan digər şəxslərin həyat və sağlamlığına vurulan zərərə görə məsuliyyət;

42.2.3. hava gəmisinin sərnişinlərinin həyatına və sağlamlığına, yaxud hava gəmisinin bortundakı əmlakına vurulan zərərə görə məsuliyyət;

42.2.4. yükgöndərənin və ya yükalanın hava gəmisinin bortundakı əmlakına vurulan zərərə görə məsuliyyət;

42.2.5. üçüncü şəxslərin həyat və sağlamlığına, yaxud əmlakına vurulan zərərə görə məsuliyyət;

42.2.6. aviasiya personalının və xidmət təminatçılarının peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi ilə bağlı dəyən zərərə görə məsuliyyət.

42.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə fərqli qaydalar müəyyən edildiyi hallar istisna olmaqla:

42.3.1. Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış, habelə Azərbaycan Respublikasının fiziki və hüquqi şəxslərinin istismar etdiyi digər dövlətə məxsus olan hava gəmisinin heyəti əmək funksiyalarının icrası zamanı bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa;

42.3.2. bu Qanunun 42.3.1-ci maddəsində göstərilən hava gəmiləri ilə Azərbaycan Respublikasının ərazisində, həmçinin xarici ölkələrə və ya xarici ölkələrdən daşınan sərnişinlər fərdi qəza sığortası üzrə "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari qaydada sığorta edilirlər.

**10-cu fəsil**
**AVİASİYADA TƏHLÜKƏSİZLİK**

**Maddə 43. Aviasiya təhlükəsizliyi**

43.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) mülki aviasiyanın qanunsuz müdaxilə aktlarından qorunması sahəsində dövlət proqramını qəbul edir.

43.2. Bu Qanunun 43.1-ci maddəsində nəzərdə tutulan dövlət proqramına uyğun olaraq hava limanları istismarçıları, hava gəmilərinin istismarçıları və hava hərəkəti xidmətlərini təmin edən təchizatçılar aviasiya təhlükəsizliyi proqramlarını tərtib edirlər.

43.3. Xidmət təminatçısı sertifikatını almaq üçün xidmət təminatçıları aviasiya təhlükəsizliyi proqramına malik olmalıdırlar.

43.4. Hava limanları istismarçılarının, hava gəmisi istismarçılarının və hava hərəkəti xidmətlərini təmin edən təchizatçılarının aviasiya təhlükəsizliyi proqramları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir və bu proqramlarda edilən dəyişikliklər həmin orqanla (qurumla) razılaşdırılır.

43.5. Xidmət təminatçılarının vəzifəli şəxsləri aviasiya təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsinə, xidmətlərin göstərilməsinə, təhlükəsizliyin təmin edilməsi üçün avadanlıq və vasitələrin olmasına görə cavabdehdirlər.

43.6. Azərbaycan Respublikasının qanunlarında və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən hava gəmisində daşınması qadağan edilən əşya və maddələrin siyahısı hava limanlarının sərnişin və yük terminallarında sərnişinlər üçün aydın görünən yerlərdə xüsusi lövhələrdə yerləşdirilir.

43.7. Aviasiya təhlükəsizliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müfəttiş heyəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada təlim keçməlidir.

**Maddə 44. Uçuşların təhlükəsizliyi**

44.1. Beynəlxalq standartlar və tövsiyə olunan təcrübəyə uyğun olaraq, hava nəqliyyatında şəxsin həyat və sağlamlığına və ya əmlakına ziyan vurulması riskinin məqbul həddə qədər azaldılması, təhlükə mənbələrinin aşkarlanmasını, risklərə daimi nəzarət vasitəsilə onların bu səviyyədə və ya daha aşağı səviyyədə saxlanılmasının təmini sahəsində siyasəti, məqsədləri və resursları müəyyən etmək, habelə uçuşların təhlükəsizliyini təşviq etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) uçuşların təhlükəsizliyi üzrə dövlət proqramını qəbul edir.

44.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) risklərin qiymətləndirilməsi və məqbul həddə qədər azaldılması məqsədilə uçuşların təhlükəsizliyi üzrə planı təsdiq edir.

44.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) uçuşların təhlükəsizliyi üzrə dövlət proqramının məqsədlərini və həmin sahədə fəaliyyətin həcmini nəzərə alaraq, uçuşların təhlükəsizliyinin məqbul hesab edilən həddini müəyyən edir.

44.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) hava gəmisinin istismarçıları, aerodrom istismarçıları, hava gəmisinin istismarçılarına xidmət göstərən texniki xidmət təşkilatları, o cümlədən hava hərəkəti xidmətlərini təmin edən təchizatçıdan uçuşların təhlükəsizliyinin idarə edilməsi sisteminin yaradılmasını və fəaliyyətinin təmin edilməsini tələb edir.

44.5. Hava gəmisinin istismarçıları, aerodrom istismarçıları, hava gəmisinin istismarçılarına xidmət göstərən texniki xidmət təşkilatları, o cümlədən hava hərəkəti xidmətlərini təmin edən təchizatçı uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində aşkar edilmiş problemlərə dair məlumatları müntəzəm olaraq təhlil edir və onların aradan qaldırılması üçün tədbirlər görürlər.

44.6. Uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müfəttiş heyəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada təlim keçməlidir.

**Maddə 45. Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi**

45.1. Beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğun olaraq hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində siyasəti, məqsədləri və resursları müəyyən etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair dövlət proqramını qəbul edir.

45.2. Bu Qanunun 45.1-ci maddəsində nəzərdə tutulan dövlət proqramına uyğun olaraq hər bir hava limanı hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqram tərtib edir.

45.3. Beynəlxalq hava limanı sertifikatını almaq üçün hava limanı hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqrama malik olmalıdır.

45.4. Hava limanı üçün hava limanlarının tərtib etdikləri hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqram, həmin proqramda dəyişikliklər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

45.5. Hava limanının və orada təmsil olunan aidiyyəti dövlət orqanlarının (qurumlarının) vəzifəli şəxsləri hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair tədbirlərin həyata keçirilməsinə, xidmətlərin göstərilməsinə, zəruri avadanlıq və vasitələrin olmasına görə cavabdehdirlər.

**Maddə 46. Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikasının ərazisini tərk edəcək hava gəmisinin sərnişin və heyət üzvləri barədə ilkin məlumatların və sərnişin adlarının qeydiyyat məlumatlarının mübadiləsinə və qorunmasına dair tələblər**

46.1. Hava gəmilərinin istismarçıları tərəfindən hava gəmisinin sərnişin və heyət üzvlərinə dair ilkin məlumatlar və sərnişin adlarının qeydiyyat məlumatları sərnişin məlumatlarına dair "bir pəncərə" sistemi vasitəsilə real vaxt rejimində elektron formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) ötürülür.

46.2. Hava gəmilərinin istismarçıları tərəfindən sərnişin məlumatlarına dair "bir pəncərə" sisteminə ötürülən sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyat məlumatlarının siyahısı, verilməsi, qəbul edilməsi, saxlanılması və digər dövlət orqanları (qurumları) ilə mübadilə edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

46.3. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikasının ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və heyət üzvləri haqqında məlumatlar "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qorunur.

**Maddə 47. Təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınmasına dair tələblər**

47.1. Azərbaycan Respublikasının ərazisinə və ərazisindən təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınmasını həyata keçirmək istəyən istismarçılar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) icazə alırlar.

*Ardı 12-ci səh.*

# Aviasiya haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 11-ci səh.*

47.2. Bu Qanunun 47.1-ci maddəsində nəzərdə tutulmuş fəaliyyəti həyata keçirmək üçün xarici dövlətdə müvafiq icazə almış xarici dövlətlərin istismarçıları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) həmin icazənin tanınması üçün müraciət edirlər.

47.3. İstismarçı sertifikatına malik istismarçılar həmin sertifikatda təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınmasına dair qeyd olduqda bu fəaliyyətlə məşğul ola bilərlər.

47.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təhlükəli yüklərin mülki hava gəmilərində daşınması qaydalarını müəyyən edir. "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş təhlükəli yüklər də nəzərə alınmaqla, beynəlxalq texniki tələblərə (şərtlərə) uyğun olaraq, təhlükəli yüklərin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir və mütəmadi olaraq yenilənir.

47.5. Bu Qanunun 47.4-cü maddəsində nəzərdə tutulan qaydaya uyğun olaraq təsnifləşdirilməyən, sənədləşdirilməyən, sertifikatlaşdırılmayan, qablaşdırılmayan, markalanma nişanı olmayan və işarələnməyən təhlükəli yüklərin mülki hava gəmiləri ilə daşınmasına yol verilmir.

47.6. Hərbi avadanlığın (ləvazimatların), hərbi avadanlıq (ləvazimatlar) hesab edilməyən təhlükə potensiallı, o cümlədən xüsusilə təhlükəli yüklərin (malların) mülki və eksperimental hava gəmiləri ilə daşınmasına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən icazə verilir. Mülki və eksperimental hava gəmilərində daşınmasına icazə verilən hərbi avadanlığın (ləvazimatların) siyahısını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

47.7. Təhlükəli yüklərin hava yolu ilə daşınmasında iştirak edən personal müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada təhlükəli yüklərin daşınması ilə bağlı hazırlıq keçməlidir.

47.8. "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 2-ci hissəsinin 2.2-ci bəndində nəzərdə tutulan ekoloji təhlükə yaradan maddələrin hava yolu ilə daşınmasına yol verilmir.

47.9. Hava gəmisində daşınmasına icazə verilən birbirinə təsir edə biləcək təhlükəli yüklərin daşındığı yük vahidlərinin yaxın məsafədə və ya sızma nəticəsində qarşılıqlı təsirə səbəb ola biləcək vəziyyətdə yerləşdirilməsinə yol verilmir.

47.10. Hava gəmisinin sərnişin salonunda, yük və baqaj bölmələrində daşınmasına yol verilən təhlükəli yüklərin siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

47.11. Uçuşların təhlükəsizliyinə və ya aviasiya təhlükəsizliyinin təmin edilməsinə təhdid yarandığı hallarda təhlükəli yüklərin daşınmasını həyata keçirən hava gəmisinin uçuşuna müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qadağa qoyulur.

### 11-ci fəsil
### HAVADAŞIMALARI

**Maddə 48. Hava daşımalarının tənzimlənməsi**

48.1. Hava daşımaları Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq bağlanılan sərnişin və ya yük daşıma müqavilələri əsasında həyata keçirilir. Hava daşımaları üzrə sərnişin və ya yük daşıma müqavilələrinin rəsmiləşdirilməsi, daşıma sənədlərinin forması və tərtib edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

48.2. Sərnişin daşıması müqaviləsinə görə daşıyıcı sərnişini (sərnişin tərəfindən baqaj daşındığı halda həmçinin baqajını) yola düşmə yerindən təyinat yerinə çatdırmağı, sərnişin isə daşımanın dəyərini ödəməyi öhdəsinə götürür.

48.3. Yük daşıması müqaviləsinə görə daşıyıcı yükü, poçt göndərişlərini haqq müqabilində olduğu yerdən təyinat yerinə daşımağı, yükgöndərən, yükü alan və ya onların səlahiyyətləndirdiyi digər şəxs isə hava daşımasının dəyərini ödəməyi öhdəsinə götürür.

48.4. Kommersiya hava daşımalarını, sərnişinlərə xidmət göstərilməsini həyata keçirən hüquqi şəxslər və fərdi sahibkarlar sərnişin, baqaj, yük və poçt göndərişlərinin hava daşımalarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya uyğun həyata keçirirlər.

48.5. Hava gəmisinin istismarçısı uçuşların təhlükəsizliyinin və ya aviasiya təhlükəsizliyinin məqbul səviyyəsinin təmin edilməsi məqsədilə aviasiya sahəsində müvafiq normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun olaraq və mülki aviasiyanın fəaliyyətinə mümkün təhdid yarandıqda, sərnişini, baqajı və ya yükü hava gəmisində daşınmaya qəbul etməkdən imtina etmək hüququna malikdir.

48.6. Daşıyıcı bu Qanuna və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına zidd olmayan hava daşımaları üzrə daxili qaydaları müəyyənləşdirir.

48.7. Hava daşımaları hava gəmisinin icarəsi yolu ilə həyata keçirilə bilər. Sərnişin, baqaj, yük və ya poçt göndərişlərinin hava daşıması üçün icarəyə verən tərəf tam və ya qismən bir və ya bir neçə reys üçün hava gəmisinin icarəsi haqqında müqavilə üzrə bir və ya bir neçə hava gəmisini icarəçiyə verməyi, icarəçi isə müəyyənləşdirilmiş icarə haqqını ödəməyi öhdəsinə götürür.

**Maddə 49. Hava daşımaları üçün tələb olunan sənədlər**

49.1. Sərnişin daşıması daşıyıcı tərəfindən kağız və ya elektron formada (elektron daşıma sənədi) rəsmiləşdirilən sərnişin bileti (sərnişin tərəfindən baqaj daşındığı halda həmçinin baqaj qəbzi) əsasında həyata keçirilir.

49.2. Yük daşıma müqaviləsinə uyğun olaraq yükgöndərənin və ya daşıyıcının kağız və ya elektron formada (elektron daşıma sənədi) rəsmiləşdirdiyi yük və ya poçt göndərişləri müvafiq olaraq yük qaiməsi və ya poçt qəbzi əsasında daşınır.

49.3. Daşıma sənədlərinə, həmçinin sərnişinlərin, baqajın, yükün, poçt göndərişlərinin hava daşıması üzrə xidmətlərin göstərilməsi zamanı istifadə olunan və siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən sənədlər aiddir.

49.4. Sərnişin biletinin, baqaj qəbzinin, yük qaiməsinin və ya poçt qəbzinin kağız daşıyıcıda olmaması və ya düzgün doldurulmaması daşıma müqaviləsinin etibarlılığına təsir göstərmir.

49.5. Sərnişin bileti, yük qaiməsi, baqaj və poçt qəbzi daşıma müqaviləsinin bağlanılmasını sübut edən və müqavilədə nəzərdə tutulmuş hava daşıma şərtlərini əks etdirən sənədlərdir.

49.6. Sərnişin, baqaj, yük və poçt göndərişlərinin hava daşıması üzrə xidmətlər göstərilərkən müvafiq olaraq istifadə olunan bilet, baqaj qəbzi, yük qaiməsi, poçt qəbzi və bu Qanunun 49.3-cü maddəsində müəyyən edilmiş digər sənədlər elektron formada (elektron daşıma sənədi) rəsmiləşdirilir və hava daşıma müqaviləsinin şərtləri barədə məlumat hava daşımalarının rəsmiləşdirilməsi üzrə avtomatlaşdırılmış məlumat sistemində yerləşdirilir.

49.7. Sərnişinin hava daşıması üçün elektron daşıma sənədi rəsmiləşdirildiyi təqdirdə hava daşıma müqaviləsi bağlanılan zaman və ya sərnişin qeydiyyatdan keçərkən hava daşımalarının rəsmiləşdirilməsi üzrə avtomatlaşdırılmış məlumat sistemindən müvafiq hava daşıması müqaviləsinin şərtlərini əks etdirən təsdiq edilmiş çıxarışı sərnişin tələb etmək hüququna malikdir. Həmin çıxarışı daşıyıcı və ya daşıyıcı ilə müqavilə əsasında fəaliyyət göstərən şəxs təqdim edir.

49.8. Yükün, poçt göndərişinin daşınması üçün elektron daşıma sənədi rəsmiləşdirildiyi təqdirdə daşıyıcı yükgöndərənin tələbi ilə yükün, poçt göndərişinin identifikasiyasına imkan verən və yük, poçt daşıması barədə elektron daşıma sənədindəki məlumatları ehtiva edən yük və poçt göndərişinin daşınması üçün müvafiq olaraq qaimə və qəbz verir.

**Maddə 50. Sərnişin daşıması müqaviləsinin daşıma başlayanadək ləğvi və sərnişin daşımaları zamanı qarşısıalınmaz qüvvə**

50.1. Hava daşıması başlayanadək istənilən vaxt sərnişin daşıma müqaviləsini ləğv edə bilər.

50.2. Sərnişin hava daşımasından imtina etdiyi təqdirdə hava daşıması üçün ödənilmiş daşıma haqqının geri qaytarılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydaya uyğun olaraq həyata keçirilir.

**Maddə 51. Yükgöndərən, yükalan və daşıyıcı**

51.1. Yükgöndərən hava daşımasının təşəbbüsçüsü olan və adından yük göndərilməsi rəsmiləşdirilən fiziki və ya hüquqi şəxsdir. Yükalan əqdəsasında yüklərin alınmasına səlahiyyətli fiziki və ya hüquqi şəxsdir.

51.2. Daşıyıcı müqavilə əsasında və haqq müqabilində yükün olduğu yerdən təyinat yerinə daşınmasını həyata keçirən və mülkiyyət, icarə və ya istifadə hüququ ilə hava nəqliyyatı vasitəsinə malik olan fiziki və ya hüquqi şəxsdir.

**Maddə 52. Yükün qablaşdırılması**

52.1.Yükgöndərən yükün lazımınca qablaşdırılmasını təmin etməlidir. Qablaşdırmanın zahirən görünməyən qüsurları üçün yükgöndərən məsuliyyət daşıyır.

52.2. Daşıyıcı yükü daşımaya qeyd-şərtsiz qəbul etdiyi halda mövcud olmuş zahirən görünən qüsurların nəticələri üçün məsuliyyət daşıyır.

**Maddə 53. Yükdaşıyıcının məsuliyyəti**

53.1. Yükün itirildiyi və ya məhv olduğu halda daşıyıcı onun tam dəyərini ödəyir. Əgər yükdaşıyıcı tərəfindən daşımaya qəbul edildikdən sonra 3 (üç) ay ərzində çatdırılmazsa, əksi sübut edilənədək itirilmiş sayılır.

53.2. Bundan başqa, daşıyıcı çatdırmanın gecikdirilməsi və ya yükün zədələnməsi və ya qismən məhv olması ilə bağlı bütün zərər üçün məsuliyyət daşıyır.

53.3. Əgər daşıyıcı yükün itirilməsinin və ya məhvinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 859.3-cü maddəsində göstərilən hallarda baş verdiyini sübuta yetirərsə, bu Qanunun 53.1-ci və 53.2-ci maddələrində nəzərdə tutulan məsuliyyət tətbiq edilmir.

53.4. Daşıyıcı daşımanı tamamilə və ya qismən başqa daşıyıcının vasitəsilə həyata keçirdiyi halda da məsuliyyət daşıyır. Onun daşıma üçün yükü verdiyi daşıyıcıya qarşı reqres hüququ saxlanılır.

53.5. Daşıyıcıya qarşı bütün iddialar yük qeyd-şərtsiz qəbul edildikdən və yükün daşınmasına görə daşıma haqqı ödənildikdən sonra yarana bilər.

**Maddə 54. Hava daşımalarına görə tariflər**

54.1. Daxili hava daşımalarına görə tariflər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

54.2. Beynəlxalq hava daşımalarına görə tariflər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq müəyyən edilir. Beynəlxalq müqavilə olmadıqda isə tariflər müqavilə əsasında müəyyənləşdirilir.

### 12-ci fəsil
### HAVA MƏKANINDAN İSTİFADƏ, UÇUŞ QAYDALARI, HAVA HƏRƏKƏTİNƏ XİDMƏT

**Maddə 55. Azərbaycan Respublikasının hava məkanından istifadənin məhdudlaşdırılması**

55.1. Mülki və ya dövlət aviasiyası sahəsində dövlət nəzarətini və tənzimlənməsini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müdafiə qabiliyyətinə, ictimai qaydalara və milli təhlükəsizliyə təhlükə yaradan səbəblərə görə ümumi hava hərəkətini hava məkanının müəyyən hissəsində və ya bütün hava məkanında məhdudlaşdırmaq və ya hava məkanının istifadəsinə müvəqqəti qadağa qoymaq hüququna malikdir.

55.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dövlət mənafelərini nəzərə alaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təkliflərinə əsasən hava məkanının konkret hissələrini mülki aviasiya üçün qadağan olunmuş və ya məhdudlaşdırılmış zona kimi müəyyən edə bilər. Belə qadağa və məhdudiyyətlər onların tətbiqi üçün əsas olan hallar aradan qaldırıldıqda ləğv edilir.

**Maddə 56. Hava məkanından istifadə və uçuş qaydaları**

56.1. Azərbaycan Respublikasında uçuşların təhlükəsiz, səmərəli və müntəzəm həyata keçirilməsi üçün hava məkanı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən beynəlxalq və ölkədaxili tələblərə uyğun olaraq təşkil edilir, bölgüsü aparılır və nəzarətdə saxlanılır.

56.2. Uçuş əməliyyatları üçün istifadə edilməzdən əvvəl hava məkanının strukturları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada layihələndirilir.

56.3. Uçuş məlumat rayonu elə qaydada bölünür ki, bu, rayonlar tərəfindən xidmət göstərilən bütün hava marşrutlarının strukturunu əhatə etsin.

56.4. Azərbaycan Respublikasının uçuş məlumat rayonu beynəlxalq aeronaviqasiya xidmətləri üzrə Beynəlxalq Mülki Aviasiya Təşkilatının standartlarına uyğun olaraq Azərbaycan Respublikasına ötürülmüş və Beynəlxalq Mülki Aviasiya Təşkilatı tərəfindən təsdiq edilmiş sərhədlərə malikdir.

56.5. Hava məkanından istifadə və uçuş qaydalarını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

56.6. Dövlət aviasiyası üçün uçuş əməliyyatları digər dövlətlər, habelə mülki və eksperimental hava gəmilərinin uçuşları üçün təhlükə yaratmamaq şərtilə həyata keçirilir.

56.7. Hava məkanının mülki hava gəmilərinin hava hərəkətinə nəzarət edilən hissəsində dövlət aviasiyasına mənsub hava gəmiləri uçuşlar həyata keçirərkən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən ümumi hava hərəkəti qaydalarına riayət edirlər.

56.8. Azərbaycan Respublikasının hava məkanının hüdudlarında hava hərəkətini idarəetmə xidməti göstərilən müəyyən ölçülü hava məkanının təsnifatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qayda ilə tənzimlənir.

**Maddə 57. Hava hərəkətinə xidmət**

57.1. Azərbaycan Respublikasının hava məkanında (beynəlxalq və daxili uçuşlar) aviasiyanın bütün növlərinin hava hərəkətinə xidmət göstərilməsi zona (marşrut) üzrə idarəetmə formasında hava hərəkəti xidmətlərini təmin edən təchizatçı tərəfindən həyata keçirilir.

57.2. Müntəzəm beynəlxalq və ölkədaxili kommersiya reysləri üçün istifadə olunan aerodromlarda hava hərəkətini idarəetmə xidmətləri aerodrom dispetçer xidməti və yaxınlaşma dispetçer xidmətləri formasında göstərilir.

57.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) dövlət aviasiyası məqsədlərinin və ya uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla, istənilən aerodromun hava hərəkətinin idarəetməsini təşkil etmək hüququna malikdir.

57.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş hərbi uçuşlara xidmət göstərilən müəyyən hava məkanı istisna olmaqla, dinc dövrdə Azərbaycan Respublikasının hava məkanının hüdudlarında hava hərəkətinə xidmətlər mülki, eksperimental və dövlət hava gəmiləri üçün birgə göstərilir.

57.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) hava hərəkətinə xidmət vasitələrini beynəlxalq standartlara uyğun təşkil edir.

57.6. Hava hərəkətinə xidmət, o cümlədən meteoroloji xidmət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə hava hərəkəti xidmətlərini təmin edən xidmət təminatçıları tərəfindən həyata keçirilir. Uçuşların təhlükəsizliyinin meteoroloji təminatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada həyata keçirilir.

**Maddə 58. Hava hərəkəti xidmətlərini təmin edən təchizatçılar və sistemlərə dair ümumi tələblər**

58.1. Hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, habelə sistemlərin, onların tərkib hissələrinin layihələndirilməsinə, istehsalına və ya texniki xidmətinə cəlb olunan təşkilatlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada sertifikatlaşdırılır.

58.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş hava hərəkəti dispetçerinin şəhadətnaməsinə malik olmayan şəxs hava hərəkətinin dispetçeri kimi fəaliyyət göstərə bilməz.

58.3. Hava hərəkəti dispetçeri şəhadətnaməsinin verilməsi qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

58.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) hava hərəkətinə xidmətin, habelə xidmət vasitələrinin keyfiyyəti ilə əlaqədar müşahidə və yoxlamalar aparmaq hüququna malikdir.

58.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)hava hərəkəti xidmətlərini təmin edən təchizatçının zəruri aeronaviqasiya, rabitə vasitələri və avadanlığı ilə təchiz olunmasını, həmin vasitə və avadanlığın işlək vəziyyətdə saxlanılmasını təmin edir. Bu cür vasitələr və avadanlıqlardan istifadə etməklə xidmətlərin göstərilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə bu sahədə ixtisaslaşmış təşkilatlar tərəfindən həyata keçirilir.

58.6. Aeronaviqasiya informasiyası xidməti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir və beynəlxalq standart və tövsiyə edilən təcrübəyə uyğun olaraq göstərilir.

58.7. Aeronaviqasiya informasiya xidməti göstərən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) vəzifəli şəxsləri informasiyanın doğruluğuna və dəqiqliyinə, belə informasiyanın birbaşa daşıyıcısı olan fiziki və hüquqi şəxslər isə informasiyanın vaxtında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməsinə görə cavabdehdirlər.

### 13-cü fəsil
### MÜLKİ PİLOTSUZ UÇUŞ APARATLARI

**Maddə 59. Mülki pilotsuz uçuş aparatlarının layihələndirilməsinə və istehsalına dair tələblər**

59.1. Mülki pilotsuz uçuş aparatı aşağıdakı tələblər nəzərə alınmaqla layihələndirilir və istehsal olunur:

59.1.1. pilotsuz uçuş aparatı sistemləri əməliyyatının iştirakçısının, havada və yerdə olan pilotsuz uçuş aparatı sistemləri əməliyyatının iştirakçısı olmayan şəxslərin, o cümlədən mülkiyyətin təhlükəsizliyini təmin etməli;

59.1.2. istənilən uçuş şəraitində yarana biləcək risklərə mütənasib davamlılıq nümayiş etdirməli;

59.1.3. istismar olunduğu istənilən şəraitdə, həmçinin sistemlərin biri, yaxud bir neçəsində nasazlıq baş verdikdə təhlükəsiz idarə edilə bilən və manevr qabiliyyətinə malik olmalı;

59.1.4. onların mühərrikləri, pərləri, hissələri, quraşdırılmamış avadanlığının və məsafədən idarə edilməsi üçün avadanlığının bütün istismar şəraitlərində işlək olması, habelə hər hansı nasazlıq zamanı yerdə olan üçüncü şəxslərin və digər hava məkanı istifadəçilərinin təhlükəsizliyinə qarşı yarana biləcək riskləri azaltmalı;

59.1.5. pilotsuz uçuş aparatını məsafədən idarə etmək üçün nəzərdə tutulmuş avadanlıqları ilə uçuş əməliyyatlarını asanlaşdırmalı, habelə ehtimal olunan hər hansı vəziyyət və fövqəladə halların idarə edilməsini mümkün etməli.

**Maddə 60. Mülki pilotsuz uçuş aparatı sistemlərinin istismarına dair ümumi tələblər**

60.1. Mülki pilotsuz uçuş aparatının istismarına dair qaydalar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

60.2. Mülki pilotsuz uçuş aparatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanı (qurumu) tərəfindən qeydiyyata alınır.

60.3. Mülki pilotsuz uçuş aparatının istismarçısı həyata keçirilən uçuş əməliyyatına görə cavabdehdir və əməliyyatın təhlükəsizliyini təmin etməlidir.

60.4. Mülki pilotsuz uçuş aparatı yalnız uçuşa yararlı vəziyyətdə olduqda, habelə uçuşun həyata keçirilməsi üçün müvafiq avadanlıqlar və komponentlər mövcud olduqda onun istismarına yol verilir.

60.5. Açıq məkanda həyata keçirilən pilotsuz uçuş aparatı sistemlərinin əməliyyatları xüsusiyyətlərindən və potensial olaraq yarada biləcək risklərdən asılı olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada kateqoriyalara bölünür.

60.6. Mülki pilotsuz uçuş aparatının sisteminin əməliyyat iştirakçıları, o cümlədən məsafədən idarə edən pilotlar (operatorlar) həyata keçiriləcək əməliyyatların təhlükəsizliyini təmin etmək üçün zəruri olan və bu əməliyyatlardan irəli gələn risklərə uyğun olan biliyə və bacarıqlara malik olmalıdır.

60.7. Uçuş əməliyyatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş pilotsuz uçuş aparatı sistemi istismarçısı sertifikatına və əməliyyat icazəsinə malik istismarçı tərəfindən həyata keçirilir.

60.8. Model pilotsuz uçuş aparatı klubları və ya assosiasiyaları fəaliyyət göstərmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) icazə alırlar.

60.9. Məsafədən idarə edən pilotlar (operatorlar) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) şəhadətnamə alırlar.

60.10. Nəzarət olunan hava məkanında və aerodromyanı ərazidə mülki pilotsuz uçuş aparatı sistemlərinin əməliyyatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı mərkəzin icazəsi ilə həyata keçirilir.

60.11. Məsafədən idarə edən pilot (operator) əməliyyatın dayandırılması və ya dəyişdirilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılmış mərkəzin verdiyi göstərişi dərhal yerinə yetirir.

60.12. Mülki pilotsuz uçuş aparatı sisteminin istismarı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron portalı vasitəsilə həyata keçirilir.

**Maddə 61. Pilotsuz uçuş aparatlarına dair nəzarət və yoxlamaların aparılması**

61.1. Bu Qanunun 13-cü fəslində müəyyən edilmiş müddəaların yerinə yetirilməsinə nəzarəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həyata keçirir.

61.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) pilotsuz uçuş aparatı sistemlərinin istismarçısı sertifikatını və ya əməliyyat icazəsini əldə etmiş pilotsuz uçuş aparatı sistemlərinin istismarçıları tərəfindən bu Qanunun 13-cü fəslinin tələblərinə riayət olunmasına "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (sahibkarlıq subyektlərinə münasibətdə) və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş qaydada nəzarət edir.

61.3. Pilotsuz uçuş aparatlarının mülki dövriyyəsinə nəzarət "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununa və digər normativ hüquqi aktlara əsasən həyata keçirilir.

61.4. Azərbaycan Respublikasının hava məkanı hüdudlarında hava məkanından istifadənin planlaşdırılmasını və koordinasiyanı, hava hərəkətinin təşkilini, eləcə də hava hərəkətinin təşkilinə görə məsuliyyətin Azərbaycan Respublikasına həvalə olunduğu rayonlarda nəzarəti pilotsuz uçuş aparatının uçuşlarının idarə edilməsi və əlaqələndirilməsi mərkəzi həyata keçirir.

**Maddə 62. Coğrafi zonalar**

62.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi meyarlar əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən daimi və ya müvəqqəti coğrafi zonalar təyin edilir.

62.2. Coğrafi zona ilə bağlı qoyula bilən məhdudiyyətlər aşağıdakılardır:

62.2.1. pilotsuz uçuş aparatı sistemlərinin əməliyyatına dair əlavə şərtlər;

62.2.2. pilotsuz uçuş aparatı sistemlərinin texniki xüsusiyyətlərinə dair əlavə şərtlər.

62.3. Coğrafi zonalar və onlarla əlaqədar məhdudiyyətlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tərtib edilən, daimi yenilənən və bu Qanunun 60.12-ci maddəsində nəzərdə tutulan elektron portal vasitəsilə yayımlanan interaktiv xəritədə əks olunur.

**Maddə 63. Pilotsuz uçuş aparatı sistemlərinin istismarı sahəsində xidmətlərə və ya hüquqi hərəkətlərə görə xidmət haqqı**

63.1. Pilotsuz uçuş aparatı sistemləri sahəsində göstərilən xidmətlərə və ya hüquqi hərəkətlərə görə dövlət rüsumları "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müəyyən edilir.

63.2. Azərbaycan Respublikasının qanunlarına, beynəlxalq qayda və təcrübəyə uyğun olaraq uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə pilotsuz uçuş aparatı sistemlərinin istismarı sahəsində göstərilən müfəttiş xidmətlərinin və görülən işlərin qiymətləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

### 14-cü fəsil
### HAVA GƏMİLƏRİNİN İSTİSMARI İLƏ ƏLAQƏDAR VURULAN ZƏRƏRƏ GÖRƏ MƏSULİYYƏT

**Maddə 64. Hava gəmilərinin istismarı ilə əlaqədar vurulan zərərə görə məsuliyyət**

Hava gəmilərinin istismarı ilə əlaqədar vurulan zərərə (hava daşımaları ilə əlaqədar sərnişin, baqaj və ya yükə vurulan zərərə və hava gəmisinin istismarı zamanı hava gəmisi ilə daşınmayan üçüncü şəxslərə və ya onların əmlakına vurulan zərərə) görə məsuliyyətin əsasları və məsuliyyətə cəlb edilmə qaydası bu fəslin müddəaları nəzərə alınmaqla Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilir.

**Maddə 65. Hava daşımaları ilə əlaqədar sərnişinlərə, baqaja və yükə vurulan zərərə görə məsuliyyət**

65.1. Sərnişinin həyat və ya sağlamlığına dair zərərə səbəb olan hadisə hava gəmisində və ya sərnişinin hava gəmisinə minməsi, yaxud onu tərk etməsi zamanı baş vermişsə bununla bağlı dəymiş zərərin əvəzini ödəmək vəzifəsi hava nəqliyyatına mülkiyyət hüququ ilə və ya digər qanuni əsasla sahiblik edən istismarçının öhdəsinə qoyulur.

65.2. Sərnişinin xəsarət aldığı və ya onun sağlamlığının başqa şəkildə pozulduğu hallarda Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada sərnişinin çəkdiyi xərclərin əvəzi ödənilir.

65.3. Baqaj və ya yükün itirildiyi və ya məhv olduğu halda daşıyıcı onun tam dəyərini ödəyir. Baqaj və ya yük daşıyıcı tərəfindən daşımaya qəbul edildikdən sonra 3 (üç) ay ərzində çatdırılmazsa, əksi sübut edilənədək itirilmiş sayılır. Bundan başqa, daşıyıcı çatdırmanın gecikdirilməsi, zədələnmə və ya qismən məhv olma ilə bağlı bütün zərər üçün məsuliyyət daşıyır.

65.4. Daşıyıcı daşımanı tamamilə və ya qismən başqa daşıyıcının vasitəsilə həyata keçirdiyi halda da məsuliyyət daşıyır. Onun daşıma üçün yükü verdiyi daşıyıcıya qarşı reqres hüququ saxlanılır.

65.5. Baqaj və ya yük daşımaları beynəlxalq havadaşımalarında Azərbaycan Respublikasına mənsub olan daşıyıcılar tərəfindən onun bəyan edilmiş dəyəri ilə digər daşıyıcıya təqdim edilmişdirsə və daşıyıcı bəyan edilmiş dəyərin həqiqi zərər məbləğindən yüksək olduğunu sübut etməsə, məsuliyyət bəyan edilmiş dəyər həddində müəyyənləşdirilir.

65.6. Azərbaycan Respublikasının daxili daşımalarında Azərbaycan Respublikasına mənsub olan daşıyıcılar tərəfindən daşımaya qəbul edilən, dəyəri bəyan olunmadan qeydiyyata alınmış baqaja və ya yükə görə daşıyıcının məsuliyyəti baqajın və ya yükün həqiqi dəyəri miqdarında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi həddi aşmamaq şərtilə müəyyən edilir.

65.7. Baqajın və ya yükün bir hissəsinin itirildiyi, zədələndiyi, əskik gəldiyi, yaxud təyinat məntəqəsinə vaxtında çatdırılmadığı hallarda daşıyıcının məsuliyyətinin həcmi müəyyən edilərkən yalnız baqajın və ya yükün çəkisi nəzərə alınır. İçərisindəki əşyalar da daxil olmaqla, bağlamanın (bağlamaların) itirilməsi, zədələnməsi, əskik gəlməsi və ya təyinat yerinə vaxtında çatdırılmaması müvafiq baqaj qəbzinə, yük qaiməsinə və ya poçt qəbzinə daxil edilmiş digər bağlamaların və onların içərisindəkilərin dəyərinə təsir göstərdikdə məsuliyyət həcmi müəyyən edilərkən bütün bağlamaların ümumi çəkisi nəzərə alınır.

65.8. Daşıyıcı onun və ya qanunla müəyyən edilmiş qaydada təyin edilən nümayəndələrinin bu Qanunun 65.1-65.7-ci maddələrində qeyd olunan zərərin qarşısıalınmaz qüvvənin təsiri nəticəsində əmələ gəldiyini sübuta yetirərsə, məsuliyyətdən azad edilir.

65.9. Hava daşımaları ilə əlaqədar sərnişinlərə, baqaja və yükə vurulan zərərə görə kompensasiyanın hesablanması və ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 66. Hava gəmisində daşınmayan üçüncü şəxslərə və onların əmlakına vurulan zərərə görə məsuliyyət**

66.1. Hava gəmisinin istismarı ilə əlaqədar hava gəmisi ilə daşınmayan üçüncü şəxslərə və ya onların əmlakına vurulan zərərə görə hava gəmisinin istismarçısı maddi məsuliyyət daşıyır.

66.2. İstismarçı tərəfindən hava gəmisinin istismarı ilə əlaqədar hava gəmisi ilə daşınmayan üçüncü şəxslərə və ya onların əmlakına vurulan zərərin ödənişi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən qaydada həyata keçirilir.

### 15-ci fəsil
### YEKUN MÜDDƏALAR

**Maddə 67. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulmasına görə şəxslər qanunla müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 68. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun qüvvəyə mindiyi gündən "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2005-ci il 24 iyun tarixli 944-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 689; 2007, № 12, maddə 1218; 2009, № 12, maddə 948; 2011, № 3, maddə 169; 2015, № 1, maddə 10, № 2, maddə 95; 2016, № 10, maddə 1604; 2017, № 3, maddə 338, № 5, maddə 693; 2018, № 10, maddə 1960, № 12 (I kitab), maddə 2514; 2019, № 6, maddə 989; 2020, № 6, maddə 663) ləğv edilir.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

# "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.4-cü (hər iki halda), 1.1.6-cı, 1.1.64-cü, 1.1.66-cı, 1.1.68-ci, 1.1.70-ci, 1.1.75-ci, 1.1.80-ci, 1.1.81-ci maddələrində, 4.5-ci maddəsinin ikinci cümləsində, 6.3-cü, 7.1-ci maddələrində, 7.2-ci maddəsinin birinci cümləsində, 7.3-cü, 7.4-cü maddələrində, 7.5-ci maddəsinin birinci cümləsində, 7.6-cı maddəsində, 7.7-ci maddəsinin ikinci cümləsində, 8.1-ci, 8.2-ci (hər iki halda), 8.4-cü, 9.2-ci, 9.3-cü, 10.2-10.4-cü, 10.5-ci (hər iki halda) maddələrində, 10.6-cı maddəsinin birinci cümləsində, 10.7-ci, 10.9-10.11-ci maddələrində, 10.13-cü maddəsinin birinci və ikinci cümlələrində, 10.14-cü, 10.15-ci, 11.1-ci, 11.3-cü, 11.4-cü (hər iki halda), 11.5-ci (hər iki halda), 11.6-cı, 12.1-ci maddələrində, 12.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 13.1-ci (hər iki halda), 13.3-cü (hər iki halda), 14.1-ci, 14.2-ci, 15.2-ci, 15.3-cü, 16.1-16.4-cü, 17.1-ci, 17.4-cü, 17.5-ci, 17.7-17.10-cu, 18.2-ci, 18.6-cı, 18.7-ci, 19.2-ci, 21.3-cü, 21.4-cü maddələrində, 21.5-ci maddəsinin birinci cümləsində, 22.2-ci, 23.2-ci, 23.3-cü, 23.4-cü (hər iki halda), 23.5-ci, 23.6-cı maddələrində, 24.1-ci maddəsinin ikinci cümləsində, 24.2-24.4-cü maddələrində, 25.1-ci və 25.2-ci maddələrinin ikinci cümlələrində, 25.5-ci, 25.6-cı (hər iki halda), 25.7-ci, 25.8-ci, 26.1-ci, 26.2-ci maddələrində, 27.1-ci maddəsinin ikinci cümləsində, 27.4-cü, 28.4.2-ci (hər iki halda), 28.4.3-cü maddələrində, 29.1-29.4-cü maddələrinin ikinci cümlələrində (hər iki halda), 29.5-ci maddəsinin ikinci cümləsində, 29.6-cı, 30-cu maddələrində, 31.1-ci maddəsinin birinci cümləsində, 31.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 31.3-cü, 32.1-ci (hər iki halda), 32.2-ci, 33.1-ci, 33.2-ci (hər iki halda), 33.3-cü maddələrində, 35.1-ci maddəsinin birinci abzasında, 35.1.8-ci maddəsində, 36.4-cü maddəsinin ikinci cümləsində, 37.1-ci, 37.5-ci, 37.6-cı, 38-ci, 39.3-cü, 40-cı, 41.1-41.3-cü, 43.1-ci, 43.4-cü, 43.6-cı, 43.7-ci (hər iki halda), 44.1-44.4-cü, 44.6-cı (hər iki halda), 45.1-ci, 45.4-cü, 46.1-ci, 46.2-ci, 47.1-ci, 47.2-ci maddələrində, 47.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 47.6-cı maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 47.7-ci, 47.10-cu, 47.11-ci maddələrində, 48.1-ci maddəsinin ikinci cümləsində, 48.4-cü, 49.3-cü, 50.2-ci, 54.1-ci, 55.1-ci maddələrində, 55.2-ci maddəsinin birinci cümləsində (hər iki halda), 56.1-ci, 56.2-ci, 56.5-ci, 56.7-ci, 56.8-ci, 57.3-cü (hər iki halda), 57.4-cü, 57.5-ci maddələrində, 57.6-cı maddəsinin birinci və ikinci cümlələrində, 58.1-58.4-cü maddələrində, 58.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 58.6-cı, 58.7-ci (hər iki halda), 60.1-ci, 60.2-ci (hər iki halda), 60.5-ci, 60.7-60.12-ci, 61.1-ci, 61.2-ci, 62.1-ci (hər iki halda), 62.3-cü, 63.2-ci, 65.6-cı, 65.9-cu və 66.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 43.1-ci, 44.1-ci və 45.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 1.1.4-cü (birinci halda) maddəsində, 4.5-ci və 7.7-ci maddələrinin ikinci cümlələrində, 8.2-ci (birinci halda), 9.3-cü, 10.2-ci, 10.3-cü, 10.5-ci (birinci halda), 10.11-ci maddələrində, 10.13-cü maddəsinin birinci və ikinci cümlələrində, 11.1-ci, 11.4-cü (ikinci halda) maddələrində,12.3-cü maddəsinin ikinci cümləsində, 14.2-ci, 15.2-ci, 15.3-cü, 17.1-ci, 17.5-ci, 17.7-ci, 18.7-ci, 21.4-cü, 22.2-ci, 23.3-cü, 23.4-cü (ikinci halda), 23.6-cı, 24.3-cü, 24.4-cü maddələrində, 25.1-ci və 25.2-ci maddələrinin ikinci cümlələrində, 25.5-ci, 25.7-ci, 25.8-ci, 26.2-ci maddələrində, 27.1-ci maddəsinin ikinci cümləsində, 27.4-cü maddəsində, 29.1-29.4-cü maddələrinin ikinci cümlələrində (birinci halda), 29.5-ci maddəsinin ikinci cümləsində, 30-cu maddəsində, 31.2-ci maddəsinin ikinci cümləsində, 31.3-cü, 32.1-ci (birinci halda), 33.2-ci (birinci halda), 37.5-ci, 37.6-cı, 39.3-cü, 40-cı, 41.3-cü, 43.6-cı, 43.7-ci (ikinci halda), 44.6-cı (ikinci halda), 46.2-ci maddələrində, 47.4-cü maddəsinin birinci cümləsində, 47.6-cı maddəsinin birinci cümləsində (birinci halda) və ikinci cümləsində, 47.7-ci, 47.10-cu maddələrində, 48.1-ci maddəsinin ikinci cümləsində, 48.4-cü, 49.3-cü, 50.2-ci, 56.2-ci, 56.5-ci, 56.7-ci, 56.8-ci maddələrində, 57.6-cı maddəsinin ikinci cümləsində, 58.1-ci, 58.3-cü, 60.1-ci, 60.2-ci (birinci halda), 60.5-ci, 62.1-ci (birinci halda), 65.6-cı, 65.9-cu və 66.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Qanunun 1.1.70-ci və 46.1-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti nəzərdə tutulur;

1.5. həmin Qanunun 6.3-cü (mülki aviasiyaya münasibətdə) maddəsində, 24.1-ci maddəsinin ikinci cümləsində, 28.4.2-ci (birinci halda) maddəsində, 36.4-cü maddəsinin ikinci cümləsində, 38-ci, 41.1-ci maddələrində, 47.4-cü maddəsinin ikinci cümləsində və 55.1-ci (mülki aviasiyaya münasibətdə) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.6.həmin Qanunun 6.3-cü (dövlət aviasiyasına münasibətdə), 7.4-cü, 55.1-ci (dövlət aviasiyasına münasibətdə), 56.1-ci (dövlət aviasiyasına münasibətdə) və 57.3-cü (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi nəzərdə tutulur;

1.7. həmin Qanunun 7.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırmaqla) nəzərdə tutulur;

1.8. həmin Qanunun 9.2-ci və 54.1-ci maddələrində "orqan (qurum)" dedikdə, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.9. həmin Qanunun 10.4-cü, 10.5-ci (ikinci halda) maddələrində, 10.6-cı maddəsinin birinci cümləsində, 10.7-ci 10.14-cü, 10.15-ci və 11.5-ci (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə mülki hava limanlarına və ya aerodromlarına münasibətdə Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, hərbi hava limanlarına və ya aerodromlarına münasibətdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi nəzərdə tutulur;

1.10. həmin Qanunun 11.5-ci (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

1.11. həmin Qanunun 19.2-ci, 26.1-ci və 58.2-ci maddələrində "orqan (qurum)" dedikdə mülki aviasiyaya münasibətdə Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, dövlət aviasiyasına münasibətdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi nəzərdə tutulur;

1.12. həmin Qanunun 1.1.4-cü (ikinci halda), 1.1.6-cı, 1.1.75-ci, 1.1.80-ci, 1.1.81-ci, 7.1-ci maddələrində, 7.2-ci maddəsinin birinci cümləsində, 7.5-ci maddəsinin birinci cümləsində, 7.6-cı, 14.1-ci, 16.4-cü, 18.6-cı, 21.3-cü maddələrində, 21.5-ci maddəsinin birinci cümləsində, 23.2-ci, 23.4-cü (birinci halda), 23.5-ci, 24.2-ci, 25.6-cı (hər iki halda), 28.4.2-ci (ikinci halda), 28.4.3-cü maddələrində, 29.1-29.4-cü maddələrinin ikinci cümlələrində (ikinci halda), 29.6-cı maddəsində, 31.1-ci maddəsinin birinci cümləsində, 31.2-ci maddəsinin birinci cümləsində, 32.1-ci (ikinci halda), 32.2-ci, 33.1-ci, 33.2-ci (ikinci halda), 33.3-cü maddələrində, 35.1-ci maddəsinin birinci abzasında, 35.1.8-ci, 37.1-ci, 41.2-ci, 43.4-cü, 43.7-ci (birinci halda), 44.2-44.4-cü, 44.6-cı (birinci halda), 45.4-cü, 47.1-ci, 47.2-ci, 47.11-ci, 56.1-ci (mülki aviasiyaya münasibətdə), 57.3-cü (ikinci halda), 57.5-ci, 58.4-cü maddələrində, 58.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 58.6-cı və 58.7-ci (hər iki halda) maddələrində "orqan (qurum)" dedikdə Dövlət Mülki Aviasiya Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.3. həmin Qanunun 1.1.64-cü, 1.1.66-cı, 1.1.68-ci, 8.1-ci, 8.2-ci (ikinci halda), 8.4-cü, 10.9-cu, 10.10-cu, 11.3-cü, 11.4-cü (birinci halda), 11.6-cı, 12.1-cimaddələrində, 12.3-cü maddəsinin birinci cümləsində, 13.1-ci (hər iki halda), 13.3-cü (hər iki halda), 16.1-16.3-cü, 17.4-cü, 17.8-17.10-cu, 18.2-ci maddələrində, 47.6-cı maddəsinin birinci cümləsində (ikinci halda), 55.2-ci maddəsinin birinci cümləsində (hər iki halda), 57.4-cü maddəsində, 57.6-cı maddəsinin birinci cümləsində, 60.2-ci (ikinci halda), 60.7-60.12-ci, 61.1-ci, 61.2-ci, 62.1-ci (ikinci halda), 62.3-cü və 63.2-ci maddələrində nəzərdə tutulmuş "orqan (qurum)" barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.4. həmin Qanunun 6.3-cü maddəsinə uyğun olaraq, eksperimental aviasiya üzrə dövlət siyasətini, tənzimləməsini və nəzarəti həyata keçirən "orqan (qurum)" barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanunun 45.1-ci maddəsinə uyğun olaraq, hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair dövlət proqramı ilə bağlı təkliflərini hazırlayıb altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. aşağıdakı normativ hüquqi aktları doqquz ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.3.1. həmin Qanunun 1.1.4-cü və 11.1-ci maddələrinə uyğun olaraq, aerodromyanı ərazi hüdudlarında torpaq sahəsinin və daşınmaz əmlakın istifadəsinə, həmçinin həmin ərazidə iqtisadi və digər fəaliyyətin həyata keçirilməsinə uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə nəzarətin həyata keçirilməsi qaydasını;

2.3.2. həmin Qanunun 7.7-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, digər dövlətdə qeydiyyatda olan mülki hava gəmilərinin uçuşa və istismara yararlılığının təmin edilməsi, uçuş heyətinə və uçuş sənədlərinə dair tələblərin həyata keçirilməsi qaydasını;

2.3.3. həmin Qanunun 8.2-ci maddəsinə uyğun olaraq, uçuş qaydalarını pozan hava gəmisi yerə endirildikdən və pozuntunun səbəbləri aydınlaşdırıldıqdan sonra uçuşun davamına icazə verilməsi qaydasını;

2.3.4. həmin Qanunun 9.3-cü maddəsinə uyğun olaraq, xidmət təminatçıları tərəfindən göstərilən hava limanları xidmətlərinə və aeronaviqasiya xidmətlərinə görə yığımların məbləğinin hesablanması qaydasını;

2.3.5. həmin Qanunun 10.2-ci, 10.3-cü maddələrinə və 10.13-cü maddəsinin birinci cümləsinə uyğun olaraq, mülki hava limanları və (və ya) aerodromların istismara yararlılıq, aeronaviqasiya təchizatı və təminatı, təhlükəsizlik tələblərinin təminatı baxımından sertifikatlaşdırılması, hava limanlarına və (və ya) aerodromlara uyğunluq sertifikatının alınması, onların dövlət qeydiyyatına alınması qaydalarını;

2.3.6. həmin Qanunun 10.5-ci və 10.11-ci maddələrinə uyğun olaraq, hava limanları və (və ya) aerodromların layihələndirilməsi və istismarına dair tələbləri;

2.3.7. həmin Qanunun 11.4-cü maddəsinə uyğun olaraq, hava limanları və aerodromların təhlükəsizlik zonalarında binaların, qurğuların və obyektlərin yerləşdirilməsinə razılıq verilməsi qaydasını;

2.3.8. həmin Qanunun 12.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, aviasiyanın ətraf mühitə təsirinin azaldılması qaydasını;

2.3.9. həmin Qanunun 14.2-ci maddəsinə uyğun olaraq, helikopter meydançalarının layihələndirilməsinə, tikintisinə və texniki göstəricilərinə dair digər tələbləri;

2.3.10. həmin Qanunun 17.5-ci maddəsinə uyğun olaraq, aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın tərkibini və fəaliyyət qaydasını;

2.3.11. həmin Qanunun 21.4-cü maddəsinə uyğun olaraq, hava gəmilərinin dövlət qeydiyyatının və uçotunun aparılması, mülki hava gəmilərinin dövlət reyestrinə daxil edilməsi və çıxarılması qaydasını;

2.3.12. həmin Qanunun 23.3-cü, 23.4-cü və 23.6-cı maddələrinə uyğun olaraq, mülki hava gəmilərinə sertifikatların verilməsi, növ dizaynında dəyişiklik və ya onların təmiri, onların uçuşa yararlılıq və ətraf mühitin mühafizəsi üzrə tələblərin müəyyən olunması qaydalarını;

2.3.13. həmin Qanunun 24.3-cü maddəsinə uyğun olaraq, mülki hava gəmilərinə texniki xidmət göstərən təşkilatların sertifikatlaşdırılması qaydasını;

2.3.14. həmin Qanunun 24.4-cü maddəsinə uyğun olaraq, mülki hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılmasını idarə edən təşkilatların sertifikatlaşdırılması qaydasını;

2.3.15. həmin Qanunun 25.1-ci maddəsinin ikinci cümləsinə, 25.7-ci və 26.2-ci maddələrinə uyğun olaraq, aviasiya personalına şəhadətnamələrin, vəsiqələrin və ya sertifikatların verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması qaydalarını;

2.3.16. həmin Qanunun 25.8-ci, 27.4-cü və 30-cu maddələrinə uyğun olaraq, aviasiya personalının dövri olaraq ilkin və təkrar, nəzəri və praktiki testlərdən, psixoloji müayinələrdən keçirilməsi, peşəyə yararlılığını müəyyən edən tibb müəssisələrinin və onların əməkdaşlarının sertifikatlaşdırılması qaydalarını, habelə heyət üzvünün hava gəmisinin bortunda vəzifəsini icra etməsinə yol verməyən xəstəliklərin siyahısını;

2.3.17. həmin Qanunun 29.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, uçuş və kabinə heyətinə təlim keçən təşkilatlara, uçuş və kabinə heyətinin bilik və bacarıqlarını yoxlayan təlimçilərə sertifikatın verilməsi qaydasını;

2.3.18. həmin Qanunun 29.5-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, digər dövlətdə yerləşən aviasiya personalının hazırlığı ilə məşğul olan tədris-təlim mərkəzlərinin tanınması qaydasını;

2.3.19. həmin Qanunun 33.2-ci maddəsinə uyğun olaraq, digər dövlətdə qeydiyyatda olan istismarçılar tərəfindən istismar edilən hava gəmilərinə uçuşların təhlükəsizliyi ilə bağlı nəzarətin həyata keçirilməsi qaydasını;

2.3.20. həmin Qanunun 37.5-ci və 37.6-cı maddələrinə uyğun olaraq, uçuş əməliyyatlarının, o cümlədən xüsusi şəraitlərdə uçuş əməliyyatlarının və bu sahədə nəzarətin həyata keçirilməsi qaydasını;

2.3.21. həmin Qanunun 39.3-cü və 40-cı maddələrinə uyğun olaraq, hava gəmilərinin beynəlxalq uçuş əməliyyatlarının, məşq uçuşlarının və xüsusi xarakterli aviasiya fəaliyyəti ilə bağlı uçuşların həyata keçirilməsi qaydalarını;

2.3.22. həmin Qanunun 41.3-cü maddəsinə uyğun olaraq, uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsi qaydasını;

2.3.23. həmin Qanunun 43.6-cı maddəsinə uyğun olaraq, hava gəmisində daşınması qadağan edilən əşya və maddələrin siyahısını;

2.3.24. həmin Qanunun 43.7-ci və 44.6-cı maddələrinə uyğun olaraq, müfəttiş heyətinin aviasiya təhlükəsizliyinin təmin edilməsinə və ya uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı təlim keçmə qaydalarını;

2.3.25. həmin Qanunun 46.2-ci maddəsinə uyğun olaraq, hava gəmilərinin istismarçıları tərəfindən sərnişin məlumatlarına dair "bir pəncərə" sisteminə ötürülən sərnişinlər barədə ilkin məlumatlar və sərnişin adlarının qeydiyyat məlumatlarının siyahısı, verilməsi, qəbul edilməsi, saxlanılması və digər dövlət orqanları (qurumları) ilə mübadilə edilməsi qaydalarını;

2.3.26. həmin Qanunun 47.4-cü maddəsinin birinci cümləsinə uyğun olaraq, təhlükəli yüklərin mülki hava gəmilərində daşınması qaydalarını;

2.3.27. həmin Qanunun 47.6-cı maddəsinin birinci cümləsinə uyğun olaraq, hərbi avadanlığın (ləvazimatların), hərbi avadanlıq (ləvazimatlar) hesab edilməyən təhlükə potensiallı, o cümlədən xüsusilə təhlükəli yüklərin (malların) mülki və eksperimental hava gəmiləri ilə daşınmasına icazə verilməsi qaydasını;

2.3.28. həmin Qanunun 48.4-cü maddəsinə uyğun olaraq, kommersiya hava daşımalarının, sərnişin, baqaj, yük və poçt göndərişlərinin hava daşımalarının həyata keçirilməsi qaydalarını;

2.3.29. həmin Qanunun 56.5-ci maddəsinə uyğun olaraq, hava məkanından istifadə və uçuş qaydalarını;

2.3.30. həmin Qanunun 58.1-ci maddəsinə uyğun olaraq, hava hərəkəti xidmətlərini təmin edən təchizatçıların, habelə sistemlərin, onların tərkib hissələrinin layihələndirilməsinə, istehsalına və ya texniki xidmətinə cəlb olunan təşkilatların sertifikatlaşdırılması qaydasını;

2.3.31. həmin Qanunun 60.1-ci, 60.2-ci və 60.5-ci maddələrinə uyğun olaraq, mülki pilotsuz uçuş aparatlarının istismarı, qeydiyyata alınması və kateqoriyalara bölünməsi qaydalarını;

2.3.32. həmin Qanunun 62.1-ci maddəsinə uyğun olaraq, daimi və ya müvəqqəti coğrafi zonaların təyin edilməsi ilə bağlı meyarları;

2.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 25.2-ci maddəsinin ikinci cümləsində, 25.5-ci maddəsində, 27.1-ci maddəsinin ikinci cümləsində və 58.3-cü maddəsində nəzərdə tutulmuş məsələlərin tənzimlənməsi məqsədilə bu Fərmanın 2.3.15-ci yarımbəndində göstərilən qaydalarda aşağıdakılar da əksini tapmalıdır:

3.1. hava gəmilərinin uçuş və kabinə heyətləri, aeronaviqasiya xidmətlərinin təmin edilməsinə cəlb olunan havada hərəkəti idarəetmə dispetçerlərinə şəhadətnamələrin verilməsi, o cümlədən müvafiq təlim və tibbi yoxlamadan keçirilmə qaydası;

3.2. mülki hava gəmilərinin istismara buraxılışını təsdiq edən personala texniki xidmət üzrə şəhadətnamənin alınması qaydası;

3.3. hava daşımalarına cəlb edilən hava gəmisinin heyət üzvlərinə şəhadətnamənin verilməsi qaydası;

3.4. hava hərəkəti dispetçeri şəhadətnaməsinin verilməsi qaydası.

4. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 29.2-29.4-cü maddələrinin ikinci cümlələrində nəzərdə tutulmuş məsələlərin tənzimlənməsi məqsədilə bu Fərmanın 2.3.17-ci yarımbəndində göstərilən qaydada aşağıdakılar da əksini tapmalıdır:

4.1. aeronaviqasiya xidmətlərinin təmin edilməsinə cəlb olunan havada hərəkəti idarəetmə dispetçerlərinə, onlara təlim keçən təşkilatlara, onların bilik və bacarıqlarını yoxlayan təlimçilərə sertifikatın verilməsi qaydası;

4.2. mülki hava gəmilərinin istismara buraxılışını təsdiq edən personala ilkin texniki və hava gəmisinin növü üzrə təlimlər, eləcə də bu təlimlər üzrə imtahan keçirən və sertifikat verən təşkilatlara sertifikatın verilməsi qaydası;

4.3. uçuşu imitasiya edən təlim qurğularına sertifikatın verilməsi qaydası.

5. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 47.7-ci və 47.10-cu maddələrində nəzərdə tutulmuş məsələlərin tənzimlənməsi məqsədilə bu Fərmanın 2.3.26-cı yarımbəndində göstərilən qaydalarda aşağıdakılar da əksini tapmalıdır:

5.1. təhlükəli yüklərin hava yolu ilə daşınmasında iştirak edən personalın hazırlığının keçirilməsi qaydaları;

5.2. hava gəmisinin sərnişin salonunda, yük və baqaj bölmələrində daşınmasına yol verilən təhlükəli yüklərin siyahısı.

6. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 48.1-ci maddəsinin ikinci cümləsində, 49.3-cü, 50.2-ci, 65.6-cı, 65.9-cu və 66.2-ci maddələrində nəzərdə tutulmuş məsələlərin tənzimlənməsi məqsədilə bu Fərmanın 2.3.28-ci yarımbəndində göstərilən qaydalarda aşağıdakılar da əksini tapmalıdır:

6.1. hava daşımaları üzrə sərnişin və ya yük daşıma müqavilələrinin rəsmiləşdirilməsi, daşıma sənədlərinin forması və tərtib edilməsi qaydası;

6.2. sərnişinlərin, həmçinin baqajın, yükün, poçt göndərişlərinin hava daşınması üzrə xidmətlərin göstərilməsi zamanı istifadə olunan sənədlərin siyahısı;

6.3. sərnişin hava daşımasından imtina etdiyi təqdirdə, hava daşıması üçün ödənilmiş daşıma haqqının geri qaytarılması qaydası;

6.4. Azərbaycan Respublikasının daxili daşımalarında Azərbaycan Respublikasına mənsub olan daşıyıcılar tərəfindən daşımaya qəbul edilən, dəyəri bəyan olunmadan qeydiyyata alınmış baqaja və ya yükə görə daşıyıcının məsuliyyət həddi;

6.5. hava daşımaları ilə əlaqədar sərnişinlərə, baqaja və yükə vurulan zərərə görə kompensasiyanın hesablanması və ödənilməsi qaydası;

6.6. istismarçı tərəfindən hava gəmisinin istismarı ilə əlaqədar hava gəmisi ilə daşınmayan üçüncü şəxslərə və ya onların əmlakına vurulan zərərin ödənişinin həyata keçirilməsi qaydası.

7. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 56.2-ci, 56.7-ci, 56.8-ci maddələrində və 57.6-cı maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş məsələlərin tənzimlənməsi məqsədilə bu Fərmanın 2.3.29-cu yarımbəndində göstərilən qaydalarda aşağıdakılar da əksini tapmalıdır:

7.1. uçuş əməliyyatları üçün istifadə edilməzdən əvvəl hava məkanının strukturlarının layihələndirilməsi qaydası;

7.2. hava məkanının mülki hava gəmilərinin hava hərəkətinə nəzarət edilən hissəsində dövlət aviasiyasına mənsub hava gəmilərinin ümumi hava hərəkəti qaydaları;

7.3. Azərbaycan Respublikasının hava məkanının hüdudlarında hava hərəkətinə idarəetmə xidməti göstərilən müəyyən ölçülü hava məkanının təsnifatının tənzimlənməsi qaydası;

7.4. uçuşların təhlükəsizliyinin meteoroloji təminatının həyata keçirilməsi qaydası.

8. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

8.1. aşağıdakı normativ hüquqi aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

8.1.1. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 9.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəyi nəzərə alınmaqla, xidmət təminatçılarına mülki aviasiyada təhlükəsizliyə nəzarətlə bağlı göstərilən xidmətlərə görə xidmət haqqı məbləğlərini;

8.1.2. həmin Qanunun 24.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, hava gəmilərinin və onların komponentlərinin uçuşa yararlılığının saxlanılması qaydasını;

8.1.3. həmin Qanunun 28.4.2-ci maddəsinə uyğun olaraq, kapitan (komanda verən pilot) tərəfindən obyektiv səbəblərdən öz vəzifələrini yerinə yetirə bilmədikdə, uçuş başa çatdıqdan sonra bu halla bağlı bütün məlumatların təqdim edilməsi qaydasını;

8.1.4. həmin Qanunun 36.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, uçuş əməliyyatının həyata keçirilməsinə dair məlumatlar üzrə qeydlərin, səs yazılarının, sənədlərin qorunub saxlanılması və kənar müdaxilədən mühafizə edilməsi qaydasını;

8.1.5. həmin Qanunun 38-ci maddəsinə uyğun olaraq, uçuş əməliyyatlarına hazırlıq qaydasını;

8.2. həmin Qanundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

9. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 284 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 716 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2024-cü il*

# "Zeytun yağı və süfrə zeytunlarına dair 2015-ci il tarixli Beynəlxalq Saziş"ə qoşulmaq haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 2015-ci il oktyabrın 9-da Cenevrə şəhərində imzalanmış "Zeytun yağı və süfrə zeytunlarına dair 2015-ci il tarixli Beynəlxalq Saziş"ə qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2024-cü il*

# "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 25 yanvar tarixli 2449 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 65 (Cild I) 1.2-ci bəndində "2020-2022-ci" sözləri "2020-2023-cü" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2024-cü il*

# "Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin dövlət icbari şəxsi sığorta vəsaiti hesabına maliyyələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3493 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin dövlət icbari şəxsi sığorta vəsaiti hesabına maliyyələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3493 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1071 (Cild I) 1-ci hissəsində "2022-ci və 2023-cü" sözləri "2022-2025-ci" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2024-cü il*

# "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin idarə edilməsinin təkmilləşdirilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2550 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin idarə edilməsinin təkmilləşdirilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2550 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 255 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.1.2. Cəmiyyətin Müşahidə Şurası üzvlərinin, o cümlədən rəhbərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;";

1.2. 2.2.9-cu yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.3-cü bənd əlavə edilsin:

"2.3. Cəmiyyətin icra orqanının üzvlərini, o cümlədən rəhbərini Azərbaycan İnvestisiya Holdinqinin Müşahidə Şurası vəzifəyə təyin və vəzifədən azad edir.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan İnvestisiya Holdinqi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2024-cü il*

# "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 16-cı və 18-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 4, maddə 79; 1993, № 5, maddə 132; Azərbaycan Respublikasının 1995-ci il 2 may tarixli 1030 nömrəli Qanunu; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 378; 1998, № 1, maddələr 15, 16; 1999, № 4, maddə 228, № 5, maddə 286; 2001, № 6, maddələr 362, 363, № 11, maddə 694, № 12, maddələr 731, 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddələr 199, 212, № 7, maddə 507, № 8, maddə 596; 2005, № 10, maddə 871, № 12, maddə 1093; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 6, maddə 561, № 8, maddə 756, № 11, maddələr 1053, 1078; 2008, № 3, maddə 156, № 6, maddələr 462, 481, № 8, maddə 709, № 12, maddə 1048; 2010, № 3, maddə 171, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2014, № 11, maddə 1333; 2015, № 10, maddə 1085; 2016, № 6, maddə 1011; 2020, № 6, maddə 669, № 7, maddə 826, № 12 (I kitab), maddə 1425; 2021, № 6 (I kitab), maddə 542, № 7, maddə 706; 2022, № 5, maddə 433) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 14-cü maddənin 2-ci hissəsində "müəssisələrinin qiyabi şöbələrində" sözləri "müəssisələrində müvafiq icra hakimiyyəti orqanının rəsmiləşdirilmiş icazəsi olduqda" sözləri ilə əvəz edilsin;

1.2. 18-ci maddənin 1-ci hissəsinin ikinci abzasında "beş" sözü "on" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14; 2001, № 3, maddələr 138, 145, 146, 147, № 12, maddələr 731, 745; 2002, № 6, maddə 328, № 8, maddə 464; 2004, № 2, maddə 57, № 11, maddə 886; 2005, № 7, maddələr 576, 588, № 10, maddə 871; 2006, № 4, maddə 312, № 11, maddə 933; 2007, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 7, maddə 602, № 8, maddə 695, № 12, maddə 1048; 2010, № 6, maddə 482; 2011, № 2, maddə 71; 2015, № 5, maddə 501, № 10, maddə 1086, № 11, maddə 1250; 2016, № 1, maddə 16; 2017, № 3, maddə 328, № 12 (I kitab), maddə 2207; 2018, № 12 (I kitab), maddə 2488; 2019, № 2, maddə 180; 2020, № 6, maddə 669, № 7, maddə 827; 2021, № 6 (I kitab), maddə 544, № 7, maddə 699, № 8, maddə 897; 2022, № 8, maddə 830; 2023, № 2, maddə 189) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 13-cü maddənin birinci hissəsi üzrə:

2.1.1. birinci abzasda "Hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 16-cı" sözləri "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 39-cu" sözləri ilə əvəz edilsin;

2.1.2. ikinci abzasda "37" rəqəmləri "36,5" rəqəmləri ilə əvəz edilsin;

2.1.3. üçüncü abzasda "45" rəqəmləri "48" rəqəmləri ilə əvəz edilsin;

2.2. 15-ci maddənin birinci hissəsinin səkkizinci abzasında "5" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin və həmin abzasa "etmiş" sözündən sonra "kadr" sözü əlavə edilsin;

2.3. 150-ci maddənin birinci hissəsində "korpus (diviziya) və ona bərabər olan birbaşa rəislərin" sözləri "müvafiq icra hakimiyyəti orqanının rəsmiləşdirilmiş" sözləri ilə, "müəssisələrinin qiyabi şöbəsində" sözləri "müəssisələrində" sözü ilə əvəz edilsin;

2.4. 156-cı maddə üzrə:

2.4.1. birinci hissənin "j" bəndinə "etmiş" sözündən sonra "kadr" sözü əlavə edilsin;

2.4.2. aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Zabitlərin həqiqi hərbi xidmət dövründə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin (xarici ölkələrin analoji ali təhsil müəssisələrinin) magistratura (rezidentura), doktorantura (adyunktura) səviyyələri üzrə əyani təhsilalma müddəti, eləcə də ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi üzrə əlavə təhsil müddəti (bir ildən çox olduqda) bu Əsasnamənin 15-ci maddəsinin birinci hissəsinin səkkizinci abzasında və bu maddənin birinci hissəsinin "j" bəndində nəzərdə tutulmuş müddətlərə daxil edilmir.";

2.5. 172-ci maddənin üçüncü hissəsi ləğv edilsin;

2.6. Əsasnaməyə 3 saylı əlavə - "Hərbi qulluqçuların son yaş həddindən artıq həqiqi hərbi xidmətdə saxlanması üçün siyahıların tərtib edilməsi Qaydaları" üzrə:

2.6.1. birinci hissədə "ikinci 5" sözləri "daha 2" sözləri ilə əvəz edilsin;

2.6.2. üçüncü hissədə üçüncü halda "5" rəqəmi "2" rəqəmi ilə, "ikinci 5" sözləri "daha 2" sözləri ilə əvəz edilsin;

2.6.3. altıncı hissədən "5 illik" sözləri çıxarılsın.

**Maddə 3.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865, № 12 (I kitab), maddə 2504; 2019, № 2, maddə 205, № 3, maddə 380, № 5, maddələr 805, 808, № 8, maddələr 1374, 1382, № 11, maddə 1691, № 12, maddə 1891; 2020, № 7, maddə 829, № 12 (I kitab), maddə 1451; 2021, № 7, maddə 709, № 8, maddələr 893, 899, № 12, maddə 1332; 2022, № 6, maddə 583, № 8, maddə 829, № 12, maddələr 1369, 1387; 2023, № 1, maddə 44, № 2, maddələr 195, 212, 217; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1017-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 9.5-ci maddə üzrə:

3.1.1. 9.5.1-ci maddədə "20" rəqəmləri "25" rəqəmləri ilə əvəz edilsin;

3.1.2. 9.5.2-ci maddədə "25" rəqəmləri "30" rəqəmləri ilə və "12 il 6 ayını" sözləri "15 ilini" sözləri ilə əvəz edilsin;

3.1.3. 9.5.3-cü maddədə "45" rəqəmləri "48" rəqəmləri ilə, "25" rəqəmləri "30" rəqəmləri ilə və "12 il 6 ayını" sözləri "15 ilini" sözləri ilə əvəz edilsin;

3.2. 20-ci maddə üzrə:

3.2.1. 20.14.1-ci maddədə hər üç halda "20" rəqəmləri "25" rəqəmləri ilə, "50" rəqəmləri "65" rəqəmləri ilə əvəz edilsin və həmin maddədən "yaşına və ya xəstəliyinə görə hərbi xidmətdən buraxılanlara isə - 55 faizi," sözləri çıxarılsın;

3.2.2. 20.14.2-ci maddədə hər iki halda "25" rəqəmləri "30" rəqəmləri ilə, "50" rəqəmləri "65" rəqəmləri ilə, "12 il 6 ayını" sözləri "15 ilini" sözləri ilə və "hərbi xidmətin (hərbi xidmətin güzəştli sayılan hissəsi nəzərə alınmaqla)" sözləri "ümumi iş stajının" sözləri ilə əvəz edilsin;

3.2.3. 20.14.3-cü maddədə "45" rəqəmləri "48" rəqəmləri ilə, hər iki halda "25" rəqəmləri "30" rəqəmləri ilə, "12 il 6 ayını" sözləri "15 ilini" sözləri ilə və "hərbi xidmətin (hərbi xidmətin güzəştli sayılan hissəsi nəzərə alınmaqla)" sözləri "ümumi iş stajının" sözləri ilə əvəz edilsin;

3.2.4. 20.17-ci maddə aşağıdakı redaksiyada verilsin:

"20.17. Bu Qanunun 20.1.13-cü maddəsində nəzərdə tutulmuş şəxslərin əmək pensiyasına əlavələr pensiya təyinatı tarixinədək təminat xərcliyindəki sonrakı artımlar da nəzərə alınmaqla ailə başçısının təminat xərcliyinin məbləğinin ailə başçısını itirməyə görə əmək pensiyası hüququ olan ailə üzvlərinin sayına olan nisbəti şəklində müəyyən edilmiş məbləğlə bu Qanuna uyğun olaraq təyin edilən ailə başçısını itirməyə görə əmək pensiyasının məbləği arasındakı fərq qədər təyin edilir.".

**Maddə 4.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7 (I kitab), maddə 1425, № 11, maddələr 2204, 2205; 2019, № 2, maddə 187, № 4, maddə 579, № 5, maddə 797, № 6, maddə 986; 2020, № 7, maddə 831, № 11, maddə 1338; 2021, № 3, maddə 210; 2022, № 5, maddələr 433, 440; 2023, № 2, maddə 190, № 7, maddələr 897, 899) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 39.1.2-ci maddədə "45" rəqəmləri "48" rəqəmləri ilə əvəz edilsin;

4.2. 41-ci maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

**"Qeyd:** Zabitlərin həqiqi hərbi xidmət dövründə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin (xarici ölkələrin analoji ali təhsil müəssisələrinin) magistratura (rezidentura), doktorantura (adyunktura) səviyyələri üzrə əyani təhsilalma müddəti, eləcə də ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi üzrə əlavə təhsil müddəti (bir ildən çox olduqda) bu Qanunun 41.0.9-cu maddəsində nəzərdə tutulmuş müddətə daxil edilmir.";

4.3. 44.2-ci maddə ləğv edilsin.

**Maddə 5.** Keçid müddəalar

5.1. Bu Qanun qüvvəyə mindiyi tarixədək "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 9.5.1-ci maddəsinə əsasən tələb olunan 20 təqvim ili hərbi xidmət müddətinin tamamlanmasına ən çoxu 3 təqvim ili qalmış hərbi qulluqçulara "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 2024-cü il yanvarın 1-dək qüvvədə olan normaları ("Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 20.17-ci maddəsi istisna olmaqla) tətbiq edilir.

5.2. Bu Qanun qüvvəyə mindiyi tarixədək 20 təqvim ili və daha çox hərbi xidmət etmiş hərbi qulluqçular 25 təqvim ili hərbi xidmət müddətini tamamlayanadək hərbi xidmətdən buraxıldıqda, onlara "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 2024-cü il yanvarın 1-dək qüvvədə olan normaları ("Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 20.17-ci maddəsi istisna olmaqla) tətbiq edilir.

5.3. Bu Qanun qüvvəyə mindiyi tarixədək təyin edilmiş əmək pensiyaları bu Qanuna əsasən yenidən hesablanmır.

**Maddə 6.** Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703, № 8, maddələr 822, 825, 828, № 11, maddə 1236, № 12, maddələr 1364, 1399; 2023, № 1, maddələr 17, 20, 32, 39, № 2, maddələr 149, 201, 204, № 4, maddə 466, № 6, maddələr 743, 754, № 7, maddələr 905, 907, № 8 (I kitab), maddələr 1096, 1122, 1128; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1008-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 152.3-cü maddədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

2. 307-ci maddə üzrə:

2.1. 307.1-ci maddəyə "limana" sözündən sonra "(dəniz əməliyyatları bazasına)" sözləri və "limandan" sözündən sonra "(dəniz əməliyyatları bazasından)" sözləri əlavə edilsin;

2.2. 307.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"307.4. Dəniz nəqliyyatı sahəsində beynəlxalq konvensiyaların tələblərinə, habelə dəniz üzgüçülüyünün təhlükəsizliyi, dənizdə insan həyatının və sağlamlığının qorunması, dəniz ətraf mühitinin mühafizəsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göstərişlərinin icra edilməməsi, habelə bu sahədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi tələblərə zidd olaraq gəmilərin istismar və idarə edilməsinə görə -

fiziki şəxslər üç yüz manat məbləğində, vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir.";

2.3. aşağıdakı məzmunda 307.5-ci maddə əlavə edilsin:

"307.5. Dənizdə gəmidə baş vermiş qəza barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verilməməsinə görə -

fiziki şəxslər üç yüz manat məbləğində, vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər iki min manat məbləğində cərimə edilir.".

3. 312-ci maddənin adında və dispozisiyasında "Limanlarda" sözü "Dəniz limanlarında və ya dəniz əməliyyatları bazalarında" sözləri ilə əvəz edilsin.

4. 313-cü maddə üzrə:

4.1. adına və 313.1-ci maddəyə "Reyestrinin" sözündən sonra "və Dəniz əməliyyatları bazaları Reyestrinin" sözləri əlavə edilsin;

4.2. 313.2-ci maddəyə "Reyestrinin" sözündən sonra "və Dəniz əməliyyatları bazaları Reyestrinin" sözləri əlavə edilsin və həmin maddənin sanksiyasında "iki yüz" sözləri "min" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

# "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1074-VIQD nömrəli Qanununun tətbiqi və "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1074-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin 2-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini hərbi qulluqçunun xidmət yerinə müvafiq olaraq Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həyata keçirirlər;

1.2. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin 150-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini hərbi qulluqçunun xidmət yerinə müvafiq olaraq Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həyata keçirirlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1074-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli 692 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 176 (Cild I) 2-ci hissəsinin iyirminci abzasına "Qanunun" sözündən sonra "150-ci maddəsinin birinci hissəsində və" sözləri əlavə edilsin.

4. Bu Fərman 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2024-cü il*

# Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 avqust tarixli 1120 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan İnvestisiya Holdinqinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 avqust tarixli 1120 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1023 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan İnvestisiya Holdinqinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 4.7.19-1-ci yarımbənd əlavə edilsin:

"4.7.19-1. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda, dövlət müəssisələrinin icra orqanının üzvlərini, o cümlədən rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad etmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2024-cü il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1069-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1069-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 152.3-cü, 307.4-cü (hər iki halda) və 307.5-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 307.4-cü maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 152.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (kiçikhəcmli gəmilərə münasibətdə) və Dövlət Dəniz və Liman Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (digər gəmilərə münasibətdə) nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 307.4-cü (birinci halda) və 307.5-ci maddələrində "orqan (qurum)" dedikdə Dövlət Dəniz və Liman Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur.

2. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.1-ci bəndə "150.13-1," rəqəmlərindən sonra "152.3," rəqəmləri, "275.2," rəqəmlərindən sonra "307.4 (hər iki halda), 307.5," sözləri əlavə edilsin;

2.2. 4.3-cü bənddən ", 307.4-cü" sözləri çıxarılsın;

2.3. 4.3-1-ci bəndə "162-1.1-ci," sözlərindən sonra "307.4-cü (ikinci halda)," sözləri əlavə edilsin;

2.4. 4.18-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.18. həmin Məcəllənin 152.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (kiçikhəcmli gəmilərə münasibətdə) və Dövlət Dəniz və Liman Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (digər gəmilərə münasibətdə) nəzərdə tutulur;";

2.5. aşağıdakı məzmunda 4.18-1-ci bənd əlavə edilsin:

"4.18-1. həmin Məcəllənin 307.4-cü (birinci halda) və 307.5-ci maddələrində "orqan (qurum)" dedikdə Dövlət Dəniz və Liman Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1069-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 fevral 2024-cü il*

# Ekoloji terror

**Son illərdə Ermənistanın dağ-mədən sənayesinin Cənubi Qafqazı ciddi ekoloji fəlakətlə üz-üzə qoyması dərin narahatlıq doğurur. Çünki bu ölkədə heç bir ekoloji norma və standartlar gözlənilmədən aparılan dağ-mədən sənayesi işlərində ətraf mühitə vurulan ciddi zərərin, ekoloji fəsadların miqyası sürətlə böyüməkdədir. Acınacaqlısı da odur ki, Ermənistan rəhbərliyi bu barədə nə daxili etirazlara, nə də xarici ölkələrin və beynəlxalq təşkilatların müraciətlərinə məhəl qoyur.**

**Bütün bunlar sadəcə fikir xatirinə səslənən sözlər deyil, faktlarla əsaslandırılan reallıqlardır. Konkret olaraq Ermənistanda genişlənən qanunsuz dağ-mədən işləri səbəbindən bölgə ekoloji fəlakətin astanasındadır.**

**Davam edən mədən əməliyyatları nəticəsində ekosistemin korlanması təkcə Ermənistanın ətraf mühiti üçün təhdid deyil, həm də qonşu ölkələrə böyük təhlükədir. Ekoloji zərərin transsərhəd xarakteri regionda və ondan kənarda yaşayan icmaların sağlamlığını və rifahını riskə atır.**



## Ermənistan Cənubi Qafqazı ekoloji fəlakət bölgəsinə çevirir

### Ermənistan region çaylarını necə çirkləndirir?

30 il Qarabağ və Şərqi Zəngəzurun bütün iqtisadi potensialından yararlanan işğalçı Ermənistan bunun müqabilində Azərbaycana qarşı həm də ekoloji terror həyata keçirməklə məşğul olub. Belə ki, Qarabağdan Azərbaycanın digər regionlarına axan çayların qarşısı yayda əkin vaxtı kəsilir, qışda açılaraq süni sel təhlükəsi yaradılır, ağaclar, meşələr qırılır, əkin sahələri yandırılırdı. Təhlükəli metal tullantıları, mis hasilatı və emalı, molibden emalı zamanı yaranan zəhərli sular istifadə etdiyimiz içməli su mənbələrinə qəsdən təmizlənməmiş halda buraxılırdı. Bundan əlavə, Qarabağ ərazisində mədənlərin qanunsuz hasilatı, xüsusilə qızıl, gümüş və mis emalı zamanı ətraf mühit, təbii landşaft və içməli su resursları həddən artıq istifadə olunur, ya da çirkləndirilir və zəhərləndirilirdi. Təəssüf ki, dünya ictimaiyyəti və beynəlxalq ekoloji təşkilatlar buna susqunluqla qarşılıq verirdilər.

Faktlara diqqət yetirək. 24 il öncə, 2000-ci ildən etibarən dünya bazarında mis, qızıl və digər qiymətli metallara tələbatın artması Ermənistanda mədən sənayesinin inkişafına zəmin yaratdı. Nəticədə mədən sənayesinə yatırılan investisiyanın həcmi artsa da, bu proses ekoloji vəziyyətin sürətli şəkildə məhvi ilə müşayiət olundu. Mədən sənayesində davam edən fəaliyyət region ölkələrinin ekoloji durumuna da təsirsiz ötüşmədi. Mədənlərin bir çoxunun su mənbələrinin yaxınlığında yerləşməsi ətraf mühit üçün zərərli hesab edilən kimyəvi tullantıların çaylara axıdılmasına gətirib çıxardı.

Tədqiqatçı Həmid Əhmədli deyir ki, hazırda Ermənistanın cənub-şərqi, yəni Qərbi Zəngəzur ərazisi dağ-mədən sənayesinin əsas mərkəzi hesab edilməkdədir. 2018-ci ildə ölkə üzrə dağ-mədən sənaye məmulatlarının 87 faizi Qərbi Zəngəzurda istehsal olunub. Aparılan araşdırmalara əsasən, Qərbi Azərbaycan regionunda yerləşən Qacaran mis-molibden yatağı ölkənin ən irihəcmli dağ-mədən resursu hesab edilir. "Zangezur Copper-Molybdenum Combine" ("Zəngəzur Mis-Molibden Zavodu") adlı Qərb mənşəli şirkət tərəfindən istismar edilən mədən ətraf mühitə ciddi təhlükə yaradıb. Belə ki, yataqların istismarı zamanı zərərli tullantılar Oxçuçaya axıdılır və bu tendensiya uzun müddətdir ki, davam etməkdədir.

2017-ci ildə Ermənistanın Ətraf Mühitin Monitorinqi və İnformasiya Mərkəzinin məlumatlarında Oxçuçay ən çox çirkləndirilən çay hesab edilirdi. Beləliklə, mədən sənayesinin Qacaranda fəaliyyət göstərməsi Oxçuçayın tərkibində dəmir, sink, qurğuşun, manqan və s. metalların həcminin artması ilə nəticələnib. Aparılan araşdırmalar nəticəsində Oxçuçayın suyunun 5-ci kateqoriya, yəni ən aşağı keyfiyyətə malik olması səbəbi ilə Ermənistan ərazisində irriqasiya məqsədləri üçün istifadəsi qadağan edilib. 2019-cu ildə mədənin istismarı zamanı tullantıların daşınması üçün nəzərdə tutulan kəmərdə baş verən sızma Oxçuçayda ciddi çirklənməyə səbəb olub.

Oxçuçayın Cənubi Qafqazın ikinci böyük çayı olan Araz çayına töküldüyünü nəzərə alsaq, onun çirklənməsi Araz çayının su ehtiyatlarının keyfiyyətinə də birbaşa təsir göstərir. Araz çayı Kür çayının ən böyük sağ qolu olmaqla Ermənistanla digər transsərhəd çaydır və Azərbaycanın ekosisteminə qarşı törədilən bu cinayət cavabsız qalmamalıdır. Oxçuçay çayından götürülən su nümunələrinin sınaq nəticələri çay səthindəki sularda ağır metalların, xüsusən dəmir, mis, manqan, molibden, sink, xrom, nikel və digərlərinin yüksək miqdarda olduğunu aşkar edib, hətta çöküntü nümunələrində təhlükəli maddələrin konsentrasiyasının normadan dəfələrlə artıq olduğu müəyyən edilərək, çayın çirklənmə səviyyəsinin təhlükəli həddə çatdığı aydın olub.

Eyni zamanda "Zəngəzur Mis-Molibden Zavodu" tərəfindən mədənlərdə istehsal həcminin artırılması ilə əlaqədar olaraq daha iri həcmdə su resursunun istifadə edilməsi Oxçuçayın qurumasına gətirib çıxara bilər.

Qərbi Zəngəzur regionundakı Əkərək mis-molibden yatağının istismarı nəticəsində də çaylara axıdılan bərk və maye tullantılar ekologiyaya təhlükə yaradıb. 2016-cı ildə "Agarak Copper Molybdenum Combine" (Əkərək Mis-Molibden Zavodu) şirkəti tərəfindən istismar edilən qızıl mədəninin Xarçevan çayını çirkləndirməsi erməni mətbuatında geniş rezonans doğurmuşdu. Ermənistan Ətraf Mühit Cəbhəsi adlı qeyri-hökumət təşkilatı məsələ ilə bağlı aidiyyəti qurumlardan izahat tələb etmiş və Ekologiya Nazirliyi çayın suyundan laboratoriya testi aparılacağını bildirmişdi. Lakin nəticələrin geniş ictimaiyyətlə paylaşılmasından imtina edilmiş və adıçəkilən qeyri-hökumət təşkilatı yalan informasiya yaymaqda günahlandırılmışdı. Qeyd edək ki, 2016-cı ildə Ermənistan Amerikan Universitetinin (American University of Armenia) Əkərək bölgəsində torpaq və su örnəklərindən apardığı araşdırma Xarçevan çayının aşağı axarında dəmir, nikel və mis qarışığı nəticəsində keyfiyyətin ən aşağı səviyyədə "pis" və ya 5-ci kateqoriya olduğunu sübut edib.

### Dağ-mədən istehsalı olan məhsulların 87 faizi Qərbi Zəngəzurun payına düşür

Göründüyü kimi, Ermənistanın dağ-mədən sənayesinin ən strateji nöqtəsi hesab edilən Qərbi Zəngəzur bölgəsində adıçəkilən müəssisələrin istismarı regionda ekoloji balansın pozulmasına səbəb olub.

Hazırda da Ermənistanın ekoloji cəhətdən ən çox çirklənməyə məruz qalmış şəhərləri Qacaran, Qafan, Mehri və Əkərəkdir, yəni yenə də Qərbi Zəngəzur ekoloji terrorun baş verdiyi ərazi olaraq qalmaqdadır. Dağ-mədən sənaye məmulatlarının 87 faizinin Qərbi Zəngəzurda istehsal olunması bunu bir daha təsdiqləyir.

Belə ki, Qacaran şəhərində istismar edilən mis-molibden yatağının tullantıları Oxçuçayı, Əkərək şəhərindəki mis-molibden və qızıl yatağı isə Xarçevan çayını çirkləndirməkdə davam edir. Hər iki çay Arazın qolu olduğu üçün regiondakı torpaq sahələrini və su resurslarını təhlükəli həddə çirkləndirib. Eyni zamanda Araz çayı transsərhəd çay hesab edildiyindən Azərbaycanla yanaşı, qonşu İran İslam Respublikasının da ekosistemini sıradan çıxarmaqdadır.

2023-cü ildə İranın Ermənistanı ötən illər ərzində Araz çayının çirkləndirilməsində ittiham etməsi də bunu təsdiqləyən reallıqdır. İranın Su Ehtiyatlarının İdarə Olunması Şirkətinin rəsmisi İsa Bozorgzadə deyirdi ki, İran artıq Ermənistana və mis mədənini istismar edən şirkətə lazımi xəbərdarlıqlar edib. İranın təzyiqləri nəticəsində mədən tullantılarının toplanması ilə əlaqədar bəndlər yaradılıb. Lakin podratçı şirkət Ermənistanda enerji qiyməti yuxarı olduğuna görə daha çox vəsait ödəməmək üçün qanun pozuntusu edir və tullantıların çaylara axıdılmasına yol verir. Bu xəbərdarlıqlara baxmayaraq, Ermənistan yenə də bu istiqamətdə hər hansısa tədbirə əl atmadı.

### Nikol Paşinyan etiraf etsə də...

Araşdırmalara əsasən deyə bilərik ki, Qacarandakı Zəngəzur Mis-Molibden Zavodunun, Qafandakı Dağ-Mədən Zavodunun xrom, nikel, mis, molibden, sink, alüminium, vanadium, qurğuşun və digər ağır metal tərkibli mədən tullantıları Oxçuçayı və Araz çayını çirkləndirir.

Zəngəzur Mis-Molibden Zavodunun səhmlərinin 60 faizi Almaniyanın "Cronimet Mining GmbH" şirkətinə məxsusdur. Burada heç bir ekoloji norma gözlənilmədən il ərzində orta hesabla 20 milyon ton filiz emal edilir. Kombinatın mədən tullantıları hovuzu olan 270 milyon kvadratmetrlik Artsevanik su anbarı bütün region üçün təhdiddir.

Qafan Dağ-Mədən Zavodu 2019-cu ildən Böyük Britaniyanın "Chaarat Gold International Limited" şirkətinin tərkibindədir və hazırda "Chaarat Kapan" adlanır. İl ərzində burada orta hesabla 1,3 milyon ton filiz emal edilir. Qafan Dağ-Mədən Zavodunun tərkibində 4,6 milyon kvadratmetr ərazini əhatə edən Gütqum (Qeqanuş) mədən tullantısı anbarı region üçün təhlükə saçır.

Əkərək Mis-Molibden Zavodunun da ağır metal tərkibli mədən tullantıları Kərçivançay (Karçevançay) vasitəsilə Araz çayını zəhərləyir. ABŞ-nin "Comsup Commodities" şirkəti kombinatın bütün səhmlərini satın alaraq onun tam payçısıdır. İl ərzində burada orta hesabla 4 milyon ton filiz emal edilir. Kombinatın Davazam tullantı anbarında hazırda təxminən 36,8 milyon kubmetr təhlükəli tullantı toplanması barədə məlumatlar yayılıb. Tullantı anbarının suyu transsərhəd Araz çayına tökülür.

İşğal dövründə Ermənistan hakimiyyəti Azərbaycanla sərhəddə yerləşən Kəlbəcərin Zod yatağını qanunsuz olaraq "GeoProMining" şirkətinin tam istismarına verib. 2009-cu ildə buradan 320,5 min ton, 2010-cu ildə 490 min ton, 2011-ci ildə 880 min ton miqdarında hasil edilmiş filizin emalı Dəvəli (Ararat) qızıl emalı kombinatında həyata keçirilib. Nəticədə mədən yaxınlığındakı Zod (Sotk) çayı mis, dəmir, kadmium və molibden kimi ağır metallarla çirkləndirilib. Çirklənmiş Zod (Sotk) çayının Kür çayına töküldüyünü nəzərə alsaq, bunun milyonlarla insanın həyatı üçün böyük təhlükə yaratdığını anlamaq çətin olmaz. 2018-ci ildə bu mədənin işləməsinə icazə verməklə regionu çirkləndirməsinə görə, Avropa İnsan Hüquqları Məhkəməsi Ermənistan tərəfindən ekoloji tarazlıq hüquqlarının pozulmasına dair qərar da çıxarıb.

Ermənistanın dağ-mədən sənayesinin digər mühüm əhəmiyyətli məntəqələri, o cümlədən ölkənin yeganə mis emalı müəssisəsi hesab edilən "Alaverdi Misəritmə Müəssisəsi" də təhlükə mənbələrindən biridir. Adıçəkilən müəssisə Qacaran bölgəsindən çıxarılan mis filizini emal etmək məqsədilə yaradılıb. İstehsal həcminin kiçik olmasına baxmayaraq, müəssisənin ətraf mühitə vurduğu ziyanın həcmini müəyyən etmək olduqca çətindir.

Belə ki, zavodun yerləşdiyi Alaverdi şəhəri hava çirkliliyinin və ölümcül xəstəliklərin səviyyəsinin yüksək olması ilə tanınır. Aparılan araşdırmalara əsasən, emal prosesi zamanı toz və zəhərli dumanların qarşısını almaq məqsədilə qurulan filtrlərin istifadə müddəti bitsə də, məsələnin həlli ilə bağlı hər hansı bir mexanizm yaradılmayıb. 2018-ci ildə Ermənistan hökuməti tərəfindən hava çirklənməsi ilə bağlı normaların pozulması əsas gətirilərək müəssisənin qapadılmasına qərar verilib. Hətta baş nazir Nikol Paşinyan Ermənistan parlamentində çıxışı zamanı "Alaverdi Misəritmə Müəssisəsi"nin illərlə zəhərli emissiyaları havaya buraxdığını və bunun xərçəng xəstəliyinə səbəb olması ilə bağlı statistik məlumatlara sahib olduğunu açıq şəkildə bildirmişdi.

Amma bu günə qədər heç bir tədbirin görülməməsi təsdiq edir ki, rəsmi İrəvanı insan taleyi deyil, maddiyyat maraqlandırır. Dağ-mədən sənayesinin mühüm əhəmiyyət kəsb edən yataqlarının coğrafi yerləşməsinə nəzər yetirsək görərik ki, Ermənistanın çirkləndirdiyi su mənbələrinin aşağı axarının qonşu ölkələrin ərazisində olması o ölkələrin ətraf mühitinə böyük təhlükə yaradır. Mədən sənayesinin ətraf mühitə yaratdığı təhlükələrlə bağlı yerli və beynəlxalq təşkilatlar tərəfindən dəfələrlə narahatlıqlar dilə gətirilsə də, Ermənistan hökuməti problemin həlli üçün real addımlar atmayıb və atmır da...

### İrəvan yenə də beynəlxalq təşkilatları saymır, müraciətlərə məhəl qoymur

Ermənistan dövlət gəlirlərini təbii resursların istismarı və satışı üzərində qurulan primitiv iqtisadi modelə əsasən qarşılamağa davam etməkdədir. Tədqiqatçı Həmid Əhmədlinin fikrincə, bu prosesdə mühüm rol oynayan dağ-mədən sənayesi yalnız ölkə daxilində deyil, həm də qonşu ölkələrin ekosisteminin sıradan çıxmasına şərait yaradır. Şübhəsiz ki, bu prosesdə ən böyük zərərçəkən ölkə məhz Azərbaycandır.

Aparılan tədqiqatlar onu deməyə əsas verir ki, Ermənistanın mədən sənayesi bölgələrindən keçərək ölkəmizə daxil olan çay sistemlərində suyun keyfiyyəti məişətdə istifadəsi və irriqasiyada tətbiqi üçün beynəlxalq standartlara uyğun deyil. Kür və Araz çayı kimi sərhədyanı çayların birbaşa və ya dolayı yolla çirkləndirilməsi həm də bütün Xəzər hövzəsinin ekologiyasına ciddi təhdid yaradır. Bu isə problemin artıq qlobal miqyasa keçdiyini göstərir.

Dağ-mədən sənayesinin mühüm əhəmiyyət kəsb edən yataqlarının coğrafi yerləşməsinə nəzər yetirsək görərik ki, Ermənistanın çirkləndirdiyi su mənbələrinin aşağı axarının qonşu ölkələrin ərazisində olması o ölkələrin ətraf mühitinə böyük təhlükə yaratmaqdadır.

Ermənistanın region ölkələrinin su ehtiyatlarını çirkləndirməsi BMT-nin "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə" Konvensiyasının (Convention on the Protection and Use of Transboundary Watercourses and International Lakes) prinsiplərini kobud şəkildə pozmaqdadır. Azərbaycan 2000-ci ildən adıçəkilən razılaşmaya qoşulsa da, Ermənistan bu günədək konvensiyanı ratifikasiya etməkdən boyun qaçırır. Eyni zamanda əhalinin sağlamlığının qorunması, su ehtiyatlarının daha yaxşı idarə edilməsi və çirklənmənin azaldılması məqsədilə konvensiyanın "Su və Sağlamlıq" haqqında protokolu Ermənistan tərəfindən 1999-cu ildən etibarən imzalansa da, qüvvəyə minməyib.

Ermənistan hakimiyyətinin ölkədə genişlənən dərin ekoloji problemlərin həllinə heç bir maraq göstərməməsi barədə artıq ictimai rəy formalaşıb. 2019-cu il fevral ayının 14-də Avropa İnsan Hüquqları Məhkəməsi Ermənistan əleyhinə 6 qərar qəbul edib. Şınıx və Tuğut kəndlərinin iki sakini öz təsərrüfat torpaqlarının Ermənistan hökumətinə məxsus olduğu deyilən şirkət tərəfindən qanunsuz şəkildə mədən sənayesi üçün zəbt edildiyini, buradakı filiz yatağının istismar edildiyini, nəticədə həmin kəndlilərin torpaq sahəsinin yararsız hala düşdüyünü bildirib. Kəndlilər ölkələrinin məhkəmə sistemindən ədalətli qərar əldə edə bilmədikləri üçün Avropa Məhkəməsinə üz tutublar. Qərara əsasən, onlara Ermənistan hökuməti 69400 avro məbləğində vəsait ödəməli idi.

Bütün bunların fonunda ötən il Azərbaycanın vətəndaş cəmiyyəti təşkilatları Ermənistanın dağ-mədən sənayesinin Cənubi Qafqaz regionunda ekoloji sabitliyi pozması barədə bu ölkənin baş naziri Nikol Paşinyana açıq məktub ünvanlamışdılar. Məktubda qeyd edilirdi ki, Ermənistanın vətəndaş cəmiyyəti təşkilatlarının da ölkədə genişlənən ekoloji problemlərlə bağlı artan həyəcanı Azərbaycanda da izlənilir. Ötən müddət ərzində Ermənistanda fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatlarının Nikol Paşinyana ünvanladığı 60-dan çox məktub cavabsız qalıb. Ekofəallar qanunsuz şəkildə fəaliyyət göstərən Amuldağ qızıl yatağının işinin dayandırılması barədə prezident administrasiyasının qarşısında piket keçiriblər. Mədən bir neçə dəfə bağlansa da, sonradan onun fəaliyyəti bərpa edilib. Həmin ekofəalların cəzalandırılması ilə bağlı xarici mətbuatda dəfələrlə xəbərlər dərc olunub. Davam edən mədən əməliyyatları nəticəsində ekosistemin korlanması təkcə Ermənistanın ətraf mühiti üçün təhdid deyil, həm də qonşu ölkələrə böyük təhlükədir. Ekoloji zərərin transsərhəd xarakteri regionda və ondan kənarda yaşayan icmaların sağlamlığını və rifahını riskə atır.

Məktubda beynəlxalq ekoloji norma və standartları, region əhalisinin hüquqlarını pozmaqla aparılan dağ-mədən sənayesi işlərinin dayandırılması tələb edilib, reallıqlara əsaslanan faktlar göstərilib və qeyd edilib ki, Ermənistanın dağ-mədən sənayesi Cənubi Qafqaz regionunu ciddi ekoloji fəlakətlə üz-üzə qoyub. Bu səbəbdən də rəsmi İrəvan çox ciddi addımlar atmalıdır. İlk növbədə isə beynəlxalq standart və prinsiplər nəzərə alınaraq Ermənistanın bütün dağ-mədən sənayesi obyektlərinin qapıları ekologiya və səhiyyə sahəsində ixtisaslaşmış ekspertlərin, Azərbaycanın bu sahədə ixtisaslaşmış vətəndaş cəmiyyətləri təşkilatlarının üzünə açılmalıdır.

2023-cü ilin avqustunda təsis olunan və Ermənistanın dağ-mədən sənayesindəki proseslərin bütün qanuni vasitələrlə davamlı izlənilməsini, ekoloji pozuntular əleyhinə mübarizənin gücləndirilməsini əsas işi elan edən "Environmental Protection First" Koalisiyası da rəsmi İrəvandan tələb edib ki, Cənubi Qafqazda ekologiya və səhiyyə böhranı yaradan dağ-mədən sənayesi müəssisələrinin qapılarını ekoloji monitorinqlər üçün açsın.

### Hər il Ermənistandan keçən 350 milyon kubmetr su kimyəvi maddələrlə çirkləndirilir

Ötən il həmçinin Ermənistanın ekoloji terroru ilə bağlı dünyanın 22 ölkəsindən 49 QHT və ekofəalı birgə bəyanat qəbul etmişdi. Bu bəyanatda da Cənubi Qafqaz regionu üçün ekoloji ədalət tələb edilirdi. Bəyanat müəllifləri Ermənistandan ətraf mühitə ziyan vuran fəaliyyəti dərhal dayandırmağı, beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklərini yerinə yetirməyi kəskin şəkildə tələb edirdilər.

Bəyanatda eyni zamanda qeyd edilir ki, BMT təmiz, sağlam və davamlı ətraf mühiti əsas insan hüququ kimi tanıyır. Qlobal ictimaiyyətin BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün səfərbər olunduğu, ekoloji problemlərin həlli üçün səylərini gücləndirdiyi bir vaxtda Ermənistanın bu hərəkətləri Transsərhəd Çaylar Konvensiyası və BMT-nin Avropa İqtisadi Komissiyasının Transsərhəd Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasının (Espoo Konvensiyası) tələblərini ciddi şəkildə pozur. O da qeyd olunub ki, yaxın zamanda COP29-un Cənubi Qafqaz regionunda, Azərbaycanda keçiriləcəyini nəzərə alaraq, Ermənistan da ətraf mühitə ziyan vuran əməllərdən çəkinməli, bununla da beynəlxalq konvensiyalardan irəli gələn öz öhdəliklərini yerinə yetirməlidir.

Qeyd edək ki, İkinci Qarabağ müharibəsindən sonra da Ermənistanın ekoloji terroru, Azərbaycana məxsus təbii sərvətlərin qanunsuz istismarını davam etdirməsi Azərbaycanda ciddi narazılıqlara səbəb olmuşdu. 2022-ci il dekabrın 12-dən etibarən 2023-cü il aprelin 28-dək QHT nümayəndələri, ekofəallar və gənc könüllülər Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərində etiraz əlaməti olaraq Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində dinc etiraz aksiyası keçiriblər. 138 gün davam edən aksiya zamanı etirazçılar Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırıb, "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Ekoloji cinayətə son!" və sair şüarlar səsləndirərək Hayastanın qanunsuzluqları ilə bağlı dünyaya car çəkiblər.

Ümumiyyətlə, araşdırmalar göstərir ki, hər il Ermənistandan keçən 350 milyon kubmetr su kimyəvi maddələrlə çirkləndirilir. Oxçuçaydakı çirkləndiricilər suyun töküldüyü Araz və Kür çayları vasitəsilə Xəzər dənizinə axır. Nəticədə Xəzər hövzəsindəki 5 (Rusiya, Azərbaycan, Qazaxıstan, İran və Türkmənistan) ölkənin ekosistemində çirklənmələr baş verir ki, bu da təkcə Azərbaycanın yox, həmin 5 ölkənin birgə həll etməli olduğu məsələdir. Çünki Xəzəryanı region orada bütün baş verənlərə görə yalnız "Xəzər beşliyi"nin - Rusiya, Azərbaycan, Qazaxıstan, İran və Türkmənistanın məsuliyyət daşıdığı region olaraq qalır.

Bir sözlə, Ermənistanın Amuldağ qızıl yatağının və digər dağ-mədən zavodlarının yaratdıqları ekoloji terror region üçün çox ciddi təhlükə yaradır. Beynəlxalq təşkilatların bəyanatlarına, tələblərinə məhəl qoymayan Ermənistana qarşı ciddi sanksiyaların qəbul edilməsi bütün dünyanın, xüsusən də Xəzəryanı ölkələrin ən prioritet məsələsi olmalıdır.

***"AZƏRBAYCAN" qəzetinin redaksiyası***

# 2024-cü ildə Laçında daha 5 SES istismara veriləcək

## Bu günədək istismara verilən 4 SES-də 77 milyon kVts "yaşıl enerji" istehsal edilib

**Alternativ və bərpaolunan enerji mənbələrinə keçidin sürətləndirilməsi, atmosferə atılan karbon qazının miqdarının azaldılması və digər mütərəqqi prinsipləri özünə prioritet seçən və 2024-cü ili "yaşıl dünya" naminə həmrəylik ili elan edərək COP29 kimi mötəbər tədbirə evsahibliyi edəcək Azərbaycanda "yaşıl enerji"nin əhatəsi sürətlə genişləndirilir.**

İşğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı ölkə başçısının tapşırığına uyğun olaraq ardıcıl şəkildə su-elektrik stansiyaları yaradılır. Belə ərazilərdən biri də Laçın rayonudur və burada "Azərenerji" tərəfindən ardıcıl işlər görülür. "Yaşıl enerji" strategiyasına uyğun olaraq Laçın rayonunda 9 yerdə su-elektrik stansiyaları yaradılıb və yaradılmaqdadır.

"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, bu günə kimi Laçın rayonunda 8,25 meqavat gücündə "Mişni", 8 meqavat gücündə "Güləbird", 6 meqavat gücündə "Alxaslı" su-elektrik stansiyaları yenidən qurularaq istismara verilib, 4 meqavat gücündə "Sus" Su-Elektrik Stansiyası bərpa edilib. Nəticədə bu günə kimi "Azərenerji" tərəfindən Laçın rayonunda istismara verilən su-elektrik stansiyalarında 77 milyon kilovat-saatdan artıq ekoloji cəhətdən təmiz "yaşıl enerji" istehsal edilib.

77 milyon kilovat-saat "yaşıl enerji"nin istehsal edilməsi ilə 18 milyon kubmetr qaza və milyonlarla manat vəsaitə qənaət edilib və 32 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. Ən əsası, ekosistemin qorunması üçün zəruri tədbirlər görülüb, stansiyalarda Avropa istehsalı olan eko-turbinlər quraşdırılıb.

Hazırda Laçın rayonunda ümumi gücü 40 meqavatdan artıq olan daha 5 su-elektrik stansiyasının tikintisi davam edir. Daha doğrusu, artıq 14,25 meqavat gücündə "Ağbulaq" SES-də işlər tamamilə yekunlaşıb. 14,7 meqavat gücündə "Ağbulaq-2", 4 meqavat gücündə "Qaraqışlaq", 3,5 meqavat gücündə "Mirik" və 2,8 meqavat gücündə "Zabux" su-elektrik stansiyalarında tikinti işləri başa çatıb və hazırda quraşdırma və sazlama işləri həyata keçirilir. "2024-yaşıl dünya" naminə həmrəylik ili çərçivəsində bu 5 su-elektrik stansiyasının da istismara verilməsi planlaşdırılır.







# Avropa Birliyi erməni təxribatçılarına dəstək verir

*Keçmiş ittifaq süquta uğradıqdan sonra Ermənistan özünə "böyük" qardaş axtarmağa başladı. Gah Rusiyaya, gah da Fransaya üz tutdu. "Qardaş"larının hesabına da uzun illər Azərbaycan ərazilərində işğalçılıq planlarını həyata keçirdi. Ermənilər məkrli niyyətlərini həyata keçirmək üçün xaricdəki lobbilərinin dəstəyi ilə beynəlxalaq təşkilatları da ələ almağa çalışdı. Onlardan biri də Avropa Birliyidir. Tərəflər arasındakı isti münasibətlərin təməli 2017-ci ildə qoyulub. Ermənistan Aİ-dən kifayət qədər maliyyə yardımı alır. 2017-2020-ci illər ərzində Avropa Birliyinin Ermənistana göstərdiyi kömək 185 milyon avro təşkil edib.*

Rusiyadan üz döndərən Ermənistan indi Avropa Birliyi ilə daha sıx əlaqələr qurmağa çalışır. Cəbhədə təxribat törədən kimi günahsız olduğunu "sübut" etmək üçün bu təşkilata üz tutur. Avropa Birliyində oturanlar da ermənilərə çox böyük sevgi ilə qucaq açırlar. Son günlər baş verən hadisələr bunu bir daha təsdiqləyir.

Xəbər verildiyi kimi, fevralın 12-də saat 13:37 radələrində Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan silahlı qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyindən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə atəş açılıb. Açılan atəş nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu yaralanıb.

Ermənilərin təxribatına cavab olaraq Azərbaycan Dövlət Sərhəd Xidməti 13 fevralda "Qisas" əməliyyatı həyata keçirib. Əməliyyat nəticəsində fevralın 12-də əsgərimizə atəş açılan erməni postu darmadağın edilib, atəş nöqtələri susdurulub. Ermənistanın 4 hərbçisi məhv edilib, 1-i isə yaralanıb.

Fevralın 12-də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindəki törətdikləri təxribatı ört-basdır etmək, dolayısı yolla özlərinə haqq qazandırmaq üçün tələm-tələsik özünü Avropa İttifaqına çatdırıb. Dünyada ermənipərəst mövqeyi ilə tanınan bu ittifaqın xarici əlaqələr və təhlükəsizlik üzrə nümayəndəsi Cozep Borellə görüşüb. Təbiidir ki, bu təcili görüş hadisələri qabaqlamaq, beynəlxalq aləmə yalan informasiyalar ötürmək və özünü günahsız kimi göstərmək məqsədi güdürdü. Amma erməni nazir nə qədər ora-bura qaçsa da, həqiqətin üstünü uydurduğu yalanlarla ört-basdır edə bilməyəcək. Çünki Ermənistan-Azərbaycan şərti dövlət sərhədində baş verən hadisələrin görüntüləri yayılıb.

Dövlət Sərhəd Xidmətinin erməni təxribatına cavab olaraq "Qisas" əməliyyatı həyata keçirdiyi gün Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borel Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla birgə mətbuat konfransı keçirib. Mətbuat konfransında hadisələrdə günahsız olduqlarını "sübut" etmək üçün erməni nazir Azərbaycan əleyhinə əsassız fikirlər səsləndirib. O, reallığı əks etdirməyən iddialarla təxribatlarına haqq qazandırmağa çalışıb.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Cozep Borellə görüşərkən diqqətçəkən məqam da olub. Cozep Borelin Mirzoyana verdiyi sual eşidənlərdə böyük maraq doğurub. Borel Mirzoyanla salamlaşanda şərti sərhəddə baş verən insidenti nəzərdə tutaraq, "Təəssüf ki, yenə problemimiz var, hə?" sualını ünvanlayıb. Mirzoyan da suala "Təəssüf ki, bəli" cavabını verib. Elə bu sualın özü sübut edir ki, ermənilər təxribat törədən kimi onu ört-basdır etmək üçün Avropa Birliyinin üstünə qaçırlar.

Azərbaycanın Xarici İşlər Nazirliyi fevralın 13-də Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borelin Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla keçirdiyi mətbuat konfransı ilə bağlı məlumat yayıb. Məlumatda xüsusi olaraq diqqətə çatdırılır ki, Cozep Borelin hərbi təcavüz törətmiş Ermənistan tərəfinə bəraət qazandırması, Ermənistanın hərbi təxribatına göz yumulması kimi qiymətləndirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimindəki tarixi çıxışında Ermənistanın fevralın 12-də cəbhədə törətdiyi təxribatdan bəhs edərək demişdir: "Bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Bu, bir daha onlara və əsasən onlara ürək-dirək verən, üstümüzə göndərən qüvvələrə siqnal idi ki, bizim qabağımızda heç kim dura bilməz. Ermənistanın nə qədər havadarları olsa da, heç kim bizi dayandıra bilməz. Bizim siyasətimiz beynəlxalq hüquqa əsaslanır. Bizim Ermənistan ərazisinə iddiamız yoxdur, ancaq onlar da öz iddialarını geri döndərməlidirlər. Bizdən əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa gələcək və onu yəqin ki, hər kəs görür."

Hələlik nə Avropa İttifaqının Ermənistandakı mülki müşahidə missiyasından, nə də digər qurumlarından Ermənistanın təxribatına reaksiya yoxdur. Əslində, Ermənistanı təxribatçı hücumlara həvəsləndirən də məhz həmin "mülki" missiya və Qərbin ayrı-ayrı paytaxtları və təsisatlarıdır. "Qisas" əməliyyatı nəticəsində məhv edilənlərin "Yerkrapa" terror təşkilatının muzdlularının olması faktı çox sirlərin üstünü açır. Terror təşkilatı 1993-cü ildə Azərbaycan ərazilərinin işğal olunması prosesində yaradılmış və Qarabağda qırğınlar törətmişdi.

Məşhur britaniyalı politoloq Neil Uatson mətbuata açıqlamasında bildirib ki, təxribatın arxasında Ermənistan cəmiyyətində və siyasətində ən yüksək səviyyədə mövcud olan revanşist əhvali-ruhiyyəni təmsil edən qüvvələr durur. Onlar Nikol Paşinyanın zəif tərəflərini nümayiş etdirirlər, çünki o, ölkədəki revanşistləri idarə edə bilmir.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın da, Avropa Birliyinin nümayəndəsi Cozep Borelin də mətbuat konfransında Azərbaycanın əleyhinə səsləndirdikləri fikirlər tamamilə əsassızdır. Ermənistan rəhbərliyi ölkəmizə şər-böhtan ataraq beynəlxalq təşkilatları aldatmaqdansa, ərazisindən terrorçuları, muzdluları təmizləsə, daha yaxşı olar. C.Borelin Azərbaycana qarşı bu cür qərəzli mövqe tutması, ermənilərin tərəfini saxlaması təxribatçıların dəyirmanına su tökməkdən başqa bir şey deyil. Avropa Birliyinin erməni yalanlarına aldanıb hadisələrə bu cür yanlış yanaşması təəssüf doğurur.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

Tarixin ən qüdrətli Azərbaycanı yeni dövrə qədəm qoydu

Qalib Prezident, Müzəffər Ali Baş Komandan İLHAM ƏLİYEV and içdi




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar barədə Elan

Yaşıl Kart sığorta növü üzrə İcbari Sığorta Bürosunun iştirakçı sığorta şirkətləri bunlardır: "AtaSığorta" ASC, "Atəşgah" Sığorta Şirkəti ASC, "Azərbaycan Sənaye Sığorta" ASC, "Bakı Sığorta" ASC, "Meqa Sığorta" ASC, "Paşa Sığorta" ASC, "Qala Sığorta" ASC, "Xalq Sığorta" ASC.

# B İ L D İ R İ Ş

"Azərenerji" ASC tərəfindən 05.11.2023-cü il tarixdə elan edilmiş **110/35/6 kV-luq "Ələt" Yarımstansiyasının 2x80 MVA gücündə transformatorla yenidən qurulması işlərinin satın alınması** üzrə açıq tender üsulu ilə keçirilən müsabiqədə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən "Electro İndustries" QSC müsabiqənin qalibi müəyyən edilmişdir.

Qalib gəlmiş təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Paşinyan-kilsə qarşıdurması böyüyür

## Baş nazirin tərəfdarları fevralın 24-də katolikos II Qareginin istefasını tələb edəcəklər

**Hayastanda kilsə və hakimiyyətin qarşıdurması açıq müstəviyə keçir. Artıq hakimiyyət ölkədə yeni etiraz aksiyasının keçirilməsini planlaşdırır. Bu dəfə hədəfdə ümumerməni katolikosu II Qaregindir. Nikol Paşinyanın tərəfdarları fevralın 24-də katolikos II Qareginin istefası tələbi ilə mitinq keçirməyi planlaşdırırlar.**



Aksiya ötən ay Hayastana köçmüş ABŞ vətəndaşı Andranik Dovlatyanın təşəbbüsü ilə keçiriləcək. Bu məqsədlə "Vardanank" ("Şükranlıq") adlı yeni hərəkat yaradılıb. O, Hayastan hökumətinin fəal tərəfdarlarını birləşdirib. Mətbuatda baş nazir Nikol Paşinyan və hakim "Mülki müqavilə" partiyasının müdafiəsi ilə bağlı yazılar dərc edir. Andranik Dovlatyan Hayastan vətəndaşlarını II Qareginə qarşı aksiyaya qoşulmağa çağırıb.

Bildirilib ki, baş nazir Nikol Paşinyan Hayastanda iki istiqamətdə islahatlar planlaşdırır. Bunlar yeni konstitusiyanın hazırlanmasından, Eçmiədzin kilsəsində kadr dəyişikliyindən, yaxud II Qareginin istefasına nail olmaqdan ibarətdir.

"Past" nəşri yazıb ki, Nikol Paşinyan hakimiyyəti ardıcıl olaraq milli dəyərlərə, ümumiyyətlə, istənilən erməni dəyərlərinə qarşı hücumlarını davam etdirir. Qeyd edilib ki, Hayastan hakimiyyəti növbəti kampaniyanı fevralın 24-də bütün ermənilərin katolikosuna qarşı etiraz aksiyası keçirəcəyini bəyan edən hərəkat vasitəsilə həyata keçirməyə qərar verib. Əslində bu, Erməni Apostol Kilsəsinə qarşı kampaniyanın növbəti "seriyası"dır.

Bildirilib ki, hakimiyyət dəyişikliyindən dərhal sonra Nikol Paşinyan və komandası xüsusi olaraq "Yeni Ermənistan, Yeni Patriarx" hərəkatını təşkil edərək, kilsəyə qarşı total hücumlara başladı: "Doğrudur, gözlənildiyi kimi, biabırçı bir iflasa uğradı, lakin bunun bəzi təşkilatçıları lazımi vəzifələri tutdular. İndi daha bir antimilli tədbirin həyata keçirilməsinə cəhd ediləcək. Məlumata görə, lakin həmin gün kilsənin girişində çoxlu sayda erməni xristian olacaq və onlar Erməni Apostol Kilsəsinə qarşı növbəti hücuma imkan verməyəcəklər. Üstəlik, söhbət təkcə Eçmiədzin sakinlərindən getmir. Məlumatlar alırıq ki, Eçmiədzinə müxtəlif qüvvə və təşkilatların nümayəndələri, milli dəyərləri pozmaq cəhdlərinə biganə olmayan, sadəcə, erməni xalqı gələcək".

Hayastanda din amili böyük əhəmiyyət kəsb etdiyindən hakimiyyətə gələnlər mütləq kilsənin də dəstəyinə nail olmağa çalışırlar. Lakin əhalinin etirazları fonunda Paşinyan əvvəlki hökumətin adamı olan II Qaregini vəzifədən uzaqlaşdırmağa çox cəhd etsə də, səriştəsizliyi üzündən bütün səyləri nəticəsiz qalıb.

Paşinyan hökumətinin kilsə başçısına qarşı mübarizəsi Qaraginin mühafizəçilərinin dövlətdən maliyyələşdirilməsini dayandırmaqla başlayıb. Bundan sonra proses kilsənin fırıldaqla məşğul olması, dələduzluğu, 12 milyon dollar məbləğində ianənin mənimsənilməsi, Qaraginin hökumətə qarşı çıxışları ilə davam edib.

Hayastanda kilsə ilə hökumət münasibətləri 44 günlük müharibədən sonra daha da kəskinləşib. Onda Qaragin Nikol Paşinyanın istefasını tələb etmişdi. O, kilsə ilə hökumət arasında əməkdaşlığın yetərli olmadığını da vurğulamışdı.

Hər halda proseslərin gedişi Ermənistanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4035**
**Sifariş 342**

**Qiyməti 60 qəpik**